# Qərb mediası COP29-un Azərbaycanda keçirilməsindən niyə narahatdır?

**Azərbaycana COP29-a evsahibliyi etmək etimadı göstərildiyi ilk günlərdən Qərbin qərəzli media prosesinə start verilib. Ölkəmizin alternativ enerjiyə çox böyük üstünlük verməsinə baxmayaraq respublikamızın neft-qaz istehsalçısı olması qınaq obyektinə çevrilib.**

*(ardı 8-ci səhifədə)*




# Xalq qəzeti

Xalqın qəzeti!

№ 203 (30607) 18 sentyabr 2024-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Fransanın arxasınca sürünən ölkə – Niderland

## *Amsterdamın Bakıya növbəti qərəzkarlığı*



**Niderlandın anti-Azərbaycan siyasəti ilə gündəmə gəldiyi birinci dəfə deyil. Müqəddəs kitabımız Qurana, İslam Peyğəmbərinin (s.ə.s) şəkillərinə qarşı hörmətsizlik göstərən, onları polisin gözü qarşısında yandıran radikal-sağçıların mərkəzi sayılan Niderland növbəti dəfə Azərbaycana və postmünaqişə dövründə regiondakı mövcud vəziyyətə münasibətdə növbəti qərəzini ortaya qoyub.**

*(ardı 3-cü səhifədə)*

# Azərbaycan xalqların azadlıq və suverenlik mübarizəsini dəstəkləyir



Səhifə ⇨ 2

# BTC: Səngəçaldan Ceyhana xam neft ixracı körpüsü



**Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış yeni neft strategiyasının əsas istiqamətlərindən biri də Azərbaycan neftinin dünya bazarına ixracı idi. "Əsrin müqaviləsi"nin "İlkin neft layihəsi" çərçivəsində Bakı–Novorossiysk və Bakı–Supsa boru kəmərlərinin istifadəyə verilməsi ilə müstəqil Azərbaycan Respublikası ilk dəfə olaraq öz karbohidrogen ehtiyatlarını sərbəst şəkildə beynəlxalq bazarlara çıxarmaq imkanı əldə etdi.**

Xam neftin dünya bazarlarına ixracının bir istiqamətdən asılılığının qarşısını almaq üçün şaxələndirilmiş boru kəməri sisteminin yaradılması isə Ulu öndərin uzaqgörən siyasətinin məntiqi nəticəsi idi. Gələcəkdə "Azəri" yatağının, eləcə də "Günəşli"yatağının dərinliklərdə yerləşən hissəsinin istismara verilməsi ilə artan neft həcmlərinin dünya bazarlarına çıxarılması üçün Azərbaycanın daha geniş imkanlara malik əsas ixrac boru kəmərinə ehtiyacı var idi. Xam neftin əsas ixrac marşrutunu da məhz Heydər Əliyev müəyyənləşdirdi. Təsadüfi deyil ki, Ulu öndər 1999-cu il sentyabrın 20-də o zamankı Respublika sarayında "Əsrin müqaviləsi"nin beşinci ildönümünə həsr edilmiş təntənəli mərasimdə demişdir: "Mən bu gün bəyan edirəm ki, Azərbaycan neftinin, Xəzər neftinin dünya bazarlarına çıxarılması üçün çox böyük əhəmiyyət daşıyan Bakı–Ceyhan neft kəməri tikilməlidir, istifadəyə verilməlidir".

*(ardı 7-ci səhifədə)*

# Qalib ölkənin sülhə baxış prinsipiallığı

## *Yaxud Blinkenin zəngi ilə bağlı məqamlar*

**Hazırda Cənubi Qafqazda cərəyan edən proseslər və müəyyən mənada gizli təmayülə malik gərginliklər fonunda ABŞ Dövlət katibi Antoni Blinkenin Prezident İlham Əliyevə telefon zəngi diqqət çəkməyə bilməz.**



Ondan başlayaq ki, son günlər kollektiv Qərbin Ermənistana ciddi dəstəyi var. O cümlədən, Qərbin ən mühüm aktoru olan ABŞ-ın da. Konkret olaraq, Birləşmiş Ştatlara gəlincə, o, İrəvana arxa duran tərəfdir. Yəni, ölkənin yüksək rütbəli hərbçiləri Ermənistan ordusunda təlimlər keçir, snayper silahlarının sirlərini öyrədir və sair. Hər halda, hələlik görünən budur. Əlbəttə, digər görünməyən məqamları da istisna etmək olmaz. Nəticə etibarilə, ABŞ-ın rəsmi İrəvanın düşdüyü illüziya bataqlığındakı yerini möhkəmləndirən tərəf kimi çıxış etdiyi ortadadır. Çox təəssüf ki, durum məhz belədir.

*

A.Blinkenin dövlət başçımıza telefon zəngində Ermənistanla Azərbaycan arasında davamlı sülhün yaranmasının vacibliyini, ölkəsinin bu məqsədə nail olunması üçün bundan sonra da səylərini əsirgəməyəcəyini bildirib. Ancaq Ermənistan hazırda sürətlə silahlanır, millitarizasiya siyasəti həyata keçirir və Vaşinqton da yuxarıda sadaladıqlarımıza nəzərən, istər-istəməz ölkədə hərbi ritorikanın möhkəmlənməsində və deməli, Cənubi Qafqazda gərginliyin artmasında fəal qütb rolundadır.

ABŞ Dövlət Departamentinin rəhbəri, eyni zamanda, Ermənistanla Azərbaycan arasında sərhədlərin delimitasiyası sahəsindəki nailiyyətləri, dövlət sərhədinin delimitasiyası üzrə komissiyaların birgə fəaliyyəti haqqında əsasnamənin müvafiq qaydada 2024-cü il avqustun 30-da imzalanmasını müsbət addım kimi qiymətləndirib. Əlbəttə, rəsmi Vaşinqtonun pozitiv məqamları yada salan məntiqə köklənməsi həmin məqamların dayanıqlılığı baxımından faydalıdır. Ancaq məsələ ondadır ki, söhbət sərhədlərin delimitasiyası məsələsində Bakı ilə İrəvan arasında əldə edilmiş razılaşmalardan gedirsə, həmin razılaşmalarda Birləşmiş Ştatların heç bir payı yoxdur.

Digər tərəfdən, hazırda sərhədlərin çox az qismində delimitasiya aparılıb. Qarşıda böyük işlər var. Onlara diqqət yetirərkən və rəsmi İrəvanın hazırkı sülhdən uzaq gedişlərini yada salarkən, həmin böyük işlərin heç də rəvan müstəvidə getməyəcəyini vurğulamaq mümkündür. Bəs ABŞ-nin duruma konstruktiv təsiri ola bilərmi? Gələcək barədə nə isə demək çox çətindir, hətta indiki zaman kəsiyi üçün mümkünsüzdür. Bu yerdə Prezident İlham Əliyevin üzərində dayandığı məqamlara keçid alaq.

*(ardı 4-cü səhifədə)*

# Tükdən asılmış Makron

**Bu məsələ ilk dəfə cari ilin fevral ayında qaldırılmışdı. Fransa "Vətənpərvərlər" Partiyasının rəhbəri Florian Filippo parlamenti prezident Emmanuel Makrona etimadsızlıq göstərməyə çağırmışdı. İndi bu prosedur gerçəkləşməyə başlayır.**

Bu gün Fransa Milli Assambleyası, parlamentin aşağı palatası solçu "Yenilməz Fransa" partiyasının təklif etdiyi Emmanuel Makronun impiçmenti barədə qətnaməni müzakirəyə çıxaracaq. Partiya sədrinin verdiyi açıqlamaya görə, Emmanuel Makron Fransaya nifrət edir və onu Üçüncü Dünya müharibəsinə sürükləməyə çalışır: "Deputatların hərəkətə keçməsi üçün petisiya hazırlanmalıdır. Konstitusiyanın 35 və 68-ci maddələri dövlət başçısının impiçmentini nəzərdə tutur".



Dünən günün ikinci yarısında Fransa mətbuatının yaydığı məlumata görə, Fransa Milli Assambleyasının Bürosu prezident Emmanuel Makrona qarşı impiçment prosedurunun başlanmasına dair qətnamə layihəsini müzakirəyə qəbul edib. Qeyd etdiyimiz kimi, bu təşəbbüs parlament seçkilərində qalib gəlsə də, hökumətin formalaşdırılması prosesindən kənarda qalan solçu "Yenilməz Fransa" partiyasına məxsusdur. Məlumatlarda o da qeyd olunur ki, Fransa seçicilərinin yarısı solçu müxalifətin Emmanuel Makronu prezident səlahiyyətlərindən məhrum etmək üçün impiçmentlə bağlı qətnamənin qəbulunu dəstəkləyir. Bunu "BFMTV" telekanalının sifarişi ilə "Elabe" sosioloji tədqiqatlar xidmətinin 18 yaşdan yuxarı 1000 fransalı arasında keçirdiyi ictimai rəy sorğusunun nəticələri də sübut edir. Respondentlərin yarısı bu təşəbbüsün əleyhinə çıxıb.

* * *

Fransa parlamentinə seçkiləri uduzan iqtidar partiyası uzun müddət hökumətə başçı təyin etmək problemi ilə üzləşmişdi. Yalnız iki həftə bundan əvvəl Mişel Barnier Fransanın baş naziri postuna təsdiqlənib. Solçu müxalifətin nümayəndələrinin dövlət başçısının impiçmenti üçün parlamentə müraciət etmələrinin əsas səbəbi Makronun namizədliyi məhz Yeni Xalq Cəbhəsi alyansı tərəfindən irəli sürülən iqtisadçı Lüsi Kasteni baş nazir postuna təyin etməməsidir. Yerli mətbuat yazır ki, solçuların koalisiyası parlament seçkilərində uğur qazanmasına baxmayaraq, Makronun onların nümayəndələrini yeni hökumətdən kənarlaşdırması münasibətlərin gərginləşməsinə və impiçmentin reallaşmasına qədər gətirib çıxarıb.

*(ardı 4-cü səhifədə)*

# Ermənistan və "boz idxalçılıq"




Səhifə ⇨ 9

# Tehranın Zəngəzur dəhlizinin açılmasından əndişələnməsi anlaşılan deyil



Səhifə ⇨ 3

# Prezident İlham Əliyev Əlcəzair səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Zəkiyyə İğılın etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif səviyyələrdə məmnunluq hissi doğurduğunu deyərək siyasi, iqtisadi, enerji sahələrində əməkdaşlığın inkişaf etdirilməsinin önəmini vurğuladı.

Azərbaycanın gözəl ölkə olduğunu və buraya səfərindən sevinc hissi duyduğunu bildirən səfir, ilk növbədə, Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelmacid Tebbunun salamlarını dövlətimizin başçısına çatdırdı. O qeyd etdi ki, Əlcəzair Prezidenti dövlətimizin başçısı ilə dostluğunu yüksək qiymətləndirir. 2022-ci ildə Azərbaycan Prezidentinin Əlcəzairə səfərinin əlaqələrimizin tarixində yeni səhifə olduğunu deyən Zəkiyyə İğıl vurğuladı ki, Abdelmacid Tebbun Əlcəzairdə keçirilən prezident seçkilərində qələbəsi ilə bağlı dövlətimizin başçısının ona təbrik məktubuna görə minnətdarlığını ifadə edir və Azərbaycan ilə münasibətləri daha da möhkəmləndirmək əzmindədir.

Səfir fəaliyyəti dövründə əlaqələrimizin daha da genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini dedi.

Əlcəzair Prezidentinin salamlarına görə minnətdarlığını bildirən dövlətimizin başçısı onun da salamlarını Abdelmacid Tebbuna çatdırmağı xahiş etdi və Prezident seçilməsi münasibətilə bir daha təbriklərini çatdırdı.

Dövlətimizin başçısı Əlcəzairə səfərini məmnunluqla xatırlayaraq bu səfərin ölkələrimiz arasında sıx əməkdaşlığı bir daha nümayiş etdirdiyini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycan və Əlcəzair arasında beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın davam etdirilməsinin zəruriliyini bildirdi və Azərbaycanın beynəlxalq təşkilatlarda daim səmərəlilik prinsipindən çıxış etdiyini dedi.

Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi müddətində Əlcəzairin ölkəmizə göstərdiyi dəstəyə və həmrəyliyə görə təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev ölkələrin suverenliyi, ərazi bütövlüyü, çoxtərəflilik və neokolonializmlə mübarizə məsələlərinin vacibliyinə toxundu.

Səfir Azərbaycanın Qoşulmama Hərəkatında uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırdı.

Əlcəzairə səfəri zamanı Milli Mücahidlər Muzeyini ziyarət etdiyini xatırladan dövlətimizin başçısı qeyd etdi ki, Əlcəzair xalqına qarşı törədilmiş cinayətlər və vəhşiliklərlə bağlı orada gördükləri onda xüsusi heyrət doğurub.

Prezident İlham Əliyev vurğuladı ki, ölkəmiz Qoşulmama Hərəkatına sədrliyi dövründə və hazırda da keçmiş imperiyaların müstəmləkə üsul-idarəsindən əzab-əziyyət çəkən xalqların azadlığı və suverenliyi işinə dəstək verilməsi istiqamətində fəaliyyətini davam etdirir.

Enerji sahəsində əməkdaşlıq məsələsinə toxunan dövlətimizin başçısı ölkələrimizin Avropa qitəsinə mühüm qaz ixracatçısı olduqlarını dedi və OPEC+ çərçivəsində yaxından əməkdaşlığın aparılmasından məmnunluğunu ifadə etdi.

COP29-un ölkəmizdə keçirilməsi münasibətilə də təbriklərini çatdıran səfir Azərbaycanın bu mühüm tədbirə uğurla ev sahibliyi edəcəyinə əminliyini bildirdi.

***AZƏRTAC***

# R.G.Xəlilovun Salyan Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Rüstəm Gülabba oğlu Xəlilov Salyan Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 sentyabr 2024-cü il**

# R.G.Xəlilovun Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Rüstəm Gülabba oğlu Xəlilov Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 sentyabr 2024-cü il**

# S.H.Hətəmovun Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Sevindik Hacağa oğlu Hətəmov Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 sentyabr 2024-cü il**

# S.H.Hətəmovun Salyan Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Sevindik Hacağa oğlu Hətəmov Salyan Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 sentyabr 2024-cü il**

# Qlobal nəqliyyat şəbəkələrinin təhlükəsizliyi və müasir çağırışlar

**Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) təşkilatçılığı ilə 50-yə yaxın ölkənin xüsusi xidmət orqanlarının nümayəndələrinin iştirakı ilə "Qlobal nəqliyyat şəbəkələrinin təhlükəsizliyinə yönələn müasir çağırışlar" mövzusunda II Bakı Təhlükəsizlik Forumu keçirilmişdir.**




Tədbirdə öncə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin forum iştirakçılarına müraciəti səsləndirilmiş və konfransın mövzusunu əhatə edən videomaterial təqdim olunmuşdur.

DTX rəisi, general-polkovnik Əli Nağıyev qonaqları salamladıqdan sonra çıxışında ötən ilin may ayında keçirilmiş və bu il yenidən təşkil olunan Bakı Təhlükəsizlik Forumunun tərəfdaş qurumlar arasında məlumat mübadiləsinin və qarşılıqlı əlaqənin digər sahələrinin genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını bildirmişdir.

Xidmət rəisi, həmçinin beynəlxalq terrorçuluqla və bütövlükdə, təhlükəsizlik sisteminə təhdid hesab olunan hallarla mübarizədə xüsusi xidmət orqanlarının fəaliyyətinin koordinasiyalı şəkildə təmin olunmasının vacibliyini qeyd etməklə, tədbirin ümumi maraq kəsb edən məsələlər ətrafında ölkələrin təhlükəsizlik strukturlarının müzakirə aparmaları üçün önəmli platforma olduğunu nəzərə çatdırmışdır.

Xidmət rəisi builki forumun COP29 ərəfəsində keçirilməsinin təsadüfi olmadığına diqqət çəkərək, enerji resurslarının daşınmasında istifadə olunan nəqliyyat xətlərini hədəf alan terror-təxribat aktlarının qlobal xarakterli iqtisadi və ekoloji fəlakətlərə səbəb ola biləcəyindən və bu xüsusda birgə səylərin daha da gücləndirilməsinin və ümumi fəaliyyətin səmərəliliyinin artırılmasının zəruriliyindən danışmışdır.

General-polkovnik Əli Nağıyev dövlətimizin başçısı cənab İlham Əliyevin beynəlxalq aləmdə aktual olan məsələlərə dair tədbirlərin respublikamızda təşkil olunmasına davamlı siyasi dəstək verdiyini vurğulayaraq, bu konfransın qlobal nəqliyyat dəhlizlərinin təhlükəsizliyinin üzləşdiyi risklərlə mübarizədə ortaq yanaşmaların formalaşdırılmasına və fəaliyyət strategiyasının təkmilləşdirilməsinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etmişdir.

Daha sonra tədbir xarici xüsusi xidmət orqanlarının nümayəndə heyəti rəhbərlərinin mövzu ilə əlaqədar çıxışları ilə işini davam etdirmiş, sonda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə Bakı Təhlükəsizlik Forumunun Bakıda daimi əsasda fəaliyyət göstərəcək Katibliyinin yaradılmasının iştirakçı ölkələr tərəfindən yekdilliklə dəstəkləndiyi bildirilmişdir.

***XQ***

# Xarici İşlər Nazirliyi xəbər verir

**Sentyabrın 17-də xarici işlər naziri Ceyhun Bayramov ilə Qazaxıstanın Baş nazirinin müavini, xarici işlər naziri Murat Nurtleu arasında telefon danışığı olub.**



Telefon danışığı zamanı iki ölkə arasında ikitərəfli və çoxtərəfli strateji əməkdaşlıq məsələləri, habelə regional əlaqələr müzakirə olunub.Tərəflər, beynəlxalq təşkilatlar və çoxtərəfli platformalar çərçivəsində əməkdaşlıq perspektivlərinə dair müzakirə aparıblar.

Söhbətdə Azərbaycanın Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə (AQEM) 2024-2026-cı illər üzrə sədrliyinə dair prioritet istiqamətlərə toxunulub.

Azərbaycan ilə Qazaxıstan arasında münasibətlərin strateji tərəfdaşlıq, dostluq və çoxşaxəli əməkdaşlığa əsaslanmasından məmnunluq ifadə edilib.

* * *

**"Təəssüf ki, Niderland tərəfi növbəti dəfə Azərbaycana və postmünaqişə dövründə regiondakı mövcud vəziyyətə münasibətdə qərəzli yanaşma nümayiş etdirir".**

Bu sözləri Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Niderland Krallığı tərəfindən sentyabrın 13-də dərc olunmuş hökumət proqramının "Beynəlxalq təhlükəsizlik" bölməsində yer alan iddialarla bağlı yerli medianın sualına cavabında bildirib.

Mətbuat katibi, həmçinin qeyd edib: "Əvvəla bu ölkənin Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunmasını "Dağlıq Qarabağın ələ keçirilməsi" kimi qeyd etməsi qəbuledilməzdir. Qarabağ bölgəsi hər zaman ölkəmizin ayrılmaz hissəsi olub və 30 ilə yaxın Ermənistan tərəfindən işğal altında idi. Niderlandın Ermənistanın bu qanunsuz hərəkətlərinə göz yumması təəssüf doğurur. Azərbaycanın bu ərazilərin azad edilməsi ilə bağlı tədbirləri beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan, habelə bu və ya digər şəkildə yanlış dəyərləndirilə bilinməyəcək qədər ölkəmizin suveren hüququ olub.

Bununla yanaşı, biz Azərbaycanın Qarabağ bölgəsinin qondarma "Dağlıq Qarabağ" şəklində yanlış adlandırılmasını qətiyyətlə rədd edirik. Bu, Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının daha bir bariz təzahürüdür. Respublikamızda "Dağlıq Qarabağ" adlı inzibati və ya coğrafi vahid olmadığını, habelə hər bir dövlət və təşkilatın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərində ölkəmizin müvafiq orqanları tərəfindən standartlaşdırılmış və Birləşmiş Millətlər Təşkilatının Coğrafi Adlar üzrə Ekspertlər Qrupu çərçivəsində qəbul edilmiş coğrafi adlara istinad etməli olduğunu bir daha təkrarlayırıq.

Biz Niderland tərəfini Azərbaycan ilə Niderland arasında ikitərəfli münasibətləri daha da sarsıdan, regionun beynəlxalq hüququn norma və prinsiplərinə hörmət əsasında gələcək inkişafına mane olan bu cür bəyanatlara son qoymağa çağırırıq".

* * *

**Ayxan Hacızadənin digər açıqlamasında sentyabrın 16-da Ermənistanın ABŞ-dakı səfirliyində Müstəqillik Günü tədbirində ABŞ Beynəlxalq İnkişaf Agentliyinin administrator müavini İzobel Koulmanın Azərbaycana qarşı ittihamı şiddətlə pislənilib və qətiyyətlə rədd edilib:**

"Administrator müavininin son dərəcə məsuliyyətsiz ifadələri Azərbaycanın suveren ərazilərində Ermənistan silahlı qüvvələrinin qanunsuz mövcudluğuna son qoymuş antiterror tədbirləri ilə bağlı faktları təhrif etmək məqsədi daşıyır.

Azərbaycanın tədbirləri beynəlxalq hüquqa, o cümlədən beynəlxalq humanitar hüquqa tam uyğun olub və heç vaxt mülki əhalini hədəf almayıb".

Açıqlamada daha sonra deyilir ki, antiterror tədbirlərinə gətirib çıxaran Ermənistan silahlı qüvvələrinin ərazilərimizdən geri çəkilməsi üzrə öhdəliklərin yerinə yetirilməməsini, Ermənistan rəhbərliyi tərəfindən hərbi-siyasi təxribatların törədilməsini, o cümlədən Ermənistanın baş nazirinin son 30 ildə bu ölkə tərəfindən dəstəklənən qondarma rejimə sentyabrın 2-də ünvanladığı məsuliyyətsiz təbrik mesajını qınamaq əvəzinə, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin rəsmilərinin Azərbaycan əleyhinə səsləndirdikləri iddialar separatizmin və Ermənistanın daxilindəki revanşist qüvvələrin təşviqindən başqa bir şey deyil: "ABŞ Beynəlxalq İnkişaf Agentliyinin regionda sayı 10 dəfə çox olan azərbaycanlı qaçqın və məcburi köçkünlərə münasibətdə eyni həvəs nümayiş etdirməyən uzaqgörməz siyasəti və mövcud reallıqlardan xəbərsizliyi ziyanlıdır, regionda sülh və təhlükəsizlik naminə heç bir nəticə verməyəcək".

***XQ***

# Baş prokurorun Xızıda qəbulu

**Baş prokuror Kamran Əliyev Xızı rayon prokurorluğunun inzibati binasında Xızı, Siyəzən, Şabran rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.**



Qəbulda iştirak edən 15 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olub.

***XQ***

# Tehranın Zəngəzur dəhlizinin açılmasından əndişələnməsi anlaşılan deyil

**Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmizə münasibətdə tutduğu mövqe mehriban qonşuluq siyasətinə uyğun gəlməyən İran İslam Respublikası son vaxtlar regionda nəqliyyat kommunikasiyalarının açılmasına qarşı var gücü ilə fəaliyyətə keçib. Rəsmi Tehran bölgədə kommunikasiyaların açılmasını, başqa sözlə desək, Zəngəzur dəhlizinin işə düşməsini özünün "qırmızı xətti" (?) adlandırıb. Onların bu canfəşanlığı isə dəhlizin açılması ilə bağlı Rusiya tərəfinin son vaxtlar əməli addımlar atmaq istəyinə cavab kimi nəzərdən keçirilə bilər.**



Əgər İran rəsmiləri əvvəllər bu məsələdə öz aləmlərində ölkəmizi "təhdid" edirdilərsə, qeyd etdiyimiz kimi, hazırda onlar şimal qonşumuza tərəf istiqamətləniblər. Sonuncu dəfə bu istiqamətdə xəbərdarlığı Rəhbərlik üzrə Ekspertlər Məclisinin sədr müavini və İran Konstitusiyasının Keşikçilər Şurasının üzvü, ayətullah Əlirza Ərafi edib. Deyib ki, İranın xarici siyasətinin hədəf və məqsədi dünyada birqütblü sistemin hökmranlığına son qoyulmasına və bu istiqamətdə bütün sazişlərə, o cümlədən Şanxay Əməkdaşlıq Təşkilatı, BRICS və digər təşkilatlar çərçivəsində qəbul edilmiş sənədlərə əsaslanır. "Fars" xəbər agentliyinin yaydığı məlumata görə, ayətullah bildirib: "Çin və Rusiya kimi ölkələrlə dostluq, iqtisadi, siyasi, elmi əlaqələr buna əsaslanır. Lakin biz Rusiyaya xəbərdarlıq edirik ki, dostluq münasibətlərinə baxmayaraq, Fars körfəzindəki üç ada üzərində mülkiyyət məsələsi və Zəngəzur dəhlizi bizim qırmızı xəttimizdir".

Ərafi qardaş Türkiyənin də, necə deyərlər, bostanına daş atmağı unutmayıb. O, İsrailə qarşı tədbirlərin görülməsinin zəruriliyini bəyan edən Türkiyə Prezidentinin sözlərinə cavab olaraq deyib: "Birincisi, İsrailin ölkənizdəki səfirliyini bağlayın, ikincisi İsrailə qarşı müqavimət oxunu dəstəkləyin".

Qeyd edək ki, ayətullah Ərafi Zəngəzur dəhlizi əleyhinə İranda fikirlər səsləndirən nə birinci, nə də sonuncu şəxsdir. Yəqin ki, qarşıdakı günlərdə digər rəsmi və qeyri-rəsmi şəxslərin dəhlizlə bağlı açıqlamalarının şahidi olacağıq. İran hakimiyyəti bununla təkcə Rusiya və Azərbaycan prezidentlərinin deyil, elə Ermənistan baş nazirinin də mövqeyinə qarşı çıxır. Çünki regionda kommunikasiyaların açılması üç ölkə liderinin 2020-ci il noyabrın 10-da imzaladıqları üçtərəfli Bəyanatda öz təsbitini tapıb. Bəyanatın 9-cu bəndi bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpasını nəzərdə tutur. Rəsmi İrəvan vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə ölkəmizin qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verib. Eyni zamanda, nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanlarının həyata keçirəcəyi bəyanatda qeyd olunub.

Göründüyü kimi, Zəngəzur dəhlizi ilə bağlı bütün məsələlər üç ölkəyə – Azərbaycan, Rusiya və Ermənistana aiddir. Həmçinin, Prezident İlham Əliyev, Prezident Vladimir Putin və baş nazir Nikol Paşinyan arasında 2021-ci il yanvarın 11-də Moskvada keçirilən görüşdən sonra qəbul edilmiş üçtərəfli bəyanat əsasında baş nazirlərin müavinlərindən ibarət İşçi qrupu yaradılıb. İşçi qrupu 2020-ci il 10 noyabr tarixli Bəyanatın 9-cu bəndinin, yəni regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası ilə bağlı hissəsinin reallaşdırılması məqsədini daşıyır. Yeri gəlmişkən, qeyd edək ki, həm də İranın Ermənistana təsiri nəticəsində son vaxtlar işçi qrupunun fəaliyyətində durğunluq yaranıb. Onun iclaslarını xeyli müddətdir ki, keçirmək mümkün olmur.

Beləliklə, aydın görünür ki, Zəngəzur dəhlizi üç ölkənin birgə müzakirələri və əməkdaşlığı yolu ilə açıla bilər. İranın bu prosesə müdaxiləsi anlaşılan deyil. Ancaq bundan faydalanan təkcə üç ölkə olmayacaq. Bütün region ölkələri, o cümlədən İran dəhlizin açılmasından bəhrələnə bilər.

Tarix boyu – istər çar Rusiyasının, istərsə də Sovet İttifaqının mövcud olduğu dövrdə qorxusundan Moskvanın bir tələbini iki etməyən, Türkmənçay müqaviləsinə əsasən Xəzərdə hərbi gəmilər – donanma saxlamaq hüququndan məhrum edilən İran indi Rusiyanın Ukrayna ilə müharibədə istədiyi nəticəni qazana bilməməsindən ürəklənərək şimal qonşumuza meydan oxumağa çalışır. Ancaq Rusiya da öz mövqeyindən geri addım atana oxşamır. Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu sentyabrın 10-da Sankt-Peterburqda İran Ali Milli Təhlükəsizlik Şurasının katibi Əli Əkbər Əhmədianla görüşdə Moskvanın Zəngəzurla bağlı qəti və sabit siyasətini vurğulayıb. "Moskva Zəngəzurla bağlı əldə olunan əvvəlki razılaşmalara sadiqdir və bizim bu istiqamətdə olan siyasətimiz heç bir şəkildə dəyişməyib" – deyə Rusiya rəsmisi bildirib. Eyni zamanda, Şoyqu Fars körfəzində Birləşmiş Ərəb Əmirlikləri və İran arasında böhrana səbəb olan üç ada məsələsi (Böyük Tomb, Kiçik Tomb və Əbu-Musa adaları) ilə bağlı deyib ki, Rusiya bu məsələdə İranın suverenliyi və ərazi bütövlüyünü dəstəkləyir.

Bundan bir neçə gün əvvəl isə Rusiyanın Tehrandakı səfiri Aleksey Dedov İran Xarici İşlər Nazirliyinə çağrılmışdı. Onu nazirliyin Avrasiya Baş İdarəsinin rəisi və nazirin köməkçisi Müctəba Dəmirçilu qəbul etmişdi. Görüş məhz Moskvanın Zəngəzur dəhlizinə dəstək verən bəyanatlarına etiraz əlaməti olaraq keçirilmişdi. Dəmirçilu bildirmişdi ki, Tehran regionun müəyyən edilmiş sərhədlərində istənilən geosiyasi dəyişikliyə (?) qarşıdır. Baş idarə rəisi rusiyalı diplomata İran dövlətinin qəti mövqeyinə hörmətlə yanaşmağın vacibliyini və region ölkələrinin potensialından problemlərin həlli, bölgədə sülh və sabitliyin təşviqi, habelə, bütün tərəflərin maraqlarını nəzərə almaqla iqtisadi planların həyata keçirilməsi üçün istifadə edilməsinin vacibliyini xatırlatmışdı.

Beləliklə, İran öz mövqeyindən geri çəkilənə, konstruktiv yanaşma nümayiş etdirənə bənzəmir. Rəsmi Tehran Azərbaycan torpaqlarının işğal altında olduğu müddətdə İslam həmrəyliyinə zidd olaraq, yürütdüyü ölkəmizi zəif salmaq siyasətini bu gün də davam etdirir. Eyni zamanda, Zəngəzur dəhlizi İranda əksər hallarda "Turan yolu" adlandırılır və onun işə düşməsinin Türk dünyasının birliyinə yol açacağından ciddi narahatlıq hissi keçirilir.

Aydındır ki, Ermənistanın ərazi bütövlüyü məsələsi burada bəhanədir. Rəsmi Tehran yaxşı bilir ki, dəhlizin açılması Ermənistanın beynəlxalq hüquqla tanınan ərazilərini dəyişməyəcək. Elə üçtərəfli bəyanatda da hansısa ilhaqdan deyil, maneəsiz hərəkətdən bəhs olunur. Ortada ən azı Rusiya Prezidentinin imzası var. Ötən yazılarımızın birində qeyd etdiyimiz kimi, İran hakimiyyətinin bu mövqeyi, yəni Ermənistanı dəhlizi açmağa imkan verməməsi heç də İrəvanın maraqlarını düşünməsindən irəli gəlmir. Tehran dəhliz layihəsini ilk növbədə özünün milli təhlükəsizliyinə təhdid sayır.



**Dövlət İdarəçilik Akademiyasının müşaviri, Bakı Politoloqlar Klubunun rəhbəri Zaur Məmmədov** Zəngəzur dəhlizi ətrafında baş verənlərlə bağlı XQ-yə açıqlamasında bildirdi ki, son iki həftə ərzində İran parlamentariləri, politoloqları, hərbçiləri tərəfindən bu istiqamətdə bir-birinin ardınca bəyanatlara şahidlik etməkdəyik. Bu bəyanatlarda Rusiya Prezidentinin və Xarici işlər nazirinin dəhlizin açılmasına tərəfdar olması tənqid edilir və narahatlıq doğurduğu bildirilir: "Məsələ ilə bağlı narahatlığın ciddiliyinin təsdiqi cənub qonşumuzun son bir həftədə az qala hər gün Azərbaycana, Ermənistana, əlalxüsus da Rusiyaya media resursları vasitəsilə bu yolun açılmasına "icazə verməyəcəkləri" ilə bağlı göndərdikləri ismarıclardır. Bir neçə gün öncə İranın Ali Rəhbəri Əli Xameneyinin nümayəndəsi və Ali Milli Təhlükəsizlik Şurasının katibi Əli Əkbər Əhmədian BRICS tədbirində iştirak etmək üçün Sankt-Peterburqa gəlib və orada Sergey Şoyqu ilə görüşdə Rusiya tərəfinin Zəngəzurla bağlı mövqeyinin aydınlaşdırılmasını istəyib".

Z.Məmmədov güman edir ki, İranı narahat edən əsas məqam bölgənin gələcək siyasi, iqtisadi və hərbi coğrafiyası ilə bağlı Rusiyanın Azərbaycanla, yoxsa İranla həmfikir olması məsələsidir. Ermənistan və Rusiya arasında münasibətlərin soyuqlaşması və son vaxtlar Bakı ilə Moskva arasında ənənəvi yanaşmaların deyil, yeni reallıqların formalaşması və yeni baxış bucağının üstünlük təşkil etməsi Tehranı narahat etməkdədir. Hərçənd, Azərbaycan tərəfi dəfələrlə sübut edib ki, 44 günlük Vətən müharibəsi nəticəsində bölgədə yaranan yeni geosiyasi reallıqlar İrana da böyük üstünlüklər gətirəcək.

Politoloq qeyd etdi ki, Türk dünyasının inteqrasiyasının güclənməsi və Zəngəzur dəhlizinin bu məsələdə oynaya biləcəyi mühüm rolla bağlı İranda isterika yaşanır. Ancaq bu məsələdə İranda əvvəllər də isterika yaşanıb: "Hələ 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Qacarlar dövlətinin rəsmi şəxsləri və digər siyasi xadimləri Cənubi Qafqazdakı proseslərə ehtiyatla yanaşır və baş verənləri öz dövlətləri üçün təhdid sanırdılar. 1919-cu ildə əvvəlcə Məhəmməd Əmin Rəsulzadə, daha sonra Yusif Vəzir Çəmənzəminli "Xarici siyasətimiz" adlı kiçik həcmli əsərində Tehranın narahatlığına cavab vermişdilər. Onlar yazılarında qeyd edirdilər ki, İranın hüquqlarına təcavüz etmək fikrində deyilik, olmamışıq və olmayacağıq. Bizim tərəqqi və rifahımızı təmin edən yalnız qonşularımızla dostluğumuz olacaqdır".

Müsahibimiz bildirdi ki, bu gün də Azərbaycan dövlətinin rəsmi şəxsləri ölkəmizin İranla dostluq-qonşuluq münasibətlərinin tərəfdarı olduğunu dəfələrlə bəyan ediblər. Bu illər ərzində Ermənistanın tam olaraq blokadada qalmamasının yeganə səbəbinin İran olmasına, 2020-2023-cü illərdə Tehranın bölgədə müəyyən xoşagəlməz addımlar atmasına baxmayaraq, Azərbaycan dövləti bütün qonşularını, o cümlədən İranı "3+3" formatında iştirak etməyə dəvət edib. Rəsmi Bakı "Şimal–Cənub" nəqliyyat dəhlizinin mümkün qədər tez işə düşməsi üçün səylərini davam etdirir. Arazın cənubundakı siyasətçilər çox yaxşı bilirlər ki, Azərbaycan rəhbərliyi heç vaxt İrana qarşı koalisiyalarda iştirak etməyib və əsl qonşuluq və dostluğun necə olduğunu dəfələrlə birtərəfli qaydada sübut edib. İran rəsmilərinin, nəhayət, bunu qiymətləndirmələri gərəkdir.

*Səxavət HƏMİD*
*XQ*

## Fransanın arxasınca sürünən ölkə – Niderland



**(əvvəli 1-ci səhifədə)**

"Bu ölkənin Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsini "Dağlıq Qarabağın ələ keçirilməsi" kimi qeyd etməsi qətiyyən qəbuledilməzdir". Bunu Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə Niderland hökumətinin saytında dərc olunmuş yanlış və qərəzli proqramını şərh edərkən deyib.

Aydın məsələdir ki, hollandiyalı diplomatlar üçün Qarabağın hansı coğrafiyada yerləşməsinin elə bir prinsipial əhəmiyyəti yoxdur. Həmin məlumatı hökumətin rəsmi saytına kimin və hansı niyyətlə "sırımasının" səbəbləri bizə məlumdur. O da sirr deyil ki, Avropa İttifaqında Fransanın sifariş verdiyi "musiqi altında oynamağa" vərdiş etmiş ölkələrdən biri də Niderlanddır. "Kollektiv Qərb"in Azərbaycana yönəlik siyasi, hərbi, dini və ideoloji kampaniyasına qoşulmuş Niderland son illər hayların Azərbaycanofobiya, Türkəfobiya və İslamofobiyanı körükləndirdikləri məkanlardan birinə çevrilib. Bu baxımdan rəsmi Amsterdamın hökumət səviyyəsində informasiya təxribatı təəccüb doğurmamalıdır. Amma bu qərəzli yanaşmanı cavabsız da buraxmaq olmaz.

Məsələyə məhz bu kontekstdən yanaşan A.Hacızadə şərhində qeyd edib ki, Qarabağ bölgəsi hər zaman Azərbaycanın ayrılmaz tərkib hissəsi olub və 30 ilə yaxın Ermənistanın qanunsuz işğalı altında idi. Niderlandın bu müddət ərzində Ermənistanın işğalçılıq siyasətinə, torpaqlarımızda qanunsuz və cinayətkar hərəkətlərinə göz yummasının təəssüf doğurduğunu vurğulayan XİN rəsmisi Azərbaycanın tarixi ərazilərin azad edilməsi ilə bağlı həyata keçirdiyi tədbirlərin beynəlxalq hüququn norma və prinsiplərinə əsaslandığını Amsterdamın diqqətinə çatdırıb. A.Hacızadə habelə Qarabağın bu və ya digər şəkildə yanlış dəyərləndirilə bilinməyəcək qədər ölkəmizin ayrılmaz bir parçası və suveren hüququmuzu bərpa etdiyimiz ərazisi olduğunu da diqqətə çatdırıb.

Azərbaycan XİN-in rəsmi nümayəndəsi şərhində onu da bildirib ki, Azərbaycanın Qarabağ bölgəsinin qondarma "Dağlıq Qarabağ" şəklində yanlış adlandırılması həqiqətə və reallığa qətiyyən uyğun deyil: "Bu, Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının daha bir bariz təzahürüdür. Azərbaycanda "Dağlıq Qarabağ" adlı inzibati və ya coğrafi vahid olmadığını, habelə hər bir dövlət və təşkilatın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərində ölkəmizin müvafiq orqanları tərəfindən standartlaşdırılmış və Birləşmiş Millətlər Təşkilatının Coğrafi Adlar üzrə Ekspertlər Qrupu çərçivəsində qəbul edilmiş coğrafi adlara istinad etməli olduğunu bir daha təkrar edirik. Biz Niderland tərəfini Azərbaycan və Niderland arasında ikitərəfli münasibətləri daha da sarsıdan və regionun beynəlxalq hüququn norma və prinsiplərinə hörmət əsasında gələcək inkişafına mane olan bu cür bəyanatlara son qoymağa çağırırıq".

Oxucuların diqqətinə çatdıraq ki, bir müddət bundan əvvəl Qarabağdan erməni sakinlərinin, guya, "məcburi çıxarılması"nı bəyan edən Niderland parlamentinin ardınca, bu dəfə ölkə hökuməti Azərbaycana qarşı birmənalı ədalətsiz mövqe nümayiş etdirib. Sentyabrın 13-də Niderland hökumətinin saytında dərc edilmiş xarici siyasət proqramında Qarabağ ələ keçirilmiş region kimi təqdim edilib və "Dağlıq Qarabağ" kimi qeyd olunub.

Fransanın ardınca "erməniləşmə" xəstəliyinə yoluxduğu aşkar görünməkdə olan Niderlandın müvafiq göstərişləri hansı instansiyalardan aldığı sirr deyil. Bu hərəkəti ilə son vaxtlar Parisin və Vaşinqtonun başlatdığı və getdikcə intensivləşən anti-Azərbaycan düşərgəsinə qoşulanların sayını artıran rəsmi Amsterdam bununla haqqın və ədalətin üzərinə kölgə saldığının fərqində deyil. Əgər o, hayların gözləri önündə yalan və saxtakarlıqdan toxuduqları pərdəni kənara çəkmiş olsaydı, reallıqdan doğan həqiqəti aydınca görə bilərdi. Onsuz da gec-tez dediyimiz kimi olacaq. Axı yalanın ömrü ...qırx günü keçmir.

*İ.HƏSƏNQALA*
*XQ*

## Vahid Məhkəmə Portalı üzrə yeni funksional imkanlar

**Dünən Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın "Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi" işçi qrupun geniş tərkibdə növbəti iclası keçirilib.**

Toplantıda Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın Katibliyinin, Ədliyyə Nazirliyinin, Ali Məhkəmənin, Bakı Apellyasiya Məhkəməsinin və Məhkəmə-Hüquq Şurasının əməkdaşları, İqtisadiyyat Nazirliyinin, Dövlət Gömrük Komitəsinin, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, Mediasiya Şurasının nümayəndələri və İşçi qrupun digər üzvləri, o cümlədən özəl sektorun nümayəndələri iştirak ediblər.

Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri, Komissiyanın Katibliyinin rəhbəri Vüsal Şıxəliyev işçi qrupun ötən illərdə kifayət qədər uğurlu fəaliyyət göstərdiyini, 2024-cü il üzrə əsas hədəfləri əhatə edən Yol Xəritəsinin əksər tədbirlərinin artıq icra olunub yekunlaşdığını, bu işlər çərçivəsində əldə edilmiş nailiyyətlərin müvafiq sahədə biznes mühitinə əhəmiyyətli müsbət təsir edəcəyini və özəl sektorun məmnunluğunun artmasına xidmət edəcəyini bildirib.

Ədliyyə nazirinin müavini, işçi qrupun rəhbəri Toğrul Hüseynov indiyədək əldə edilmiş əsas nailiyyətlərdən söz açaraq qeyd edib ki, elektron məhkəmə sisteminin inkişafı, məhkəmələrin və digər orqanların qərarlarının operativ icrası və effektivliyinin artırılması istiqamətində qanunvericilikdə müvafiq dəyişikliklərin edilməsi üzrə işlər aparılır. O, mediasiyanın rəqəmsallaşdırılması, icra və məhkəmə statistikası ilə bağlı məlumatların açıqlığının təmin edilməsi məqsədi ilə təşkilati tədbirlərin görüldüyünü bildirib.

Qeyd olunub ki, işçi qrupun və Mediasiya Şurasının birgə fəaliyyəti çərçivəsində mediasiya proseslərinin inkişaf etdirilməsi və rəqəmsallaşdırılması istiqamətində mühüm addımlar atılıb. Vahid Məhkəmə Portalında yaradılmış yeni funksionallıq ilə fiziki və hüquqi şəxslər üçün bütün mediasiya təşkilatları və mediatorlar barədə ətraflı məlumat əldə etmək, habelə istənilən mediatora və mediasiya təşkilatına həmin portal vasitəsilə elektron formada müraciət etmək imkanı yaradılıb. Bununla yanaşı, bütün mediasiya təşkilatları "gov.az" ölkə kodlu domenlə təmin edilib.

İclasda mübahisələrin həllinin ən rahat və çevik həll yollarından olan arbitraj proseslərinin tənzimlənməsi sahəsində ən son yeniliklər səsləndirilib. "Elektron Məhkəmə" informasiya sistemi vasitəsilə aparılan məhkəmə icraatı üzrə hazırkı vəziyyət, istifadəçi məmnunluğu və qarşıda duran vəzifələr də müzakirə olunub.

Bununla yanaşı, işçi qrupun 2024-cü il üzrə əsas hədəflərini əhatə edən Yol Xəritəsində nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti, hazırlanmış layihələrlə və görülmüş işlərlə bağlı məlumat verilib.

*XQ*

# Qalib ölkənin sülhə baxış prinsipiallığı

(əvvəli 1-ci səhifədə)

Dövlətimizin başçısı regionda artıq sülhün mövcud olduğunu vurğulayıb. Hesab edirik ki, bu fikrin özü çox şey deyir. Yəni, sülh mühiti yaranıb, bundan sonrakı proseslər həmin mühiti korlamağa yönəlməməlidir. Həm də sözügedən mühit Azərbaycanın səyləri ilə formalaşıb. Nəzərə alaq ki, ölkəmiz 44 günlük müharibə qalibi kimi məğlub Ermənistana əl uzadıb, onu barışa dəvət edib. Halbuki, bunu etməyə bilərdi. Ancaq qarşı tərəf müharibədən ötən dörd il müddətində davamlı spekulyasiyalarla məşğuldur və bərmənalı şəkildə sülhdən yayınaraq, regionda yeni reallıqlar formalaşdırmağa çalışır.

Azərbaycanın sayəsində bölgəmizdə ədalətə və beynəlxalq hüquqa əsaslanan yeni reallıqların və status-kvonun yarandığını vurğulayan Prezident İlham Əliyevin bu fikrindən sonra da Ermənistanın sözügedən reallıqlara çıxmaq istəklərinin mövcudluğunu xatırlamaq mümkündür. Əlbəttə, ölkəmizin hazırkı status-kvonu təhdid edən meyillərə qarşı ciddi müqavimət əzmini də. Dövlətimiz çalışır ki, sülhə və ədalətə əsaslanmış yeni reallıqlar möhkəm təbiətə malik olsun, ona qarşı bütün mümkün təsir elementləri aktuallığını itirsin. Bunun üçün isə Ermənistan konstitusiyası və digər qanunvericilik aktları dəyişməlidir ki, mövcud məqamı Prezident İlham Əliyev ABŞ-ın ali rəsmisinin də diqqətinə çatdırıb.

Bəli, Ermənistan Azərbaycana, ümumən qonşularına qarşı bütün ərazi iddialarından daşınmalı, daşındığını yüksək səviyyədə təsdiqləməlidir. Əlbəttə, anlayırıq ki, bu, tam təminat deyil. Ancaq indiki məqamda məsələ nəinki rəsmi İrəvanın, ümumən erməni cəmiyyətinin xoş niyyət ifadəsi kimi meydana çıxmalıdır. Ermənistan konstitusiya dəyişikliyi jestini otuz il davam etmiş işğalçılıq ləkəsini öz üzərindən atmaq üçün etməlidir. Etməlidir ki, ona inam və etimad yaransın. Ancaq yuxarıda da vurğuladığımız kimi, ölkə sülh ritorikasına zidd silahlanma yolu tutur, bunun adını özünün müdafiə qabiliyyətinin möhkəmləndirilməsi qoyur. Halbuki, prinsip etibarilə ona silahlanma lazım deyil.

***

Azərbaycan Prezidentinin A.Blinkenlə telefon danışığında üzərində dayandığı növbəti məqam ATƏT-in Minsk qrupu və onunla bağlı olan bütün təsisatların fəaliyyətinə son qoyulmasıdır. Məlumdur ki, bu da regionda sülh xüsusunda ölkəmizin Ermənistana qarşı irəli sürdüyü növbəti tələbdir. Dünya birliyi bu tələbin haqlı və məntiqli olduğunu nəzərə almalıdır.

Birincisi, ATƏT-in Minsk qrupu Azərbaycanla Ermənistan arasında otuz ilə yaxın davam etmiş danışıqlar prosesində heç bir real nəticə əldə etmədi, qurumun ABŞ-dan, Rusiyadan və Fransadan olan həmsədrlərinin işi yalnız regiona mənasız səfərlər reallaşdırmaq oldu.

İkincisi, bu təsisat fəaliyyəti, daha doğrusu, fəaliyyətsizliyi ilə vaxtı uzatmaq və işğalı düşüncələrdə leqallaşdırmaq yolunu tutdu.

Üçüncüsü, Minsk qrupunun mövcudluğu psixoloji və mənəvi baxımdan Qarabağ faktorunun mövcudluq simgəsi kimi qarşılana bilər. Belə bir faktor isə ola bilməz. Həm də ona görə ola bilməz ki, Ermənistan vaxtilə həmin qrup çərçivəsində aparılan danışıqlarda manipulyasiya yolu tuturdu. Ən sonda isə baş nazir Nikol Paşinyan 44 günlük müharibə üçün "barıt çəlləyinin ildırımı vurması" effekti verən "Qarabağ Ermənistandır və nöqtə" bəyanatını səsləndirməklə, danışıqlar prosesini tamamilə pozdu. O, belə mövqe tutmaqla, Qarabağın, heç bir halda, danışıqlar predmeti ola bilməyəcəyini göstərdi. Beləliklə, Azərbaycanın bir zamanlar bölgəyə öz yurisdiksiyası altında ən yüksək status vermək məramını da alt-üst etdi.

Dördüncüsü, hazırda Ermənistan rəhbərliyində təmsil olunanlar Bakı-İrəvan danışıqları baxımından ATƏT-in Minsk qrupu formatının məqbulluğundan da söz açırlar. Tam aydındır ki, məsələnin belə qoyuluşu həm vurğuladığımız kimi, Qarabağ amilinin mövcudluq paradiqması qismində qəbullana, həm də rəsmi İrəvanın regiondakı reallıqları dəyişmək cəhdlərinin alətinə çevrilə bilər.



***

Prezident İlham Əliyevin A.Blinkenlə telefon danışığında üzərində dayandığı növbəti məqam sərhədlərin delimitasiyası ilə bağlıdır. Ölkəmizin lideri də Azərbaycanla Ermənistan arasında başlanılmış bu prosesin pozitivliyini diqqətə çatdırır. Ancaq məlumdur ki, pozitivlik təkcə bir istiqamətli olmamalı, kompleks səciyyə daşımalıdır. Yəni, ümumən sərhədlərin delimitasiyası sülhün vacib elementi rolunda çıxış etməlidir və istər-istəməz mövcud istiqamətdəki növbəti fəaliyyət kompleks məzmunu vurğulamalıdır. Yuxarıda da qeyd etdiyimiz kimi, hələlik sərhədin çox az, prinsip etibarilə, o qədər də ciddi əhəmiyyət daşımayan nöqtələri üzrə razılaşma var. Ancaq həmin razılaşmaları Ermənistanın revanşist və şovinist kəsiminin süngü ilə qarşıladığını görürük. Ölkə rəhbərliyi isə nəinki bu meyillərə qarşı mübarizə aparmır, bir çox hallarda revanşist və şovinistlərin azğın ritorikasını dövlət siyasətinin tərkib hissəsi kimi götürür. Deməli, baş nazir Nikol Paşinyanın və komandasının başlanılmış işin məntiqi yekuna çatdırılması istiqamətində lazımi iradə nümayişi yoxdur...

***

Azərbaycan lideri ilə Birləşmiş Ştatların Dövlət Departamentinin rəhbərinin telefon danışığı zamanı üzərində dayanılmış daha bir məqam bu ilin noyabrında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransı – COP29 olub. A.Blinken COP29-un uğurla təşkili üçün ABŞ-nin Azərbaycana dəstək göstərdiyini bildirərək, hər iki ölkənin COP komandalarının və heyətlərinin yaxından əməkdaşlıq etdiklərini vurğulayıb. Bu əməkdaşlıqdan məmnunluğunu ifadə edən Prezident İlham Əliyev COP çərçivəsində iqlim maliyyələşdirilməsi ilə əlaqədar mühüm qərarların qəbuluna dair xüsusilə inkişaf etmiş dövlətlərin konsensusuna ümidvar olduğunu deyib.

Telefon danışığının bu mövzusundan söz açarkən, onu da bildirməliyik ki, hazırda COP29-la bağlı da Azərbaycana təzyiq cəhdləri olur və bu cəhdlər ABŞ-ın da tərkibində yer aldığı kollektiv Qərbdən gəlir. Ən əsası isə COP29-un ölkəmizdə təşkilini Azərbaycan – Ermənistan sülhü müstəvisinə gətirmək və beləliklə ölkəmizin ədalətsiz sülhlə razılaşmasını istəyənlərin aktivləşdiyini görürük. Yaxşı olar ki, Birləşmiş Ştatlar belə mənfi meyillərin, ümumən Azərbaycana qarşı qərəzli münasibətin aradan qalxmasına da öz töhfəsini versin. Yaxud rəsmi Vaşinqton bu cür mənfi yüklü yanaşmaların özünə aid seqmentini deaktiv etmək istiqamətində çalışsın.

Hesab edirik ki, bu, eyni zamanda, nüfuzlu beynəlxalq tədbirin əsl məramının vurğulanmasına, toplantının verdiyi mesajların beynəlxalq səviyyədə qəbuluna dəstək nöqteyi-nəzərdən vacibdir. Nəzərə alaq ki, hazırda Azərbaycanın COP29-a evsahibliyini ləkələmək böyük əhəmiyyət daşıyan tədbirin mahiyyətini heçə endirmək, onu lazımsız bir toplantı olaraq təqdim etməkdən başqa bir şey deyil. Fikrimizcə, nəinki Birləşmiş Ştatlar, ümumən dünyanın mütərəqqi kəsimi mövcud məqamı düşünməlidir. Elə edilməlidir ki, ümumən COP müstəvisi etibarını itirməsin.

Sonda onu da deyək ki, Azərbaycan dövləti hər zaman prinsiplərinə sadiqdir. Prezident İlham Əliyev A.Blinkenlə telefon danışığının mövzusu və dövlətimizin başçısının həmin mövzulara uyğun fikirləri də bunu bir daha təsdiqlədi. Hesab edirik ki, Ermənistan və havadarları, eyni zamanda, xaricdəki anti-Azərbaycan qüvvələr mövcud məqamı ətraflı düşünməli, ölkəmizi tutduğu yoldan döndərmək cəhdlərinin heç bir səmərə verməyəcəyini anlamalıdırlar. Anlayacaq, düz yola gələcək və qərəzlərindən daşınacaqlarmı? Bu barədə nə isə qəti söz demək mümkün deyil. Bizə ümid bəsləmək qalır. Əlbəttə, bununla kifayətlənmirik, necə deyərlər, əlimiz hər zaman tətikdədir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

---

# Tükdən asılmış Makron

*Onu impiçmentə sürükləyən səbəb təkcə daxili seçkiləri uduzması deyil, həm də xarici siyasətdə üzləşdiyi uğursuzluqdur*

*(əvvəli 1-ci səhifədə)*

Fransa Konstitusiyasının 68-ci maddəsinə uyğun olaraq, hazırlanan qətnamə layihəsi prezidentin vəzifələrini pozduğu təqdirdə ali postdan kənarlaşdırılmasına imkan verir. Qətnaməni "Yenilməz Fransa"nın 72 nümayəndəsi, "Yeni Xalq Cəbhəsi" blokundan 81 deputat, o cümlədən "Yaşıllar", "Sol Demokratlar və Respublikaçılar" qrupunun bəzi deputatları dəstəkləyiblər. Fransa Milli Assambleyasının aşağı palatanın ən yüksək kollegial orqanı, 22 üzvdən ibarət büro qətnaməni müzakirəyə qəbul etməklə qanunverici orqanın dövlət başçısına etimadsızlıq nümayiş etdirməklə bağlı prosedura start vermiş oldu.



Əgər qətnamə bu mərhələdən keçərsə sonra o, solçuların cəmi 24 mandata malik olduğu 73 deputatdan ibarət qanunvericilik komitəsi tərəfindən təsdiqlənməlidir. Bundan sonra iki həftə ərzində Milli Assambleya qətnaməni müzakirə etməli və səsə qoymalıdır. Sənədin növbvəti mərhələyə adlamasından ötrü Milli Assambleya üzvlərinin üçdə ikisi (385 deputat) ona səs verməlidir. Buna bənzər prosedurlar solların azlıqda olduğu Senatda da keçməlidir. Nəhayət, Senat qətnamə layihəsini təsdiq edərsə (232 səs), bu zaman hər iki palatanın birgə iclası toplanmalı və impiçmentin qəbul olunması üçün 925 parlamentaridən 617-si onu dəstəkləməlidir.

Bu son mərhələdən sonra qətnamə qanuni qüvvəyə minir və Fransa prezidenti dərhal vəzifəsindən uzaqlaşdırılır. Doğrudur, Makrona etimadsızlıq qətnaməsinin çoxpilləli prosedurların hamısından "salamat" çıxacağına yüz faizlik təminat yoxdur, amma burada ictimai rəyin müəyyən rol oynaya biləcəyini də nəzərdən qaçırmaq olmaz. Yeri gəlmişkən, onu da qeyd edək ki, sentyabrın əvvəli Parisin Bastiliya meydanına toplaşan minlərlə etirazçı Fransa prezidenti Emmanuel Makronun siyasəti ilə razılaşmadığını bildirib və onun istefasını tələb edib.

* * *

Müxalifətin məlum təşəbbüsü, yəni Fransa prezidentinə qarşı petisiya məsələsi internetdə milyonların dəstəyini qazanıb. Yerli ekspertlərin rəyinə görə, solçu "Yenilməz Fransa" Partiyası prezident Emmanuel Makrona qarşı impiçment proseduruna başlamaqla siyasi mübarizədə irəliyə doğru ciddi addım atıb. Bu barədə partiyanın parlament fraksiyasının rəhbəri Matilda Pano özünün "X" sosial şəbəkəsində açıqlama dərc edib. M.Pano bildirib ki, impiçment prosedurunun başlanmasından dərhal sonra qətnamə layihəsi birgə imzalanması üçün parlament üzvlərinin hamısına göndərilib.

Hər şeydən göründüyü kimi, başı qalmaqallardan açılmayan Yelisey Sarayının "müvəqqəti sakini"ni qarşıda gərgin və həyəcanlı anlar gözləyir. İyulun sonları avqustun əvvəllərində Parisdə keçirilmiş Yay Olimpiya Oyunlarının pis təşkilinə görə qınaq obyektinə çevrilmiş Emmanuel Makronu yerli media tez-tez tənqid atəşinə tutur.

Bir el məsəlində deyildiyi kimi, nə tökərsən aşına, o da çıxar qaşığına. Makronun özünü yuyulmamış çömçə kimi ortaya ataraq, Ermənistan–Azərbaycan sülh danışıqlarında "baş referi" rolunu oynamaq istəyi onun öz başına bəlalar açır. Cənubi Qafqazda sülh və əmin-amanlıq yaratmaq uydurmaları ilə meydana girən Fransa prezidenti arxadan Ermənistanı silahlandırmaqla məşğul olur, Azərbaycana hərbi-siyasi təzyiq göstərməyə çalışır. Bu zaman, o, unudur ki, bir il əvvəl Azərbaycanın tarixin arxivinə göndərdiyi münaqişənin qəsdən uzadıldığı 30 ilə yaxın müddətdə Minsk qrupunun üzvü olan Fransanın nümayəndələri İrəvana ancaq konyak içməyə, kef çəkməyə gəlir, qayıdandan sonra da daşnak-separatçılara dəstəklərini bildirirdilər. Bakı münaqişəni öz gücünə həll edəndən sonra yenidən "sülh meydanına" girmək istəyi baş tutmayanda indi impiçmentlə üz-üzə qalan Makron qəzəblənirdi. Daha qəzəbi soyumuş müsyö Emmanuel təkcə prezident kürsüsünün deyil, həm də siyasi karyerasının tükdən asılı vəziyyətdə olduğunu yəqin dərk edir...

***İmran BƏDİRXANLI***
***XQ***

## Ekspert rəyi



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

– Fransa prezidenti Emmanuel Makron, ola bilsin ki, birbaşa impiçmentə məruz qalmasın. Çünki bu ölkədə impiçment proseduru çoxpilləli və mürəkkəbdir. Amma fakt ondan ibarətdir ki, onun hakimiyyətdən getməsi ilə bağlı tələblər bütün Fransanı bürüyüb. Həm ölkənin siyasi elitasında, həm də ictimaiyyətdə həmin çağırışlar güclü əks-səda doğurub. Təbii ki, Makron özü də bunun fərqindədir. Avropa Parlamentinə seçkiləri uduzması da onu çıxılmaz duruma salıb. Sağçı və solçu partiyaların üstünlük təşkil etdiyi bu platformada da Fransa prezidentinin nüfuzu aşağı yuvarlanmışdır.

Xeyli vaxtdır ki, o, baş nazir təyinatını həyata keçirə bilmir. Ona görə ki, Fransa parlamentinə seçkiləri udmuş qüvvələr onun bu posta təyin etmək istədiyi namizədlərinə öz etirazlarını bildirirlər. Yəni, siyasi hakimiyyətdə də Makronun reytinqi çox aşağı düşüb. O, sadəcə, nomunal olaraq Fransa prezidenti sayılır və daxildə cərəyan gedən proseslər onu göstərir ki, öz səlahiyyətlərini tam yerinə yetirməyə hökmü də qalmayıb. Hər halda, yaranmış indiki şəraitdə daxili və xarici siyasətdə Makronun atacağı addımlar bir çox qüvvələr tərəfindən ciddi etirazlarla qarşılanacaq. Görünən odur ki, indi o, ciddi imtahan qarşısındadır.

## Ekspert rəyi



**Elxan ŞAHİNOĞLU,**
**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi icmalçı**

– Son parlament seçkilərində Emmanuel Makronun partiyası xeyli deputat yeri itirdi. Sağ radikallar və solçular çox yer qazandılar. Elə həmin gündən etibarən Makronun impiçment məsələsi gündəmdə operativliyini qoruyub saxlamaqdadır. Müxalifət partiyaları, ümumiyyətlə, növbədənkənar prezident seçkiləri tələb edirdilər. Doğrudur, o vəziyyətdə Makron mövqeyini nisbətən gücləndirməyi bacardı və bu günlərdə baş nazir də təyin etdi. Amma onun nüfuzu və mövqeyi zəif olaraq qalır. Əgər Fransa parlamentində ona qarşı istefa məsələsi qaldırılırsa da, bu, vaxt aparan prosedurdur. Hətta Makron bu müddətdə müqavimətini artırıb son nəticəyə təsir göstərə bilər.

Danılmaz fakt ondan ibarətdir ki, Fransa prezidentinin daxildə mövqeləri ciddi şəkildə zəifləyib, dəstəyi də azalıb. Bunun səbəbi Makronun həm daxili, həm də xarici siyasətinin bərbad gündə olmasıdır. Elə onun Qafqaza münasibətdə Fransanın nüfuzunun və mövqeyinin necə zəiflətdiyinin şahidi olduq. Makrona qədər Fransa–Azərbaycan münasibətləri normal idi. Ondan əvvəlki prezidentlər ermənipərəst mövqedə olsalar da, İrəvana gedəndə Bakıya da gəlirdilər. Ən azı, sözdə balansı qorumağa çalışırdılar. Makron özünün ifrat ermənipərəst siyasəti ilə bu balansı pozdu. Özü və ətrafındakılar açıq anti-Azərbaycan açıqlamalar verir, Ermənistana silah-sursat göndərirlər. Müxalifət bu dəfə istəyinə nail ola bilməsə belə, impiçment dinləmələri Emmanuel Makronun nüfuzuna ciddi zərbə vuracaq.

# Heydər Əliyev Fondunun “Bilik günü” hədiyyələri

**Heydər Əliyev Fondunun “Yeniləşən Azərbaycana yeni məktəb” layihəsi çərçivəsində Saatlı rayonunda inşa olunan 360 şagird yerlik yeni məktəb şagirdlərin istifadəsinə verilib.**

Açılış mərasimində bildirilib ki, Ömər Faiq Nemanzadə adına Günəşli kənd ümumi orta məktəbi 1994-cü ildə ibtidai məktəb kimi fəaliyyətə başlayıb. Ötən müddətdə bina istifadəyə yararsız vəziyyətə düşdüyündən yeni məktəb binasının inşasına ehtiyac yaranmışdı. Heydər Əliyev Fondu bu tələbatı cavablandırmaq üçün kənddə üçmərtəbəli 4 korpusdan ibarət yeni məktəb binası tikdirib.

Yeni təhsil ocağında 17 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, informatika otağı, hərbi təlim otağı, tibb otağı, əmək təlimi otaqları, kitabxana, yeməkxana, akt zalı, idman zalı və açıq idman meydançası yaradılıb.














***

Fondun İmişli rayonu Aranlı kənd 1 nömrəli tam orta məktəb üçün inşa etdirdiyi 624 şagird yerlik bina da yeni dərs ilinin başlanğıcında istifadəyə verilib.

Açılış mərasimində Heydər Əliyev Fondunun, Elm və Təhsil Nazirliyinin nümayəndələri, İmişli Rayon İcra Hakimiyyətinin rəhbərliyi, şəhid ailələri, məktəb kollektivi və ictimaiyyət nümayəndələri iştirak ediblər. Qeyd olunub ki, 1972-ci ildə inşa edilmiş Aranlı kənd 1 saylı tam orta məktəbin binası ötən müddətdə istifadəyə yararsız vəziyyətə düşmüşdü. Heydər Əliyev Fondunun hədiyyəsi olan 624 şagird yerlik üçmərtəbəli 4 korpusdan ibarət məktəb binası zəruri mebel və avadanlıqla, fənn kabinetləri və laboratoriyalar isə əyani vəsaitlərlə tam təchiz edilib.

***

Heydər Əliyev Fondu məktəbəqədər təhsil müəssisələrinin inkişafı sahəsindəki fəaliyyəti çərçivəsində növbəti layihəsini Qaradağ rayonunda həyata keçirilib.

Rayondakı 286 saylı körpələr evi-uşaq bağçası 1980-ci illərdə inşa olunub. Uzunmüddətli istismar nəticəsində bina istifadəyə yarasız vəziyyətə düşüb. Heydər Əliyev Fondu tərəfindən binada təmir-bərpa işləri həyata keçirilib, yataq və oyun otaqları, akt zalı, mətbəx, tibb otağı və digər inzibati və texniki otaqlar inşa edilib. 120 yerlik müəssisə zəruri mebel və avadanlıqlarla tam təchiz edilib. Bağçanın həyətyanı ərazisində yenidənqurma və yaşıllaşdırma işləri aparılıb, uşaq əyləncə qurğuları yaradılıb, qruplar üçün söhbətgahlar quraşdırılıb.

*XQ*

# Qarabağ zəfərinin Xankəndi zirvəsi

**“Hazırda xalqımız tarixinin ən mühüm və qürurlu səhifələrindən birinin – ötən ilin 19–20 sentyabrında Qarabağda həyata keçirilən 23 saatlıq antiterror tədbirləri nəticəsində qazanılan tarixi Qələbənin ildönümünü sevinc və coşqu ilə qeyd edir. Bu əməliyyat Azərbaycanın qəhrəmanlıq salnaməsinə qızıl hərflərlə həkk olunmuş Qarabağ Zəfər yolunun Xankəndi zirvəsidir”. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov mediaya bu açıqlamasının davamında deyib:**

– Həmin əzəmətli zirvədən dönüb keçmişə, 21 il öncəyə baxdıqda Azərbaycan adlı dövləti amansız təlatümlərdən, xain xislətlərdən qoruyan, dərin siyasi-iqtisadi böhrandan xilas edərək yenidən quran ümummilli lider Heydər Əliyevin xalqımıza taleyüklü müraciəti yada düşür: “İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək”. Ulu öndər, sözsüz ki, xalqının və dövlətinin taleyi ilə bağlı hər bir məsələyə məsuliyyətlə yanaşırdı. Bu müraciətdə də böyük bir məsuliyyət və dərin inam var idi.



Xalqımızın böyük oğlu əmin idi ki, yüksək intellektli, praqmatik düşüncəli, beynəlxalq siyasəti və dünya iqtisadiyyatını dərindən bilən İlham Əliyev qarşıda duran bütün vəzifələri vaxtında və dəqiq yerinə yetirəcək. Prezident İlham Əliyev Heydər Əliyev məktəbinin ən işıqlı məzunu olduğunu ötən 21 ildə davamlı olaraq sübuta yetirib. Çünki o, dünya şöhrətli bir siyasətçi və dövlət xadimindən dərs alıb və ondan qətiyyət, iradə, xalqına dərin məhəbbət və Vətənə sədaqət əxz edib.

Təbii ki, Ulu öndərin nəzərdə tutduğu taleyüklü məsələlər sırasında işğala məruz qalmış torpaqlarımızın azad edilməsi birinci gəlirdi. Təsadüfi deyil ki, Şuşa düşmənlərdən tam təmizlənən gün Ali Baş Komandan İlham Əliyev Ulu öndər Heydər Əliyevin məzarını ziyarət edərək “Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik!” demişdi. Cənab İlham Əliyevin Prezident kimi fəaliyyətinin ilk günündən xalqımız onun Azərbaycana qələbə qazandıracağına inanmışdı.

Dövlətimizin başçısının məqsədyönlü və genişmiqyaslı fəaliyyəti nəticəsində ötən illərdə ölkəmizin müstəqilliyi daha da möhkəmləndi, iqtisadiyyat dönməz inkişaf yolu tutdu, Azərbaycan kosmos ailəsinin üzvünə çevrildi, həmçinin Vətənə məhəbbət ruhunda yeni gənclik formalaşdı, güclü və yenilməz ordu quruldu. Bir sözlə, bütün yollar, atılan addımlar Qarabağa istiqamətlənmişdi.

2016-cı ildə Aprel döyüşləri və 2018-ci ildə Günnüt zəfəri böyük Qələbənin müjdələri oldu. 2020-ci ildə isə düşmənə Tovuz döyüşlərində ağır zərbə vuruldu və bundan ayılmamış dəmir yumruq başlarına endi. Cəmi 44 günə işğalçı ordu məhv edildi, sağ qalanlar isə yalnız fərarilər idi. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin misilsiz sərkərdəlik məharəti, yenilməz ordumuzun rəşadəti və yüksək döyüş ruhu, həmçinin xalqımızın sarsılmaz birliyi sayəsində möhtəşəm və bənzərsiz Qələbə ilə işğala son qoyuldu.

**AHİK rəhbəri daha sonra bildirib ki, müharibədən sonra Azərbaycan dəfələrlə Ermənistana sülh əlini uzatsa da, qarşı tərəf müxtəlif bəhanələrlə bundan yayınır, hətta hərbi təxribatlara əl atır, məhv edilmiş ordusunun tör-töküntülərini üzərinə götürdüyü öhdəliklərə baxmayaraq, ərazilərimizdən çıxarmırdı:**

– Bununla yanaşı, kəşfiyyat fəaliyyətlərini genişləndirir, təmizlənmiş əraziləri yenidən minalayır, məqsədyönlü və planlı terror siyasəti həyata keçirirdi. Qarabağdakı separatizmin tullantıları isə “müstəqillik” oyununu yenidən davam etdirir, nə qədər gülünc olsa da, “prezident”lər seçir, qondarma “parlament”ləri bəyanatlar səsləndirirdi. 2023-cü il sentyabrın 19-da isə terror məqsədilə əvvəlcədən quraşdırılmış minaların partlaması nəticəsində mülki şəxslərin və Daxili Qoşunların hərbi qulluqçularının şəhid olması, ordumuzun bölmələrinin atəşə tutulması və iki hərbi qulluqçunun yaralanması, həmçinin elə həmin gün Ağdam və Şuşada iki mülki şəxsin erməni terrorunun qurbanı olması səbir kasasını dolduran son damla oldu.

Bütün bunlar göstərirdi ki, antiterror tədbirləri qaçılmazdır. Odur ki, yenilməz və qəhrəman ordumuz üçtərəfli bəyanatın müddəalarının təmin olunması, erməni silahlılarının zərərsizləşdirilərək torpaqlarımızdan çıxarılması, azərbaycanlı mülki işçilər və hərbçilərin təhlükəsizliyinin təmin edilməsi, eləcə də Azərbaycanın konstitusiya quruluşunun bərpa olunması məqsədilə Qarabağda lokal xarakterli antiterror tədbirlərinə başladı. Rəşadətli və təcrübəli əsgər və zabitlərimizə bu əməliyyatı da uğurla yekunlaşdırmaq üçün elə də çox vaxt lazım olmadı, cəmi 24 saatdan az müddətdə düşmənin dizini yerə qoydu və təslim olmağa məcbur etdi.

Separatizmin başında duranlar, vaxtı ilə Azərbaycana hədə gələnlər saxlanılaraq əli qandallı Bakıya gətirildilər. Bu əməliyyat da Ali Baş Komandan cənab İlham Əliyevin ali sərkərdəlik keyfiyyətlərini, Azərbaycan Ordusunun gücünü, peşəkar səviyyəsini, qələbə əzmini bütün dünyaya göstərdi. Xalqımız həmişə olduğu kimi, bu dəfə də həmrəylik nümayiş etdirərək öz rəhbərinin ətrafında dəmir yumruğa döndü. Məhz bu vəhdət bizi növbəti parlaq Qələbəyə qovuşdurdu.

**Bu gün azad Xankəndidə, Şuşada, Xocalıda, Füzulidə, Laçında və digər işğaldan azad edilmiş ərazilərdə həyat yenidən qaynadığını, geniş və sistemli abadlıq-quruculuq işləri aparıldığını, yerli sakinlərin xoşbəxt və böyük fərəh içərisində öz yurd-yuvalarına döndüklərini vurğulayan Sahib Məmmədov söyləyib:**

– Gözəl Şuşamız əvvəlki kimi yenə də qonaqlı-qaralıdır, beynəlxalq və yerli tədbirlərə, konfranslara, musiqi festivallarına layiqli şəkildə evsahibliyi edir. Bu il uzun illərdən sonra Şuşada və Xocalıda ilk zəng çalındı, şəhərə köçürülən ailələrin övladları yeni tədris ilinə başladılar. Eləcə də Xankəndidəki Qarabağ Universiteti qapılarını tələbələrin üzünə açır. Bu mənzərəni seyr etdikcə yenə də Ulu öndər Heydər Əliyevin uzaqgörənliklə 2003-cü ildə xalqına etdiyi müraciəti xatırlayırıq və taleyüklü məsələni cənab İlham Əliyevin yüksək peşəkarlıqla necə həll etdiyini görürük.



Hadisələrin sonrakı gedişi göstərdi ki, Şərqi Zəngəzurun və Qarabağın işğaldan azad edilməsi dövlətimizin başçısı cənab İlham Əliyevin dəmir iradəsi və sarsılmaz qətiyyəti sayəsində başa gəlib. Əsasən münaqişədən sonra bir sıra dövlətlər, beynəlxalq təşkilatlar yenə də ikili standartlardan çıxış edərək sərsəmləməyə başladılar, mənasız, böhtan xarakterli bəyanatlar qəbul etdilər. Elə sandılar ki, guya, Azərbaycanı ləkələyə, haqq işinə kölgə sala biləcək və tutduğu yoldan döndərəcəklər. Bu işdə daha çox dəridən-qabıqdan çıxan isə dünyada ədalətsiz mövqeyi və yanaşmaları ilə tanınan Fransa idi və bu gün də həmin ampluasındadır. Fransa prezidenti Emmanuel Makron utanmadan bərbad vəziyyətdə olan daxili siyasətlərini bir kənara tullayaraq Azərbaycanın daxili işinə əl uzatmağa cəhdlər edir.

**AHİK sədri açıqlamasını bu sözlərlə bitirib:** “Müstəmləkəçi siyasətini davam etdirən, insan haqlarını ayaqlar altına atan, koloniyalarının sərvətlərini talayan bir ölkənin boyundan hündürə tullanması, təbii ki, yersizdir və iflasa uğrayacaq. Azərbaycan müstəqil dövlətdir, dönməz yol tutub və onun siyasətinə təsir etməyə Fransa kimi dövlətlərin gücü çatmaz. Sözsüz ki, bu gerçəyi ötən illərin təcrübəsi dönə-dönə sübut edib”.

*XQ*

# AMEA elmi fəaliyyətin yeni mərhələsində

III MƏQALƏ

**Təbii sərvətlər tükənən dəyərlərdir, ancaq təhsil, bilik, elm əbədi, hər bir ölkənin gücləndirilməsinə töhfə verən amildir.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**

## Azərbaycan alimləri dünya arenasında

AMEA-nın elmi jurnallarının indeksləşməsi prosesinin elmi fəaliyyətin təşkili baxımından böyük əhəmiyyət daşıdığı şübhə doğurmur. Bir daha qeyd edək ki, bu istiqamətdə Azərbaycan alimlərinin şəxsi profilləri yaradılır. Eyni zamanda, elmi istinadları vahid mərkəzdən müşahidə etmək və əlaqələndirmək üçün Milli Elmlər Akademiyasının Rəqəmsal İnformasiya Resursları Mərkəzi təsis edilmişdir. İkinci məqalədə də vurğuladığımız kimi, AMEA-da çalışan alimlərin məqalələri DOİ ilə təmin olunur. Əhəmiyyətli məqamlardan biri də ondan ibarətdir ki, AMEA-nın elmi jurnallarını vahid şəbəkədə birləşdirmək istiqamətində təşkilatın rəhbərliyi çox vacib addım atmışdır – Akademiyanın Dərgi Parkı yaradılmışdır. Bu, "Elektron Akademiya" şöbəsinin yaradılması sayəsində mümkün olmuşdur.

Bunun nəticəsidir ki, "2023-cü ildə AMEA elmi müəssisələrində çalışan alimlər tərəfindən 500-ə yaxın kitab və monoqrafiya, 3000-dən çoxu xaricdə (bunlardan 1000-dən çoxu "Web of Science" və "Scopus" bazalarına daxil olan impakt faktorlu jurnallarda) olmaqla, təqribən 9500 məqalə və tezis nəşr etdirilmişdir. Elmi işçilərin əsərlərinə 31000-dən çox istinad olunmuşdur" (AMEA hesabatı, 2023).

Bunlarla yanaşı, AMEA-da aparılan tədqiqatların tanınması üçün Vikipediya ensiklopediyasının yaradılması mühüm hadisədir. Bunun üçün Vikipediya təlimləri təşkil edilmişdir. 63 nəfər AMEA əməkdaşı təlim keçmiş, sertifikat almış, 1659 yeni məqalə yazılmış, 10 minədək məqalə redaktə olunmuşdur. Bundan əlavə, AMEA DOI identifikatoru təmin edilmiş jurnallar, jurnal məqalələri və konfrans materialları http://doi.science.gov.az/ saytında yerləşdirilir və arxivləşdirilir.

AMEA-nın Azstate.net-də fəaliyyətinin təmin olunması üçün Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin təqdim etdiyi qaydalar çərçivəsində akademiyanın saytlarının fəaliyyəti yenilənir. AMEA-nın 4 elmi bölməsinin və http://doi.science.gov.az/ saytları yaradılmışdır. Kibertəhlükəsizlik və digər tədbirlərin təmin olunması, əlaqədar qurumun təşkilatçılığı ilə keçirilən görüş, konfrans və digər tədbirlərdə müntəzəm iştirak olunur. AMEA Dərgi Parkının bu aspektdə fəaliyyəti tam müasir tələblərə cavab verir.

Belə ki, AMEA Dərgi Parkına daxil olan jurnalların Open Journal Systems platforması əsasında fəaliyyət göstərməsi, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər qarşısında qoyulan tələblər"ə uyğun fəaliyyət göstərməsi, jurnalların fəaliyyətinin TÜBİTAK ULAKBİM Tr Dizin tələblərinə uyğun tənzimlənməsi, jurnalların Avropa Redaktorlar Şurasının qaydalarına uyğun fəaliyyət göstərməsi nəzərdə tutulur. AMEA Rəyasət Heyəti yüksək impaktfaktorlu jurnallarda məqalələrin təşviq edilməsi üçün stimullaşdırıcı tədbirlər həyata keçirir.

Etiraf edək ki, AMEA rəhbərliyinin "Elektron Akademiya" layihəsi ölkədə elmin transformasiyası baxımından olduqca səmərəli addımdır. Başqa məqamlarla yanaşı, yuxarıdakı faktlardan aydın olur ki, bu üsulla Azərbaycan elminin dünya elminin ən müsbət parametrlərinə sahib olması üçün geniş imkanlar yaranmışdır. Elm və təhsillə məşğul olan hər kəs bilir ki, yaradıcılığa qoyulan kapital dərhal nəticə vermir. Bəzən bunun üçün on il lazım gəlir. Nümunə kimi, ABŞ-nin keçmiş prezidenti Barak Obamanın opponentlərinə verdiyi bir cavabı xatırlada bilərik. B.Obama Amerika elminə məsrəfləri bir qərarla iki qat artırmışdı. Buna etiraz edənlərə demişdi ki, "elmə ayırılan xərclər öz bəhrəsini on ildən sonra da verə bilər, ancaq yol düzgündürsə, mütləq bəhrəsi olacaq"!

AMEA-da struktur-funksional parametrlərin yenidən təşkili və ölkə alimlərinin çevikliklə dünya elmi dairələrinə çıxışlarının elektronlaşdırılması mütləq öz bəhrəsini verəcəkdir. Bu tezisin məzmunundakı nikbinlik AMEA-nın beynəlxalq əməkdaşlıq xəttindən də aydın görünə bilər. İndi məsələnin bu aspekti üzərində dayanaq.

## Beynəlxalq əməkdaşlıq

AMEA rəhbərliyi beynəlxalq əməkdaşlığın inkişafı üçün intensiv fəaliyyət göstərir. Onlardan yalnız bir qismini burada fakt kimi göstərmək imkanımız vardır. AMEA-nın yeni rəhbərliyi Türkiyə, İtaliya, Çin, Özbəkistan, Qazaxıstan, Pakistan, Gürcüstan və Bolqarıstana səfərlər etmiş, onların elmi qurumları ilə əməkdaşlıq müqavilələri imzalamışdır. AMEA bütün tarixi ərzində ilk dəfə olaraq 3 beynəlxalq elmi qurumun üzvü seçilmişdir. Onlar Beynəlxalq Elmi Şura, Beynəlxalq Dünya Elmləri Akdemiyası, Asiya Elmlər Akdemiyaları və Cəmiyyətləri Assosiasiyalarıdır.

AMEA Qazaxıstanın da elmi qurumları ilə əməkdaşlığı çoxşaxəlilik prinsipi üzrə inkişaf etdirir. Belə ki, 2023-cü ildə Qazaxıstan Respublikası ilə elmi əlaqələr genişləndirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Qazaxıstan Respublikasına rəsmi səfəri çərçivəsində dövlət başçılarının görüşü zamanı AMEA prezidenti, akademik İsa Həbibbəyli ilə Qazaxıstan Milli Elmlər Akademiyasının prezidenti, akademik Murat Jurinov tərəfindən elm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmışdır. Bununla yanaşı, AMEA ilə Qazaxıstanın elmi qurumları müxtəlif elmi tədbirləri birgə təşkil etmişlər. O sırada AMEA-nın Şərqşünaslıq İnstitutu ilə Qazaxıstan Respublikası R.B.Süleymanov adına Şərqşünaslıq İnstitutunun birgə təşkilatçılığı ilə akademik Zərifə xanım Əliyevanın 100 illik yubileyinə həsr olunmuş "Dəyişən dünyada qadın: Şərq və Qərb baxışı" adlı beynəlxalq konfransı vurğulaya blərik.

AMEA türk dövlətlərinin hər birinə aid olan Beynəlxalq Türk Akademiyası ilə də əlaqələri yeni səviyyəyə yüksəltmişdir. AMEA-nın Pakistan İslam Respublikasının Lahor Dövlət Kollec Universiteti (LDKU) ilə əməkdaşlığı genişlənməkdədir. Həmin universitetdə AMEA Azərbaycanşünaslıq Mərkəzi yaratmışdır. LDKU "Böyük Azərbaycan şairi Nizami Gəncəvi" adlı kitab hazırlamışdır ki, bu da milli mədəniyyətimizin təbliği baxımından çox əhəmiyyətli faktlardan biridir.

AMEA Çin Xalq Respublikasının elmi qurumları ilə əlaqələri 2024-cü ildə yeni səviyyəyə yüksəltmişdir. Bir neçə ildir ki, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Çin mərkəzi, digər institutlarında Çini tədqiq edən şöbələr fəaliyyət göstərir, tədqiqatlar aparılır. Müxtəlif elmi konfranslar təşkil edilir. Bu kontekstdə Azərbaycan-Çin ədəbi əlaqələrinə aid poeziya antalogiyasının hazırlanması xüsusi yer tutur.

Bunlarla yanaşı, səsvermə hüququna malik olan üzv seçilməklə Azərbaycan Milli Elmlər Akademiyası Beynəlxalq Elmi Birliyin tamhüquqlu üzvü olmaq şərəfini qazanmışdır.

AMEA, həmçinin Türk Dünyası akademiyaları ilə əməkdaşlığı prioritet hesab edir. 2023-cü ildə Özbəkistan Elmlər Akademiyası və qardaş ölkənin 4 elm və ali təhsil qurumu ilə əməkdaşlıq müqavilələrinin imzalanması baxımından əhəmiyyətli olmuşdur.

AMEA yeniləşmə prosesi çərçivəsində Avropa ölkələri və Rusiya istiqamətində də əməkdaşlığa ayrıca diqqət yetirməkdədir. Akademik İsa Həbibbəylinin Bolqarıstana səfəri zamanı 2023-cü il iyulun 6-da Bolqarıstan Elmlər Akademiyası (BEA) ilə Anlaşma Memorandumu imzalanmışdır. Bolqarıstan Elmlər Akademiyasının Etnologiya və Folklor İnstitutu, Ədəbiyyat İnstitutu, Milli Arxeologiya İnstitutunun Arxeologiya Muzeyi, Sofiya Universitetinin Azərbaycan Dili və Mədəniyyəti Mərkəzində müzakirələr aparılmışdır. AMEA başqa bir Avropa ölkəsi olan İtaliyanın Sandro Teti Nəşriyyat evi ilə əməkdaşlıq istiqamətində əhəmiyyətli addımlar atmışdır.

Nəhayət, AMEA tarixində ilk dəfə olaraq Akademiyalararası Əməkdaşlıq Təşkilatının (İAP) üzvü olmuşdur. AMEA Beynəlxalq Dünya Elmləri Akademiyasının, Beynəlxalq Elmi Şuranın (İSC), Asiya Elmlər Akademiyaları və Assosiasiyaları Cəmiyyətinin (AEAAC) və Avrasiya Universitetlər Birliyinin (AUB) üzvüdür.



AMEA İSC-nin Paris, Monteneqro və Kuala Lumpurda keçirilən tədbirlərində təmsil olunmuşdur.

AMEA çox müxtəlif coğrafiyalarda yerləşən elmi qurumlarla əməkdaşlıq edir. O cümlədən Asiya Elmlər Akademiyaları və Cəmiyyətləri Assosiasiyası, eyni zamanda Avrasiya Universitetlər Birliyi (EURAS) çərçivəsində tamhüquqlu üzv kimi fəaliyyət göstərir. AMEA, həmçinin Asiya Sosial Elmi Tədqiqat Şuraları Assosiasiyasına (AASSREC) üzvlük üzrə müzakirələr aparmışdır.

***

Azərbaycan Milli Elmlər Akademiyası son iki ildə yeniləşmə prosesində 3 əlamət üzrə irəliyə doğru ciddi addımlar atmaqdadır.

Birincisi, AMEA təşkilatın adındakı "Azərbaycan" sözünə əsl elmi yanaşma əsasında xidmət edir. Bu, müstəqil Azərbaycan dövlətçiliyi, azərbaycançılıq, multikulturalizm faktorlarını özündə ehtiva edən möhtəşəm prosesdir. AMEA Azərbaycana strateji inkişaf kursu kontekstində xidmət etməyi şərəf bilir və onun məsuliyyətini dərindən dərk edir.

İkincisi, təşkilatın adındakı "Milli" anlayışına həqiqi layiq olmaq üçün həm özünü strukturca, həm də fəaliyyət istiqamətləri baxımından inamla yeniləşdirməkdədir. Burada incə məqamın olduğunu hər kəs məntiqi və ya intiutiv hiss edir. Konkret ifadə etsəm, "milli olmağın elmə nə dəxli var?" sualı beyinlərdə dolaşır. Bir aspekt vardır ki, o kontekstdə birbaşa strateji dəxli vardır! O da ondan ibarətdir ki, dünyanın heç bir dövlətində o ölkə üçün antimilli olan sosial, humanitar, ictimai elm yoxdur. Bunu Qərbdə, Asiyada, Latın Amerikasında, Rusiyada aksiom kimi qəbul edirlər və heç bir sual da vermirlər. Azərbaycanda isə "milli elm" terminінə yanlış münasibət əsrlərdir ki, kənardan bizə Azərbaycan alimlərinin əsas olaraq beynəlxalq aləm üçün (absurd ifadədir), bəşər üçün (məzmunu boş aldadıcı çağırışdır) çalışmalı olduğunu diktə edirlər. Çünki bir ölkənin yaradıcı adamı Vətəni, ailəsi, cəmiyyəti, dövləti üçün çalışmırsa, o, yanlış yoldadır. Məhz bu mənada elm həmişə millidir! Həqiqi mənada beynəlxalq aləm və bəşəriyyət üçün alim kimi çalışmağın yolu "yaradıcı milliliyi" tam dərk etməkdən, o aspektdə təcrübə toplamaqdan keçir! Onun etnik və ya irqi mənsubluğa heç bir aiddiyatı yoxdur.

Eyni zamanda, burada alimin "milli" olmasının mühüm şərti vardır. Yəni alim uyğun üsulla sosiallaşanda (və ya "alimləşəndə") "yaradıcı milli" olur, başqa hallarda məhdud etnik, regional və ya irqi çərçivədə "fırlanan" yarımçıq alimlikdən o tərəfə keçə bilmir.

Bəs, alim hansı formada "yaradıcı milli" ola bilər? Yalnız çalışdığı təşkilatda bu mümkündür. Bu baxımdan AMEA-nın indi "yaradıcı milli" alimləri inkişaf etdirmək xətti seçməsi dövlətçiliyə, vətənçiliyə, azərbaycançılığa və bəşəriliyə əsl xidmətdir! Buna dəstək vermək fövqəladə gərəklidir!

Nəhayət, AMEA indi Azərbaycan, Vətən, hər bir yaradıcı insan üçün faydalı ola biləcək "Elmlər Akademiyası" olmaq kursunu seçmişdir. Bunun üçün ölkənin ali elmi təşkilatı fəaliyyətinin bütün istiqamətləri arasında ahəngdarlığı, harmoniyanı, sistemliliyi və ən əsası, müasir yanaşmalar təməlində elmiliyi təmin etməyə çalışır! Əlbəttə, bu, asan yol deyildir və fundamental səviyyədə elmi transformasiyalar tələb edir. AMEA bunu görür, lakin çəkinmir, daim irəliyə can atır. Azərbaycan, azərbaycançılıq, dövlətçilik və ümumiyyətlə, elm naminə bu riskə getməyə dəyər!

Beləliklə, AMEA, sözün həqiqi mənasında və geniş aspektdə müasir tələblərə tam uyğun olaraq milli dövlətçilik prinsipləri əsasında öz strukturunu və elmi prioritetlərini yeniləşdirmə mərhələsindədir. Bu istiqamətdə həyata keçirilən islahatlar, atılan adekvat addımlar bəşəri elmi dəyələr və ölkə reallıqları əsasında Azərbaycan Milli Elmlər Akademiyasının yeni sınağını və müasir vəzifələrini müəyyən edir. Yeniləşmə prosesinin elmimizə yeniliklər gətirəcəyinə inanırıq!

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

**Türküstanı gəzə-gəzə**

# Dunqanların məişəti və adət-ənənələri

II yazı

Dunqanlar qədimdən əkinçilik və bağçılıqla məşğul olublar, mal-heyvan saxlayıblar. Düyü sahələrini suvarmaq üçün xüsusi kanallardan istifadə ediblər. Küncüt, pambıq, kətan yetişdirib onlardan yağ alıblar. Kətan və pambıqdan parçalar toxuyublar. Dəmirçiik, toxuculuq, xalçaçılıq, dulusçuluq, ipəkçiliklə məşğul olublar, zinət əşyaları düzəldiblər. İpək, atlas, poplin, batist parçaların hazırlanmasında bitkilərdən alınan təbii boyalardan istifadə ediblər, ştamp üsulu ilə parçalara müxtəlif rəsmlər vurublar. Dulusçuluqda müxtəlif istiqamətli məktəblər mövcud olub və indi də var. Hər usta özünə xas bədii üsluba malikdir. Qabların üzərində quş, heyvan, gül şəkilləri üstünlük təşkil edir. Nar, şaftalı v' alma çiçəkləri də çox populyardır.

Zərgərlər qızıl və gümüşdən müxtəlif zinət əşyaları hazırlayırlar. Bu zaman yaqut, zümrüd, firuzə, mirvari kimi qiymətli daşlardan istifadə edirlər. Əvvəllər zəngin adamlar atlarının üzəngisini, silahlarını bəzəmək üçün zərgərlərə sifariş verirdilər. Hindistan, İran və Rusiyadan gətirilən qiymətli daşlardan üzük, sırğa, bilərzik və boyunbağılar düzəldiblər.

Dunqanların milli geyimləri Çin paltarlarına bənzəyir: Boğazsız ağ bez köynək, kətan şalvar. Köynəyin üzərindən kaftan, soyuq aylarda yan tərəfdən düymələnən sırıqlı pambıq xalatlar geyinir, başlarına araxçın formasında yumru papaq qoyurlar. Qadınların libasları daha rəngarəngdir. Onlar geniş qollu köynək və şalvardan ibarət kostyumlar geyinirlər. Paltarların boyun və qol hissəsi rəngli lentlərlə bəzədilir. İpək və atlasdan tikilən paltarlarda budağa qonmuş quşlar, üzüm, pion, şanagülə və nar şəkilləri əks olunur. Bunlar var-dövlət, uzunömürlülük, sevgi, sədaqət rəmzi sayılır. Bayramlarda paltarların üstündən dekorativ bəzəklər vurulmuş örtük salırlar. Saçlarına gül taxır, müxtəlif daşlardan ibarət asma bəzəklər vururlar.

Dunqan mətbəxində əsas yeri düyü tutur. Onu buxarda duzsuz bişirirlər. Düyünü kasalara tökür, ortasına tərəvəz və ət qoyurlar. Kök, çuğundur, badımcan,





turp, kələm, pomidor və bibərdən Çin mətbəxinə aid salatlar hazırlayırlar. Dunqanlar sarımsaq, soğan, acı bibər, şüyüd, kərəviz, keşniş toxumu, zəncəfil və zirədən geniş istifadə edirlər. Laqman, mampar, mantı, funçoza, acı badımcan, xoşan çox sevilən yeməklərdir. Dunqanlar alkoqollu içkilərdən uzaqdırlar. Əsasən müxtəlif tərkibli çaylardan istifadə edirlər. Duzlu və südlü çayı sevirlər.

Dunqan etnogenezinə türk, ərəb, monqol xalqlarının təsiri böyükdür. Uşaqlara Məhəmməd peyğəmbərin (s.əs) və yaxınlarının adlarını daha çox qoyurlar. Dunqanlar bir addan müxtəlif adlar yaradırlar. Məsələn, Məhəmməd adından yaradılan Mur, Mumuzı, Murdanzı, Xava, Xager və Mer kimi adlar mövcuddur. Oğlan uşaqlarına xarakteri səciyyələndirən, qızlara bitki, heyvan, qiymətli daşların adları qoyulur. Məsələn, Sanxu – mərcan, Şandan – zambaq və s. Bəzən adlar ailədə uşaqların sayına və körpənin həftənin hansı günündə doğulduğuna görə verilir. Cümə axşamı və şənbə xoşbəxt günlər sayılır. Soyadları çinlilərdə olduğu kimidir: Li, Ma, Dan və s.

Dunqanların özünəməxsus toy adət-ənənələri var. Gənclər daha çox valideynlərin seçdiyi adamla evlənirlər. Bir qayda olaraq, qızları başqa dinə məxsus kişiyə vermirlər, amma oğlanlar başqa dindən olan qızla evlənə bilər. Onların uşaqları müsəlman kimi tərbiyə olunur.

Toy mərasimi elçiliklə başlayır. Elçi mijın adlanır, mənası "insanları birləşdirən" deməkdir. Mijın qız evinə səhər tezdən gedir, əlində qırmızı parçaya bükülmüş hədiyyə – çay, ərik qurusu və qoz-fındıq olur. İlk səfərdə cavab verilmir, üç gün möhlət istənilir. Həmin müddət ərzində hər iki valideynin qohumları ilə məsləhətləşirlər, qızın fikrini öyrənirlər. Bu gün bunlar formal xarakter daşısa da ənənə qorunub saxlanılır. Elçi ikinci dəfə gələndə "yox" cavabı veriləcəksə hədiyyə geri qaytarılır. Əgər üçüncü görüş təyin edilirsə, demək, cavab müsbət olacaq. Üçüncü görüşdə razılıq əldə olunur, təzə qohumlar bir-birinə hədiyyələr verir, toyun vaxtı və maliyyə məsələləri müəyyənləşdirilir. Bəzi ailələr südpulu da alırlar. Dunqanlar qıza zəngin cehiz verirlər.

Dunqan toyu üç gün davam edir. Məclisdə ən az 500-600 nəfər olur. Kənd yerlərində səsgücləndirici ilə hamını toya dəvət edirlər. Toya gələn yanında dost-tanışını da gətirə bilər. Kim toya gəlmirsə ondan möhkəm inciyirlər.

Toyun birinci günü həm qız, həm oğlan evində məclis qurulur. Gəlin yaxın qohumları və rəfiqələri ilə deyib-gülür, rəqs edirlər. Doğmaları ilə vidalaşır. İkinci gün gəlini oğlan evinə gətirirlər. Ata evindən onu ağlayaraq yola salsalar da oğlan evində musiqi və rəqslərlə qarşılayırlar. Süfrə arxasında hamı gəncləri təbrik edir, hədiyyələr verirlər. Üçüncü gün qonaqlar toya salacaqları pulu gətirirlər və bu pul sonra bəyin və gəlinin anasına verilir. Zarafatla bunu "gömrükdən keçmə" adlandırırlar.

Toyda kişilər və qadınlar ayrı otururlar. Masa arxasında mütləq 8 nəfər oturmalıdır. Əvvəlcə qonaqlara çay süzülür, sonra yağda qızardılmış kökələr verilir. Daha sonra ətdən hazırlanan 7 növ yemək, şorba, laqman, tərəvəzli toyuq, soyuq və isti salatlar, qoyun əti təqdim olunur. Süfrədə mütləq bişmiş içalat və müxtəlif variantlarda düyü olur. Toyun üçüncü günü səhər namazından sonra dunqan aşı verilir. Qız evindəki məclisdə isə dunqan mətbəxinin sevilən yeməyi – 7 növ küftə hazırlanır.

Qohumlardan və dostlardan ibarət xüsusi komanda toyun təşkili, idarə edilməsi ilə məşğul olur. İmam nikahı qız evində kəsilir. Sonra rəsmi nikaha girirlər.

Toyun səhəri mantı hazırlanır. Gəlin qonaqları salamlayır. Bu adətə "gəlin salamı" deyilir. Bu ənənə özbəklərdə də var. Gələn qohumlar və yaxınlar hədiyyə və ya pul gətirirlər. Bəy isə dostları ilə gəlinin ata evinə gedir, orada mantıya qonaq olurlar. Daha sonra qızın yaxın qohumları ilə birgə toy evinə qayıdırlar. Toyun əsas yeməyi – şi süfrəyə veriləndə gəlin bir-bir qonaqları yeməyə dəvət edir. Bu mərasim çin-ne- jya (qudaları çağırma) adlanır.

Dunqanlar toya çox pul xərcləyirlər. Özləri də deyirlər ki, toya bir il hazırlaşırıq, bütün ömrümüz boyu borc ödəyirik. Bəlkə elə buna görə də ailələrimiz çox möhkəmdir, boşanma, demək olar ki yoxdur.

Toyda gəlin Çin dəbinə görə bəzədilir. Gəlinin geyimi xua xe adlanan bəzəkli başmaqlardan, corabdan (xua vazı), üzərində əjdaha və simurq quşu şəkilləri olan qırmızı paltardan, gümüş bağları və zınqırovları olan şalvardan və gümüş baş bəzəyindən (izyunpe) ibarətdir. Belə hesab olunur ki, əjdaha gəlini pis ruhlardan qoruyur. Gəlinin saç düzümü "qaranquş" adlanır, saçlara gümüş bəzək əşyaları və güllər taxılır. Bəy əyninə xalat, ayağına uzunboğaz çəkmələr geyinir, başına yumru papaq qoyur. Çiyninə isə çarpaz qırmızı və yaşıl parçalar salır. Gənclər bir neçə həftə qonaqları bu geyimlərdə qarşılayırlar.

Maraqlıdır ki, müasir Çində dunqanların toy adətləri silinib gedib. Tarixi vətənlərindən ayrı düşən dunqanlar isə qədim adət-ənənələrini qoruyub saxlaya biliblər.

*Qulu KƏNGƏRLİ,*
*XQ-nin xüsusi müxbiri*

**Daşkənd**

“Əsrin müqaviləsi” – 30



# BTC: Səngəçaldan Ceyhana xam neft ixracı körpüsü

## *Boru kəməri ilə nəql olunmuş 576 milyon ton neft 5 min 707 tankerlə dünya bazarına çıxarılıb*

**(əvvəli 1-ci səhifədə)**

Heydər Əliyevin qətiyyəti və prinsipial mövqeyi sayəsində dövlətimizin, xalqımızın maraqlarının qorunması ilə davam edən uzunmüddətli danışıqlar prosesi nəticəsində ölkəmiz üçün strateji əhəmiyyət daşıyan Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri layihəsi öz təsdiqini tapıb. Yeri gəlmişkən, Bakı–Tbilisi–Ceyhan xəttinin əsas ixrac boru kəməri kimi çəkiləcəyi ilk dəfə 1998-ci il aprelin 26-da Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin Trabzon görüşündə dəqiqləşdirilib. Bu, həm də sözügedən kəmərin reallaşmasına dair son siyasi qərarın verilməsi demək idi.

Həmin il oktyabrın 29-da isə Ankarada Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan və Özbəkistan prezidentləri, eləcə də ABŞ-nin energetika naziri tərəfindən Bakı–Tbilisi–Ceyhan marşrutu ilə əsas ixrac kəmərinin çəkilməsi ideyasını müdafiə edən Ankara Bəyannaməsinin imzalanması ilə sözügedən layihəyə dair ilkin razılaşma əldə edilib. Sonrakı dövrlərdə Heydər Əliyevin siyasi iradəsi nəticəsində həmin layihəni maraqlı tərəflərlə uzlaşdırıb razılaşdırmaq, beynəlxalq güc mərkəzlərinin dəstəyini qazanmaq, nəhayət, onu imzalamaq mümkün olub.

Nəhayət, ATƏT-in 1999-cu il noyabr ayının 18-də İstanbulun “Çırağan” sarayında “Xam neftin Azərbaycan, Gürcüstan və Türkiyə respublikalarının əraziləri ilə Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında saziş” imzalanıb. Bununla da, “Üç dənizin əfsanəsi” adlandırılan və minilliyin ən böyük neft ixracı marşrutlarından sayılan Bakı–Tbilisi–Ceyhan layihəsinin reallığa çevrilməsi üçün hüquqi baza yaradılıb.

2002-ci il avqustun 1-də Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisini və istismarını həyata keçirmək üçün Kayman adalarında “BTC Co.” şirkəti təsis edilib. Sentyabr ayının 18-də isə Bakıda, Səngəçal terminalının ərazisində Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçıları Heydər Əliyev, Eduard Şevardnadze və Əhməd Necdət Sezərin iştirakı ilə Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin təməli qoyulub. Dövlət başçıları burada xəndəyə endirilən ilk borunun üstünə torpaq atıblar. İçərisində “Gələcək nəsillərə” müraciətinin mətni olan dəmir kapsul Bakı–Tbilisi–Ceyhan boru kəmərinin başlanğıcından qazılmış quyuya basdırılıb. Müraciətin sonunda qeyd edilirdi: “Əminik ki, Bakı–Tbilisi–Ceyhan boru kəməri layihəsinin gerçəkləşməsi ülvi amallara xidmət edərək regionun simasını dəyişdirəcək, siyasi iqlim sabitləşəcək, iqtisadi inkişafa ciddi təkan verəcək, xalqlarımızın rifahı yüksələcəkdir”.

BTC layihəsi ilə bağlı fiziki tikinti işlərinə isə tanınmış podratçı şirkətlə müqavilə imzalandıqdan sonra 2003-cü ilin aprel ayında başlanılıb. Ulu öndərin qalibiyyətli neft strategiyasının ardıcıl şəkildə həyata keçirilməsi üçün misilsiz xidmətlər göstərən Prezident İlham Əliyevin gərgin əməyi sayəsində 2005-ci ilin yazında tikintisi başa çatdırılmış BTC xam neftin nəqli üçün hazır vəziyyətə gətirilib. Həmin il mayın 25-də Səngəçal terminalında Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçılarının iştirakı ilə keçirilən mərasimdə neftin BTC-yə vurulmasına start verilib. Terminalda quraşdırılmış xüsusi qurğudakı sürgü açıldıqdan sonra kəmərlə ilkin neft axmağa başlayıb. 2006-cı il iyunun 4-də Ceyhan limanından 600 min barel həcmində Azərbaycan nefti ilə doldurulmuş ilk tanker (“British Hawthorn”) yola salınıb. İyulun 13-də isə Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihələrindən sayılan BTC-nin təntənəli açılış mərasimi keçirilib.




Qeyd edək ki, BTC kəməri Bakı yaxınlığındakı Səngəçal terminalından başlayaraq Aralıq dənizinin Türkiyə sahilindəki Ceyhan dəniz terminalınadək 1768 kilometr məsafə qət edir. Onun 443 kilometri Azərbaycan, 249 kilometr Gürcüstan, 1076 kilometri isə Türkiyədən keçir. Kəmərin tikintisinə, ümumilikdə, 110 milyon adam – iş saatı sərf olunub. Tikintinin ən intensiv dövründə, təqribən, 22 min adam işə cəlb olunub ki, onların da 80 faizə qədərini Azərbaycan vətəndaşları təşkil edib. İnşaat işlərinə 4 milyard ABŞ dolları xərclənib. 500 yaşayış məntəqəsinin ərazisindən keçən boru kəməri bütün marşrut boyunca torpağa basdırılıb. BTC-nin obyektlərinə 8 nasos stansiyası (Azərbaycanda 2, Gürcüstanda 2, Türkiyədə 4), 1 təzyiqazaltma və 2 aralıq ərsinburaxma stansiyası və 101 kiçik siyirtmə məntəqəsi daxildir.

Bu nəhəng infrastrukur layihəsinin tikintisi üzrə əsas podratçılar isə Azərbaycan ərazisində CCIC və Gürcüstanda “Spi Petrofak” şirkətləri, Türkiyə hissəsinin tikintisi üzrə əvvəlcədən təsbit edilmiş qiymətə “açar” təhvili müqaviləsi əsasında isə bu ölkənin BOTAŞ şirkəti olub.

Gündəlik ötürmə gücü 1,2 milyon barel təşkil edən BTC ilə ən yüksək nəql göstəricisi isə 2010-cu ildə qeydə alınıb. Belə ki, həmin il iyulun 21-də kəmərlə 1 milyon 57 min barel xam neft nəql edilib. BTC ilə ən yüksək illik nəqletmə də məhz 2010-cu ildə qeydə alınıb: 286 milyon 214 min barel.

2023-cü ildə konsorsium iştirakçıları layihə ilə bağlı mühüm bir nailiyyəti qeyd ediblər. Belə ki, yanvarın 18-də BTC ilə neft ixracı 4 milyard barel həddinə çatıb. Bütövlükdə isə, istismara verildiyi gündən 2024-cü ilin birinci yarısının sonunadək boru kəməri vasitəsilə 576 milyon ton (4,3 milyard bareldən çox) xam neft nəql edilib. Xam neft Ceyhanda 5707 tankerə yüklənərək dünya bazarlarına göndərilib.

Hazırda BTC, əsasən, Azərbaycandan AÇG nefti və “Şahdəniz” yatağından çıxarılan kondensatı daşıyır. Bundan əlavə, adıçəkilən kəmər vasitəsilə Qazaxıstan və Türkmənistana məxsus xam neft və kondensat, eləcə də SOCAR-ın AÇG-dən kənar hasilat həcmləri də nəql olunur.

# Bu il xidmətlərin 15 faizi rəqəmsal olacaq



**Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov yenilənmiş “mygov” rəqəmsal hökumət platformasının təqdimat mərasimində bu ilin sonuna qədər ölkədə vətəndaşlara göstərilən xidmətlərin 15 faizinin rəqəmsal formaya keçirilməsi hədəflənir.**

Nazir müavininin sözlərinə görə, rəqəmsallaşma Azərbaycanda iqtisadi inkişafın aparıcı qüvvəsinə çevrilir, sadə vətəndaşlar və iş adamları üçün informasiya və xidmətləri əlçatan edir. Rəqəmsal inkişafımızı istiqamətləndirən strategiyamız 3 əsas vektor üzərində qurulub: rəqəmsal hökumət, rəqəmsal cəmiyyət və rəqəmsal biznes. Rəqəmsal hökumətin quruculuğu dövlət xidmətlərinin və daxili proseslərin tam rəqəmsallaşdırılmasını, xidmət və məlumatlara əlçatanlığı artırmaqla kağızsız hökumətə keçidin təmin edilməsini nəzərdə tutur. Bu istiqamətdə dövlət informasiya ehtiyatları və sistemləri arasında məlumat mübadiləsinin səmərəliliyini artırmaq və əhaliyə elektron xidmətlərin göstərilməsində idarəetməni optimallaşdırmaq məqsədilə "Digital Bridge" – Milli Məlumat Mübadiləsi sistemi təqdim olunur.

S.Məmmədov bildirib ki, milli məlumat mübadiləsi sistemi keçiricilik qabiliyyətini 4 dəfə artırmaqla dövlət qurumları arasında sürətli məlumat mübadiləsini gerçəkləşdirir. Sistemə 70 qurumun 100-dən çox informasiya sistemi inteqrasiya edilir. “Digital Bridge” üzərindən aparılan məlumat tranzaksiyasının sayı isə önəmli irəliləyiş əldə edərək 1 milyardı keçir.

Nazir müavini hesab edir ki, COP29-a ev sahibliyi edən ölkə kimi Azərbaycanda dayanıqlı rəqəmsal, innovativ həllərin təşviqi və həyata keçirməsi mühüm önəm daşıyır: “Xüsusilə rəqəmsal hökumət quruculuğunda Rəqəmsal Sənəd Dövriyyəsi altsisteminin verdiyi imkanlar proseslərin səmərəliliyinin artırılması və ətraf mühitə ziyanın minimuma endirilməsini təmin edir. Rəqəmsal Sənəd Dövriyyəsindən istifadə etməklə dövlət qurumları arasında aparılan sənəd mübadiləsi nəticəsində aylıq 500 mindən çox vərəqə qənaət edilir. Bununla da sənəd mübadilələrinin səmərəliliyinin artırılması ilə yanaşı, kağızdan istifadə sayı da minimuma endirilir. Bu da ildə 2 minə yaxın ağacın qorunması deməkdir. Dövlət orqanları və tabeli altqurumlar da nəzərə alınmaqla altsistemə hazırda 1 700-dən çox qurum inteqrasiya olunub.

# Vergi ödəyicilərinin sayı artıb

**Bu ilin 8 ayında respublika üzrə qeydiyyatda olan 1 milyon 570 min 205 vergi ödəyicisinin 87,2 faizi fiziki şəxs, 12,8 faizi isə hüquqi şəxs olub.**



Dövlət Vergi Xidmətindən verilən məlumata görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə vergi ödəyicilərinin ümumi sayı 89 min 947-yə (6,1 faiz), o cümlədən fiziki şəxslərin sayı 76 minə 266 (5,9 faiz), hüquqi şəxslərin sayı isə 13 min 681-ə (7,3 faiz) yüksəlib.

Bu ilin yanvar-avqust aylarında 8741 vahid kommersiya qurumu dövlət qeydiyyatından keçib ki, bunun da 7791-i (89,1 faiz) yerli investisiyalı, 950-si (10,9 faiz) xarici investisiyalı müəssisələrdir. Dövlət qeydiyyatından keçmiş kommersiya qurumlarının 7117-si (81,4 faizi) elektron qaydada, onların isə 5726-sı “ASAN İmza”, 1372-si finkod+mobil üsulla, 19-u “SİMA” rəqəmsal imza vasitəsi ilə edilmiş müraciətlər əsasında qeydə alınıb.

Sentyabr ayının 1-nə dövlət qeydiyyatında olan kommersiya qurumlarının tərkibində fəal ƏDV ödəyicilərinin sayı 38 min 564-ə çataraq 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 15,7 faiz artıb. ƏDV ödəyicilərinin ümumi qeydiyyatda xüsusi çəkisi 32,1 faiz təşkil edib.

# Azərbaycan–İraq Biznes Şurası yaradılır




**Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə İraq Ticarət Palatalar Federasiyası arasında Azərbaycan–İraq Biznes Şurasının yaradılması haqqında razılaşma imzalanıb.**

Agentlikdən verilən məlumata əsasən, sənədi KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və İraq Ticarət Palatalar Federasiyasının prezidenti Abdulrazaq Al-Zuheyri imzalayıblar.

İqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycan-İraq biznes forumunda çıxışında iki dost ölkənin iqtisadi, xüsusilə də ticarət və investisiya əlaqələrinin möhkəmlənməsi üçün KOB-lar arasında qarşılıqlı təmasları artırmağın zəruriliyini bildirib, yaradılan Azərbaycan-İraq Biznes Şurasının hər iki ölkənin KOB-ları arasında işbirliyinin daha da artırılmasında faydalı olacağını vurğulayıb.

# Pakistanla ixrac missiyası həyata keçiriləcək

**İxracın və İnvestisiyaların Təşviqi Agentliyi Azərbaycanla Pakistan arasında cari il iyulun 11-də İslamabadda imzalanan preferensial ticarət sazişi çərçivəsində bu ölkəyə yaxın gələcəkdə ixrac missiyasının təşkil olunmasını planlaşdırır.**



Azərbaycan–Pakistan biznes forumunda bu barədə məlumat verən agentliyin icraçı direktoru Yusif Abdullayevin sözlərinə görə, ixrac missiyasının bu ilin sonu və ya 2025-ci ilin əvvəlində reallaşdırılması gözlənilir. Pakistan Azərbaycana “B2B” formatında görüşlərin keçirilməsini təklif edir. Ölkələrimiz ikitərəfli ticarət və əməkdaşlığın monitorinqini təkmilləşdirmək üçün uzunmüddətli və praktiki mexanizmin yaradılmasının zəruriliyi barədə razılığa gəliblər.

Pakistan Azərbaycan şirkətlərinin turizm, nəqliyyat, enerji təhlükəsizliyi və müdafiə sahələri daxil olmaqla müxtəlif sektorlarda əməkdaşlığın inkişafına maraqlıdır. Bu ölkə respublikamıza təqdim etmək üçün 2-3 milyard ABŞ dolları dəyərində investisiya portfeli hazırlayıb.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***




# Qərb mediası COP29-un Azərbaycanda keçirilməsindən niyə narahatdır?

(əvvəli 1-ci səhifədə)

Azərbaycanın fəaliyyətinin bu səbəbə görə mənfi qiymətləndirilməsi, əslində, erməni lobbisinin təsiri ilə qaynaqlanan qərəzdən, məsələyə qeyri-obyektiv yanaşmadan irəli gəlib. Halbuki Qərb mediası məsələyə münasibətdə belə ədalətsiz, haqsız mövqe sərgiləməkdənsə, ölkəmizin iqlim dəyişikliyi ilə bağlı mübarizə tədbirlərindən, "yaşıl" enerji konsepsiyasına sadiqliyindən yazmalıdır.

Prezident İlham Əliyev iyulun 20-də 2-ci Şuşa Qlobal Media Forumunda COP29-la bağlı tədbirlərin mediada işıqlandırılması barədə verilən suala cavabında da bu barədə ətraflı bəhs edib. Dövlətimizin başçısı Azərbaycanın iqlim konfransına evsahibliyi ilə bağlı namizədliyinə qərar verildikdən sonra Qərb mediasında ölkəmizə qarşı hücumların başladığını və bunun gözlənilən bir hal olduğunu vurğulayaraq bildirib: "Bunu müzakirə etdiyim bir çox şəxslərlə danışıqlarımda, – həmkarlarımı, dövlət və hökumət başçılarını nəzərdə tuturam, – onlar mənə deyirdilər ki, bu, Azərbaycan üçün böyük başağrısı olacaq. Əlbəttə, biz dərk etdik ki, hücumlara məruz qalacağıq. Biz, əlbəttə, bunu proqnozlaşdıra bilmərik ki, ittihamların mövzusu necə olacaqdır? Amma əminəm ki, kifayət qədər ittihamlar olacaqdır. Biz nədə ittiham olunurduq? Neft və qazla zəngin olan ölkə olduğumuz üçün".

Yeri gəlmişkən, yuxarıda xatırlatdığımız 2-ci Şuşa Qlobal Media Forumunda Azərbaycanın iqlim konfransına evsahibliyi ilə bağlı namizədliyinə qarşı Qərb mediasının yazılar verməsinin gözlənilən bir hal olduğunu vurğulayan dövlətimizin başçısı bundan əvvəl Birləşmiş Ərəb Əmirliklərinin də eyni mövzuda ittihamlarla üzləşdiyini xatırladaraq əlavə edib: "Təəssüf ki, bizə qarşı çox geniş və koordinasiya edilmiş media prosesi başladı, biz ilk vaxtlar buna hazır deyildik. Biz izah etməyə çalışırdıq, bu, bizim günahımız deyil ki, biz neft və qazla zənginik. Bizim fəaliyyətimiz onun əsasında qiymətləndirilməməlidir".

Azərbaycana qarşı yönəldilən bu ittiham doğrudan da təəccüb doğurur. Ona görə ki, bir ölkənin neft və qazla zəngin potensiala malik olması heç də onun iqlim dəyişikliyinin fəsadlarını aradan qaldırmaq üçün təşkil edilən nüfuzlu bir konfransa evsahibliyi etməyə haqqı çatmadığını deməyə əsas vermir. Çünki respublikamız neft və qaz hesabına iqtisadiyyatını inkişaf yoluna çıxarıb, şaxələndirib, sosial sahədə inqilabi dəyişikliklərə nail olub, işsizliyin, yoxsulluğun azaldılmasında müsbət nəticələr əldə edib. Özü də qazıntı yanacaq növlərindən əldə olunan gəlirlər ədalətlə, şəffaf şəkildə, məsuliyyətlə paylanılıb. Bütün bunlarla bərabər, neft-qaz emissiyalarının mənfi nəticələrinin minimuma endirilməsi istiqamətində səmərəli layihələr gerçəkləşdirilib.

Prezident İlham Əliyev sözügedən forumda diqqətçəkən bir məqama da toxunaraq Azərbaycanın COP29-a üzv sahibliyi qərarı verilən ilk vaxtlarda Qərb mediasının Azərbaycana hücumunun intensivləşdiyini, sonrakı mərhələdə isə bu sahədə müəyyən sakitlik yarandığını, iqlim konfransı ərəfəsində isə ölkəmizin əleyhinə yazıların yenidən artacağının, ittihamların və hücumların sayının çoxalacağının proqnozlaşdırıldığını bildirib.




Azərbaycanı neft-qaz istehsalçısı olmaqda ittiham edən Qərbin media qurumları yaxşı bilirlər ki, yeni enerji siyasətinin əsas istiqamətlərindən biri də məhz respublikamızın Avropanın dekarbonizasiyasında fəal iştirakını təmin etməkdən ibarətdir. Bununla ölkəmiz, həm də Avropaya yeni enerji körpüsü salmaqla "köhnə qitə"nin mühüm elektrik enerjisi, əsasən də, "yaşıl" enerji təchizatçısına çevrilməsini hədəfləyir. Bunun isə yaxın illərdə reallaşacağı şübhəsizdir.

Bu istiqamətdə artıq ilk ciddi addımların atılmasına başlanılıb: 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Əldə edilən razılaşma çərçivəsində Qara dəniz enerji sualtı elektrik kabelinin tikintisi nəzərdə tutulub. Həmin kabel Azərbaycanda hasil edilən "yaşıl" elektrik enerjisini Gürcüstan və Qara dəniz vasitəsilə Macarıstana və Avropanın qalan hissəsinə çatdırmaq üçün Rumıniyaya tədarük edəcək. Sözügedən saziş Azərbaycanın "yaşıl" enerjisinin Avropaya çatdırılmasını nəzərdə tutur.

Qeyd edək ki, həmin sənədə əsasən, Qara dənizin dibi ilə 4 qiqavat gücündə və 1195 kilometr uzunluğunda elektrik enerjisi kabeli çəkiləcək. Bu da ölkəmizdə istehsal olunan "yaşıl" enerjinin Avropaya ixracına imkan yaradacaq. Beləliklə də, Azərbaycan Avropa qitəsinin enerji təhlükəsizliyini daha dolğun və əhatəli şəkildə təmin edilməsində yaxından iştirak edəcək.

Artıq COP29-a iki aya yaxın bir vaxt qalır və indidən Qərb mediasının ölkəmizə qarşı qarayaxma kampaniyasının gücləndiyi, əks-təbliğatının genişləndiyi nəzər çarpır. Dezinformasiya və yalan məlumatların yayılmasında müşahidə olunan canfəşanlıq isə fikrimizsə, erməni lobbisinin təsiri ilə reallaşır.

Məsələn, "Korrupsiya və Mütəşəkkil Cinayətkarlığın Araşdırılması Mərkəzi" adlı qurum tərəfindən bugünlərdə hazırlanan məqalədə Qarabağda son antiterror tədbirləri ərəfəsində bu coğrafiyada yaşayan erməni əhalinin guya blokadaya alınması, dinc ermənilərin ərzaq məhsulları təchizatında çətinliklər yaşadıqları və Beynəlxalq Qırmızı Xaç Komitəsinin vəziyyətin nizamlanmasında böyük çətinliklərlə üzləşdiyi bildirilib. Əslində, hamımız yaxşı bilirik ki, bu, Azərbaycana qarşı böhtandır və burada heç bir "blokadadan" söhbət gedə bilməz. Çünki həmin vaxt keçmiş xunta rejimi liderlərinin özləri ərzaq məhsullarını gizlətməklə süni şəkildə aclıq vəziyyəti yaratdıqları aşkarlanmış vu bununla bağlı faktlar televiziya ilə nümayiş etdirilmişdi. Belə ki, verilişlərdə sözügedən "blokada" zamanı toy şənlikəri, restoranlarda dincələn insanlarla bağlı çoxsaylı kadrlar diqqətə çatdırılmışdı...

Lakin ölkəmiz bütün bunlara əhəmiyyət verməyərək öz işini görür– COP29 heyəti nüfuzlu foruma hazırlıq işlərini uğurla davam etdirir, xarici ölkələrə səfərləri intensivləşdirir, Qlobal Cənub və Qlobal Şimal arasında körpülər qurur, inkişafda olan kiçik ada ölkələri ilə münasibətləri daha da dərinləşdirir. Məsələn, Azərbaycan "OPEC Plus" formatının üzvü olaraq neft hasil edən ölkələrlə fəal şəkildə əməkdaşlığını möhkəmləndirərək müəyyən təşəbbüslər səsləndirir, neftlə zəngin ölkələrin iqlim dəyişikliyinə qarşı mübarizəyə maliyyə töhfəsi ilə bağlı təkliflərini diqqətə çatdırır. Bütün bunlarla bərabər, respublikamız tərəfdaş ölkələrlə birgə "yaşıl" texnologiyaya, "yaşıl" keçidə sərmayə qoyur.

COP29 kimi mötəbər tədbirə ev sahibliyi etməklə ölkəmiz ətraf mühitə verdiyi önəmi, böyük mənada isə sağlam bir dünyanın gələcək nəsillərə ötürülməsinə biganə qalmadığını göstərir. Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan 2030-cu ilə qədər bərpaolunan enerji sahəsində quraşdırılmış güclərin 30 faizə qədər artırılması, Qarabağ və Şərqi Zəngəzuru "yaşıl" enerji zonasına çevirmək kimi mühüm məqsədləri qarşısına qoyub. Dövlətimiz "yaşıl" enerji zonasının yaradılması, dayanıqlı kənd təsərrüfatı, ekoloji cəhətdən təmiz nəqliyyat, "ağıllı" şəhərlər, kəndlər kimi innovativ yanaşmalar və minlərlə hektar sahədə meşələrin bərpası vasitəsilə azad edilmiş əraziləri 2050-ci ilə qədər "Karbon neytral" zonasına çevirmək əzmindədir.

Azərbaycanın COP29-a evsahibliyi etməsi ilə bağlı qərarın verilməsi isə təsadüfi deyil. Əvvəla, bu, ölkəmizə etimadın növbəti parlaq ifadəsidir. Bu, Azərbaycanın apardığı uğurlu siyasət nəticəsində dünya miqyasında çox güclü mövqeyə sahib olmasının göstəricisidir. Beynəlxalq aləmin respublikamıza bəslədiyi hörmət günbəgün artır və bu hörmət dövlətimizin həyata keçirdiyi müstəqil, prinsipial siyasətin, beynəlxalq hüquqa bağlılığın, beynəlxalq tədbirlərə ev sahibliyindən əldə edilən təcrübənin, eyni zamanda, ölkə ərazisində suverenliyin bərpa edilməsindən irəli gələn inamın nəticəsidir.

Beləliklə, iqlim sammitinə qısa müddətdə genişmiqyaslı hazırlıq işlərinin görülməsi bu gün COP29 beynəlxalq konfransının yüksək səviyyədə həyata keçiriləcəyini, belə bir nüfuzlu tədbirin ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacağını deməyə əsas verir. Dövlətimizin başçısının vurğuladığı kimi, Azərbaycan neft–qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcək və dünyada hər kəsə bir daha aydın olacaq ki, respublikamızın gündəliyi "yaşıl" enerji ilə bağlıdır. "Yaşıl" enerji növlərinin yaradılması və onun dünya bazarlarına nəqli hazırda dövlətimizin enerji siyasətinin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək.

# İqlim konfransı ilə bağlı təşəbbüslər artır

**Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) idarə heyəti qlobal diqqəti cəmləşdirmək və iqlim fəaliyyətini sürətləndirmək üçün təşəbbüslərə başlayıb.**



Bu fikirləri COP29-un prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev COP29-un fəaliyyət planını təqdim edərkən səsləndirib. O deyib ki, Azərbaycan dünya ictimaiyyətinin COP29-a ev sahibliyi etmək üçün göstərdiyi inamdan şərəf duyur. Bununla belə, ölkəmizin iqlim problemini təkbaşına həll edə bilməyəcəyini vurğulayan COP29 prezidenti dünya ictimaiyyətini həmrəyliyə çağırıb.

Qeyd edək ki, sözügedən təşəbbüslərə iqlim maliyyəsi, investisiya və ticarət üzrə Bakı təşəbbüsü, COP29 "yaşıl" enerji zonaları və dəhlizləri öhdəliyi, COP29 Hidrogen Bəyannaməsi və digər məsələlər daxildir.

# Dünya Bankı ilə ekoloji müzakirə



**İqtisadiyyat naziri Mikayıl Cabbarov Dünya Bankının Avropa və Mərkəzi Asiya üçün dayanıqlı inkişaf üzrə regional direktoru Sameh Naquib Vahba ilə görüşüb.**

İqtisadiyyat Nazirliyindən aldığımız məlumata görə, görüşdə Azərbaycan və Dünya Bankı arasında əməkdaşlığın inkişafından məmnunluq ifadə olunub. Birgə layihələrin ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi, özəl sektorun inkişafı, infrastruktur, bərk məişət tullantılarının idarə edilməsi, kənd təsərrüfatı və digər sahələrə töhfə verdiyi vurğulanıb. Bankla potensial əməkdaşlıq sahələri, növbəti illər üzrə prioritet layihələr, ölkəmizdə həyata keçirilən bərpaolunan enerji layihələri, məşğulluğa dəstək istiqamətində atılan addımlar, eləcə də dövlətə məxsus müəssisələrin dəstəklənməsi istiqamətində bank tərəfindən aparılan araşdırmalar barədə məlumat verilib, COP29 çərçivəsində tərəfdaşlıq imkanları müzakirə edilib.

Görüşdə "Yaşıl və dayanıqlı şəhərlər" layihəsi çərçivəsində birgə fəaliyyət, Bakının su təchizatı və kanalizasiya sistemlərinin bərpası, kənd təsərrüfatı və irriqasiya sistemlərində smart həllər, həmçinin 2025-2029-cu illərdə həyata keçiriləcəyi nəzərdə tutulan və milli prioritetlərə uyğunlaşdırılmış investisiya proqramlarını və texniki yardımı əhatə edən "Ölkə Tərəfdaşlıq Çərçivə" sənədi barədə fikir mübadiləsi aparılıb.




# "Rhenus Group" Bakı konfransının tərəfdaşı olacaq

**Baş ofisi Almaniyada yerləşən qlobal logistika təchizatçısı "Rhenus Group" şirkəti Azərbaycanda keçiriləcək COP29-un rəsmi logistika üzrə tərəfdaşı olacaq.**

COP29 Azərbaycan Əməliyyat Şirkətinin mətbuat ofisindən verilən məlumatda bildirilib ki, bu, "Rhenus Group" şirkətinin dayanıqlı təcrübə və qlobal iqlim məqsədləri ilə bağlı əzmkarlığını nümayiş etdirir.

Logistika sahəsində dünya üzrə aparıcı şirkətlərdən biri olan "Rhenus Group" şirkəti bütün təchizat proseslərinin, yəni malların müxtəlif nəqliyyat növləri ilə qitələrarası daşınması, gömrük rəsmiləşdirilməsi, eləcə də anbar və təyinat məntəqələrinə çatdırılması üzrə əməliyyatların maneəsiz, prosedurların isə effektiv olmasını təmin etmək üçün öz təcrübəsi və qlobal şəbəkəsi ilə yanaşı, yerli tərəfdaşlıqlardan da istifadə edəcək.

Genişmiqyaslı tədbirlərin logistika məsələlərinin idarə edilməsi üzrə zəngin təcrübəyə malik "Rhenus Group" təchizat əməliyyatlarının problemsiz olmasını gerçəkləşdirəcək, iştirakçıların logistika ehtiyaclarını əvvəldən axıra kimi qarşılamaq üçün şirkətin əməliyyatları yerində xidmət göstərən mütəxəssislər qrupu tərəfindən dəstəklənəcək.

Yaradılan bu imkandan istifadə etməklə COP29-un tərəfdaşları qlobal iqlim siyasəti ilə bağlı fəaliyyətlərini genişləndirəcək, dayanıqlılıq üzrə səylərini ön plana çıxaracaq və öz əsas biznes sahələrində iqlim fəaliyyətinə keçidi dəstəkləyəcəklər.

# Ümumi enerjidə "yaşıl" gücün payı artır

**Bu ilin yanvar–avqust aylarında Azərbaycanda elektrik enerjisi istehsalında "yaşıl" enerjinin payı 14 faiz olub. Bunu energetika naziri Pərviz Şahbazov "X" sosial şəbəkəsindəki hesabında bildirib.**

Nazirin sözlərinə görə, cari ilin 8 ayında respublikada elektrik enerjisinin istehsalı 19 milyard 235,4 milyon kilovat-saat, ixrac 858,9 milyon kilovat-saat, idxal isə 125,5 milyon kilovat-saat olub.

Pərviz Şahbazov bildirib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə su da daxil olmaqla bərpaolunan enerji mənbələrindən 2 dəfədən çox artımla 2 milyard 771,8 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib.

# "AzərEnerji"nin "yaşıl" strategiyası

**"AzərEnerji" ASC Prezident İlham Əliyevin "yaşıl" enerji mənbələrinin əhatəsinin genişləndirilməsi, 2030-cu ilədək enerjisistemdə bərpaolunan enerji mənbələrinin payının 30 faizə çatdırılması ilə bağlı strategiyasına uyğun olaraq kompleks tədbirlər planının icrasına başlayıb.**




Qurumdan XQ-yə bildirilib ki, 2028-ci ilə qədər günəş və külək elektrik stansiyalarının gücünün 1850 meqavata çatdırılması planlaşdırılır. Bu isə enerjisistemdə "yaşıl" enerji istehlakının ilin fəsillərinə uyğun olaraq bəzi hallarda 30-60 faizə çatması deməkdir. "Nəzərə alınsa ki, günəş, eləcə də külək elektrk stansiyalarının istehsalı sırf təbii amillərlə, yəni havanın günəşli və ya küləkli olub-olmaması ilə bağlıdır, onda 1850 meqavat bərpaolunan enerji mənbələrinin enerjisistemə inteqrasiyası zamanı dayanıqlığın və etibarlığın qorunması, ölkədə enerji istehsalı gücünün sabit saxlanılıb tələbatın davamlı olaraq təmin edilməsi olduqca əhəmiyyətli məsələdir"– deyə səhmdar cəmiyyətindən bildirilib.

Gələcəkdə enerjisistemdə kataklizmlərin yaranmaması üçün indidən "AzərEnerji" ABŞ və Türkiyə beynəlxalq texniki məsləhətçi şirkətlərinin təhlilləri əsasında 1850 meqavat "yaşıl" enerjinin enerjisistemə inteqrasiyası ilə əlaqədar kompleks tədbirlər həyata keçirir. Hazırda ənənəvi elektrik stansiyalarının tənzimləmə sistemlərinin optimallaşdırılması ilə tezliyin avtomatik tənzimlənməsində iştirak üçün nəzərdə tutulmuş işlərlə yanaşı, "Azərenerji"nin istifadə etdiyi SCADA sistemində də yenilənmələr aparılır. Bu məqsədlə yerli kadrların hazırlanması üçün xarici mütəxəssislər dəvət edilir, xüsusi kurslar təşkil olunur. Eyni zamanda, "SİEMENS", "General Electric", "MİTSUBİSHİ", "Wartsila" və "EMERSON" şirkətləri ilə birlikdə "Sumqayıt", "Cənub", "Şimal" və "Qobu" elektrik stansiyalarında tələb olunan tədbirlər icra edilir. WAMS/WACS tətbiqi ilə monitorinq və nəzarət sistemləri gücləndirilir.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# 55 il əvvəl... Bu gün

## Ulu öndər Heydər Əliyev "Kommunist" qəzetinin 50 illik yubileyində Azərbaycan dilində nitq söyləmişdir

**Mən bir dəfə söylədim ki, keçmişdə sovet hakimiyyəti dövründə, Sovet İttifaqı Kommunist Partiyasının liderləri içərisində başqalarına nisbətən mətbuatla ən yaxın olan adam mən olmuşam. Ən dost olan adam mən olmuşam. Bu, mənim xarakterimdədir, xasiyyətimdədir. Mən həmişə mətbuatla maraqlanmışam, qəzet-jurnalları oxumuşam, radio-televiziyada verilən məlumatlara həmişə diqqətlə yanaşmışam. Ona görə də jurnalistika sənəti mənə çox yaxın olubdur...**



Ulu öndər bu fikirlərini 2002-ci il martın 22-də "Hyat Regency– Naxçıvan" hotelində keçirilən təntənəli mərasimdə ona "RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin "Jurnalistlərin dostu" mükafatı təqdim edilərkən geniş nitqində söyləmişdir.

Ömrünün 60 ildən çoxunu Azərbaycan mətbuatına həsr etmiş, hadisələrin qaynağında olmuş və Ümummilli liderimizin siyasi fəaliyyətini yaxından izləmiş qocaman jurnalist kimi, bu faktların təsdiqinin dəfələrlə şahidi olmuşam. Bu qeydlərimdə onlardan biri haqqında, düz 55 il bundan əvvəl – 1969-cu il sentyabrın 18-də Azərbaycan Dövlət Dram Teatrında "Kommunist" qəzetinin (indiki "Xalq qəzeti") 50 illik yubileyinə həsr olunmuş təntənəli tədbirdən söz açacağam. Mən həmin mərasimin bilavasitə iştirakçısı olmuşam.

O vaxt İrəvanda Azərbaycan dilində çıxan "Sovet Ermənistanı" qəzetində partiya həyatı şöbəsinin müdiri işləyirdim. 1969-cu ilin sentyabr ayında məni redaksiyadan Bakı Ali Partiya Məktəbinə bir aylıq kursa göndərdilər. Arada vaxt tapıb "Kommunist" qəzetinin redaksiyasına da gedib-gəlirdim. Əvvəllər də dəfələrlə bu redaksiyada olmuşdum. Onların arasında özümə tanış və dostlar tapmışdım. Mənim üçün həm əlamətdar, həm də xoş idi ki, əvvəllər qəzetdən – imzadan tanıyıb-bildiyim qələm sahibləri ilə indi üzbəüz görüşür, söhbət edir, maraq göstərdiyim məsələlərə dair suallarıma cavablar da alırdım.

Növbəti gəlişimdə dostlar mənə bir dəvətnamə də hədiyyə etdilər. Bu, qəzetin ilk nömrəsinin çapdan çıxmasının 50 illiyinə həsr olunmuş tədbirə rəsmi dəvət idi.

Çox sevindim. Azərbaycanda iki ay idi ki, rəhbərlik dəyişmiş, Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilmişdi. Fikirləşdim ki, yaxşı oldu. Yəqin ki, bu fürsət sayəsində yeni rəhbəri də görər, səsini eşidərəm. Çünki o vaxt respublikanın yeni sahibi, demək olar ki, televiziyaya çıxmırdı və Bakının özündə onu görməyə can atanların da sayı-hesabı yox idi.

Heydər Əliyev digər rəhbərlərin əhatəsində salona daxil olanda hamı onu gurultulu alqışlarla ayaq üstündə qarşıladı. Heydər Əliyevin çıxışına Azərbaycan dilində başlaması hamını heyrətə salmışdı. Çoxlarının sualdolu nəzərləri biri-birinə dikilmişdi. Bu baxışlardan aydınca duyulan tədbir iştirakçılarının, o cümlədən rəsmi şəxslərin qəlbində bir şübhə yaratmışdı: görəsən, bunun fəsadları, düşər-düşməzi olmayacaq ki?!

Burada onu da deyim ki, o dövrdə bu qəbildən olan tədbirlərdə müttəfiq respublikaların rəhbərləri, həmçinin digər rəsmi şəxslər yalnız rus dilində çıxışlar edir, məruzələr söyləyirdilər. Ulu öndər Heydər Əliyev isə ilk dəfə olaraq bu tendensiyanı pozdu, doğma ana dilində nitq söylədi.

**Haşiyə:** Burada bir məsələni deməyə bilmərəm. Son illərdə bəzi tarixçilər və yazarlar belə bir səhvə yol verirlər ki, guya, Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçiləndən sonra ilk dəfə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) 50 illik yubileyində iştirak edib və ilk dəfə orada ana dilimizdə nitq söyləyib. Halbuki, "Kommunist" qəzetinin 50 illik mərasimi Azərbaycan Dövlət Universitetinin yubileyindən 42 gün öncə keçirilmişdi. Ulu öndər ilk dəfə məhz həmin tədbirdə doğma ana dilimizdə nitq söyləmişdir.

Mən bu iradımı tarixçilərə ona görə söylədim ki, çox uzaq deyil, aradan cəmi 55 il ötür. Belə səhvlərə və təhriflərə yol verdiyimizdəndir ki, erməni tarixçiləri və yazarları doğru-dürüst yazdıqlarımıza da inanmırlar, özləri isə eramızdan əvvəl baş vermiş hadisələrin nəinki ilinin, ayının, hətta gününün davasını eləyir və bir-birini təsdiqləyirlər.

Ulu öndər nitqində bildirdi ki, bu gün biz respublika qəzeti "Kommunist"in birinci nömrəsinin çapdan çıxmasının 50 illiyini qeyd edirik. Bu yubiley böyük siyasi hadisədir. Sovet Azərbaycanının bütün mətbuatının bayramıdır. Bütün respublika zəhmətkeşlərinin fərəhli günüdür. Partiya və hökumət "Kommunist" qəzetinin xidmətlərini yüksək qiymətləndirərək, onu Qırmızı Əmək Bayrağı ordeni ilə təltif etmişdir. Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi, Respublika Ali Sovetinin Rəyasət Heyəti və Nazirlər Soveti "Kommunist" qəzeti redaksiyasının kollektivini, fəhlə və kəndli müxbirlərini, bütün oxucularını bu şərəfli mükafat münasibətilə səmimi-qəlbdən təbrik edirlər.

Heydər Əliyev qeyd etdi ki, "Kommunist" qəzeti həmişə yeni həyat uğrunda çarpışanların ön sıralarında getmişdir. Çoxlarının yaxşı yadında olar ki, bir vaxtlar Bakı fəhlələri vətənpərvərcəsinə belə bir mübariz şüar irəli sürmüşdülər: "Neft beşilliyini iki il yarıma yerinə yetirək!" "Kommunist" qəzeti də o zaman böyük Sovetlər ölkəsinə son dərəcə lazım olan neftlə, obrazlı desək, nəfəs alır, şanlı Bakı neftçiləri ilə birlikdə əmək növbəsində durur, neft quyuları qazmaqda, neft fontanlarını ram etməkdə onlara kömək edirdi. O, qanuni iftixar hissi ilə neftçilərlə birlikdə Vətənə və partiyaya beşillik planın vaxtından əvvəl yerinə yetirildiyi haqqında raport vermişdi.

Qəzet kənd təsərrüfatının kollektivləşdirilməsi, kolxoz quruluşuna, Sovet hakimiyyətinə əl qaldıran qolçomaqların ləğv edilməsi uğrunda çarpışan mübarizlərin də ilk sıralarında gedirdi.

Böyük Vətən müharibəsi başlandıqda isə "Kommunist" qəzeti müharibənin ilk günlərindən öz kəsərli silahını azğın düşmənə yönəltmişdi... Onun hiddət dolu sətirləri Azərbaycanın mərd övladlarını döyüşə çağırır, onları faşizm üzərində tam qələbə çalmağa ruhlandırırdı. Cəbhədən alınıb qəzetin səhifələrində dərc olunan xəbərlər arxa əməkçilərinin qoluna onqat qüvvət verir, onları sovet xalqının müqəddəs qələbəsi naminə fədakar əməyə ruhlandırırdı.

Qəzet müharibədən sonrakı dövrdə də öz vəzifəsini şərəflə yerinə yetirirdi. İndi artıq onun səsi Mingəçevirdən, Neft Daşlarından, Sumqayıtdan gəlirdi. O xalqla birlikdə yüksək binalar ucaldır, neft və qaz kəmərləri çəkir, metro tikir, yazıçılarla və mədəniyyət xadimləri ilə birlikdə ədəbiyyatımızı və incəsənətimizi zənginləşdirirdi.

1970 – 1980-ci illərdə kənd təsərrüfatının sürətli inkişafı bir sıra amilə söykənirdi. Bunun ən başlıcası o idi ki, möhtərəm Heydər Əliyevin şəxsi təşəbbüsü ilə rayonlarda keçirilən səyyar müşavirələr ənənə şəklini almışdı. İl ərzində bəzən dörd dəfə belə müşavirə keçirilirdi. Həmin müşavirələrin gedişi geniş işıqlandırılmaqla yanaşı, orada söylənilən tənqidi qeydlərin, nöqsanların aradan qaldırılması uğrunda qəzetin səhifələrində, sözün əsl mənasında, ciddi mübarizə aparılırdı.

Bu mübarizə erməni separatçılarının Vətənimizin ayrılmaz hissəsi olan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi barədə çıxardıqları qərarlardan sonra daha da şiddətləndi. Qəzetin kollektivi müsəlləh əsgər kimi ölkənin ərazisinin bölünməzliyi uğrunda döyüşə qalxdı. Qəzet səhifələrində Dağlıq Qarabağ məsələsi geniş müzakirə obyektinə çevrildi, separatçıları dəstəkləyən Moskvanın mövqeyi kəskin tənqid olundu.

1990-cı ilin qanlı Yanvar hadisələrindən sonra mövcud quruluşa qarşı mübarizədə qəzet xalqın tribunasına çevrildi, müstəqillik ideyaları ilk dəfə buradan dünyaya bəyan olundu. Yeni həyat uğrunda mübarizədə xalqın mənafeyini hər şeydən üstün tutduğuna görə, ümummilli liderimiz Heydər Əliyev siyasi hakimiyyətə qayıdanda "Xalq qəzeti"ni yenidən öz himayəsinə götürdü.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev qəzetin 75 illik yubileyi münasibətilə kollektivə ünvanladığı təbrik məktubunda (25 avqust 1994-cü il) yazırdı: "Xalq qəzeti" mənalı yaradıcılıq yolu keçmiş, özünəməxsus üslub və sənətkarlıq xüsusiyyətləri olan nəşrlərimizdəndir. Uzun müddət "Kommunist" adı ilə nəşr edilən bu qəzet bütün Sovet dövrü ərzində Azərbaycanın ictimai, iqtisadi və mədəni həyatının güzgüsü olmuşdur.

Respublikada qəzetçilik ənənələrinin fornalaşmasında, jurnalistikamızın inkişafında "Xalq qəzeti"nin xidmətləri xüsusi qeyd olunmalıdır. Bugünkü çoxşaxəli, rəngarəng Azərbaycan mətbuatının bir sıra görkəmli nümayəndələri bu qəzetin yaradıcılıq məktəbini keçmişdir. Müstəqilliyimizin qazanılmasından sonra da "Xalq qəzeti" respublikanın ictimai həyatında baş verən hadisələrə cəsarətlə müdaxilə etmiş, bir çox problemlərin aşkarlanmasında mühüm rol oynamışdır. Amansız təcavüzkara qarşı apardığımız ədalətli mübarizə qəzetin daimi mövzusuna çevrilmişdir. Bu gün qəzet müstəqil Azərbaycanda hüquqi və demokratik dövlət quruculuğu işində güclü səfərbəredici rol oynayır".

Bu gün iftixar hissi ilə deyirik ki, "Xalq qəzeti" milli dildə çıxan ən uzun ömürlü mətbuat orqanımızdır. 105 ilin bütün qovğalarına baxmayaraq, o, xalqımıza, Vətənimizə vicdanla xidmət edib. Çünki burada çalışanlar həmişə dövlətə, dövlətçiliyə, xalqımızın tarixinə, milli-mənəvi dəyərlərinə, dilinə, dininə, adət və ənənələrinə sadiq olub, onu qoruyub, yaşadıblar. Yoxsa, söz sərrafı olan Ümummilli liderimiz bu qəzetin fəaliyyətinə böyük qayğıkeşliklə yanaşmaz, onun xidmətlərini belə yüksək qiymətləndirməzdi.

***Əsgər ƏSGƏROV,***
***"Sovet Ermənistanı" qəzetinin sabiq məsul katibi, AJB-nin üzvü***

---

**XQ-nin şərhi**

# Ermənistan və "boz idxalçılıq"

## Bir daha, riyakarlığın Qərb və Rusiya nümunəsi

**"Rusiyanın sanksiyalardan yayınmasına Ermənistanın şərait yaratmasına imkan verməyi dayandırın!" Bu fikir Azərbaycanın Qeyri-Hökumət Təşkilatlarının ABŞ və Avropa İttifaqında Rusiyaya qarşı sanksiyaların tətbiqi və icrasına nəzarət üzrə əsas məsul qurumların rəhbərlərinə açıq məktubunda yer alıb.**

Məktub ABŞ-nin Xarici Aktivlərə Nəzarət Ofisinin tabe olduğu Xəzinədarlıq Katibliyinin rəhbəri Canet L.Yellenə, ABŞ Ticarət Nazirliyinin Sənaye və Təhlükəsizlik Bürosunun rəhbəri Alan F.Estevesə, ABŞ-nin Ədliyyə Departamentinin rəhbəri Merrik B.Qarlendə, Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayenə, Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik siyasəti üzrə Ali Nümayəndəsi Jozef Borrelə, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelə ünvanlanıb. Sənəddə Rusiyaya Ukrayna müharibəsi ilə əlaqədar tətbiq edilən beynəlxalq sanksiyalardan yayınmağa şərait yaradan Ermənistanın "fəaliyyətindən" ciddi narahatlıq ifadə olunub.

Məktubda vurğulanan məqamlar və faktlar diqqət çəkir. Məsələn, bildirilir ki, 2021-ci ildə Ermənistanın Rusiya ilə xarici ticarət dövriyyəsi 2020-ci illə müqayisədə 24,2 faiz artaraq 2,6 milyard dollar, 2022-ci ildə 2021-ci illə müqayisədə 93,4 faiz artaraq 5 milyard dollar, 2023-cü ildə isə 2022-ci illə müqayisədə 45,7 faiz artaraq 7,3 milyard dollar səviyyəsinə çatıb. 2024-cü il üzrə bu göstəricinin 16 milyard dollara çatacağı bildirilir. Əlbəttə, sənəddə diqqətə çatdırılmış statistikanı tam şəkildə sadalamaq niyyətindən uzağıq.

Ümumən, Ukraynaya qarşı, əslində, dünya ilə müharibə aparan Rusiya üçün müdafiə sənayesinin funksionallığını qoruyub saxlamaq prioritet idi. Ölkəyə ən müasir yarımkeçiricilərin və ikili təyinatlı digər malların ixracına sərt məhdudiyyətlərin tətbiqi isə onun müdafiə sənayesi üçün ciddi zərbəyə çevrilmişdi. Özünü yarımkeçiricilərə, yüksək texnoloji maşın və mexanizmlərə olan tələbatı ödəməyə kökləmiş Rusiya Ermənistan üzərindən "boz idxal" həyata keçirməyə başlamışdı.

Qeyd edək ki, Ermənistanın Rusiyanın Müdafiə Nazirliyi və Federal Təhlükəsizlik Xidməti ilə sıx əlaqələrə malik "Milandr" şirkəti Ukrayna müharibəsindən iki ay sonra "Milur Electronics LLC" adlı uydurma korporasiya yaratmışdı. Elektronika istehsalçılığı və mikroprosessorlar işləyib hazırlamaq sahəsində ixtisaslaşmış "Milandr" qlobal çip nəhəngi TCMS-ə sifarişləri "Sharp Edge Engineering" adlı saxta Tayvan şirkəti vasitəsilə yerləşdirmişdi. "Milur Electronics LLC" isə bilavasitə həmin çiplərin Rusiyaya çatdırılmasını həyata keçirmişdir. Hələ o zaman aydın idi ki, bu həcmdə çipin ölkəyə gətirilib, sonradan Rusiyaya ötürülməsi rəsmi İrəvanın diqqətindən kənarda qala bilməz. Deməli, proses yüksək səviyyədə tənzimlənirmiş.

Başqa bir fakta diqqət yetirək. Məlumdur ki, Rusiya – Ukrayna müharibəsi başlanandan dərhal sonra dünya avtomobil nəhəngləri Rusiya bazarından getmək qərarı verdilər. ABŞ və Avropa İttifaqı 50 min avrodan baha avtomobillərin Rusiyaya ixracına qadağa qoydu. Ermənistan isə bundan xeyir götürdü. Axı necə ola bilərdi ki, ölkənin son 11 ildə yerüstü, hava və su nəqliyyatı vasitələrinin ixracı üzrə illik ən yüksək göstəricisi 40 milyon dollar olduğu halda, Ermənistana 2023-cü ilin cəmi 6 ayı ərzində birdən-birə 351 milyon dollar dəyərində analoji məhsul ixrac edilsin? Görəsən, dünyada bunu görən yox idi?

Sual olunur: diqqətə çatdırdıqlarımız hara, İrəvanın anti-Rusiya ritorikası hara? Maraqlı məqam odur ki, rəsmi Moskvanın ayrı-ayrı təmsilçiləri iki il əvvəl aktiv məcraya qədəm qoymuş sözügedən ritorikaya cavab verərkən, Ermənistanın iqtisadi inkişafının Rusiyanın hesabına olduğunu dəfələrlə vurğulamış, müxtəlif eyham şəkilli fikirlər səsləndirmişdilər. Əlbəttə, baş nazir Nikol Paşinyan administrasiyası buna məhəl qoymamış və necə deyərlər, "barıtı daha da artırmışdı". İndi tam aydındır ki, nəyə görə Ermənistan özünü Rusiyaya borclu saymırmış...

O da məlumdur ki, Rusiya 44 günlük müharibədən sonra daim Ermənistanı öz orbitinə qaytarmaq istiqamətində müxtəlif siyasi jestlər edib. Məsələn, Qarabağdakı Rusiya sülhməramlıları bölgəyə silah-sursat daşınmasına göz yumaraq, nəticə etibarilə orada separatçı rejimin mövcudiyyətini sürdürməsinə dəstək göstəriblər. Bundan başqa, Rusiya rəsmiləri ötən müddətdə Qarabağın statusunun mübahisələndirilməsinə dair fikirlər də səsləndiriblər. Bir sözlə, Ermənistanı şirnikləndirmək yolu tutublar.




Ümumən, nəinki rəsmi Moskva, eləcə də Rusiya ictimaiyyəti özünün "erməni sevdasını" hər addımbaşı, hər fürsətdə ortaya qoymağa can atıb. Lakin Paşinyanın komandasının üzvləri bütün bu sayaq meyilləri dəyərləndirməyib, imkan düşdükcə Rusiyanın Ermənistanın təhlükəsizliyini təmin etməkdə acizlik göstərdiyinə, "Azərbaycanın işğalına" göz yumduğuna dair fikirləri tirajlayıblar. Təxminən belə: Rusiyaya borclu deyiliksə, hər sözü deyə, hər fikri qabarda bilərik.

Ümumən, 2018-ci ildə öz adamının, yəni N.Paşinyanın hakimiyyətə yiyələnməsinə nail olan Qərb dünyası, faktiki olaraq, Ermənistanda həyata keçirilmiş çevrilişi demokratiyanın qələbəsi kimi təbliğ etmişdi. Mövcud fonda Cənubi Qafqazda demokratikləşmənin başlandığına dair mesajlar verilmişdi. Elə fon yaradılmışdı ki, sanki dünya Ermənistandan, ölkə insanın demokratik ruhundan nəşət alır. Mövcud istiqamətdəki ucuz populizmə hesablanmış fikirlər Avropa və dünya mediasını cənginə almışdı. N.Paşinyan da eyforiyaya qapılaraq, beynəlxalq aləmin Qarabağ avantürası naminə İrəvana dəstək göstərəcəyini zənn etmiş və sərsəm bəyanatlar səsləndirərək, 44 günlük müharibə üçün zəmin hazırlamışdı. Müharibənin demokratiyanın qapıdan və pəncərədən deyil, bacadan kortəbii şəkildə daxil olduğu Ermənistan üçün hansı fəlakətli nəticələr, necə bir rəzil və miskin mənzərə formalaşdırdığını isə hamı gördü.

İstər 44 günlük müharibədən əvvəl, istərsə də sonra demokratiyanın erməni xalqına rifah gətirəcəyi, Ermənistanı sosial-iqtisadi cəhətdən güclü dövlətə çevirəcəyi də vurğulanırdı. Bildirilirdi ki, guya, Paşinyan iqtidarının reallaşdırdığı proqramlar dayanıqlı iqtisadi sistem qurmağa, leqal və şəffaf gəlirlər əldə etməyə imkan verən ciddi mexanizmdir. Mövcud ritorikanı təbliğ edən Qərb dividend qazanmaq istəyirdi. Eyni zamanda, öz adamının, yəni Paşinyanın hakimiyyət kreslosundakı yerinin möhkəmlənməsini təmin edir, daxildəki narazılıqlara qarşı immunitet formalaşdırırdı. Əlbəttə, belə bir məqamda Rusiya rəsmilərinin Ermənistanın iqtisadi artım tempinin mənbəyini qabartmaları anlaşılandır. Ancaq onlar, bir qayda olaraq, oxu atıb yayı gizlədirdilər.

Əslində, indi bütün daşlar indi yerinə oturur. Əvvəla, Ermənistan məsələsində kollektiv Qərbin, habelə Rusiyanın riyakarlığı və yalanı tam şəkildə ortaya çıxır. Riyakarlıq ondadır ki, ortada olan anti-Rusiya ovqatı fonunda Ermənistana xüsusi münasibət var. Guya, Qərbdə bilmirlər ki, Paşinyan ölkəsinə pulu "maklerliklə" qazandırır? Çox yaxşı bilirlər, sadəcə, özləri Nikolun hakimiyyətini qorumaq üçün əllərini ciblərinə salmaq istəmədiklərindən, ikincinin rahat qazanc mənbələri əldə etməsinə göz yumurlar. Rusiya isə ona görə oxu atıb yayı gizlədir ki, tam həqiqətləri deyə bilməz. Yəni, Qərbin sanksiyalarından necə yayındığının təfərrüatlarına aydınlıq gətirmək istəməz. Axı rəsmi Moskva müharibədə duruş gətirməsini ölkə ictimaiyyətinə özünün səriştəli fəaliyyət kursu, ölkənin dayanıqlılığı və müqavimət gücünün böyüklüyü kimi izah edir. Hər bir halda, Ermənistanın "maklerlik" ampluası dünyanın Rusiyaya ehtiyacının olduğunun təsdiqidir. Bu ehtiyacın ödənmə vasitəsi kimi riyakarlığın seçilməsi isə son dərəcə böyük utancdır.

Ermənistan "demokratiyası"nın erməni xalqını rifaha daşıyacağına dair fikirləri elə-belədən qabartmadıq. Bəli, məlum olur ki, ortada son dərəcə böyük yalan var. Bu yalan fonunda Ermənistanın hazırkı iqtisadi inkişaf tempi sabun köpüyündən başqa bir şey deyil. Adi bir məqama diqqət yetirək. Məgər ölkənin ticarət dövriyyəsinin həcmini qarşılamaq üçün potensialı var? Əlbəttə ki, yoxdur! Görəsən, Rusiyaya qarşı sanksiyalar dayandırılsa, Ermənistan hazırkı iqtisadi inkişaf tempinə malik olacaqmı? Xeyr! Çünki "boz idxalçı" statusu, "maklerlik" ampluası iqtisadi industriya, real iş yerləri, şəffaf gəlir mənbələri deyil.

***

Sonda qeyd edək ki, erməni varlığı tarix boyu qlobal siyasi oyunlarda alət rolunda çıxış edib. Bu gün də eyni "missiyanı" yerinə yetirməkdədir. Hazırda qeyri-real, şəffaflıqdan uzaq gəlirlər Ermənistanın silahlanması, bütövlükdə, "erməni kartı"nın aktiv saxlanılması üçün vasitədir. Belə bir durum isə Cənubi Qafqazda sülhə və sabitliyə ciddi təhdiddir. Təhdid mühitinin formalaşmasında baiskarlar Qərb və Rusiyadır. Bütün bunlar öz yerində. Amma hesab edirik ki, Paşinyan iqtidarının ölkəyə hansı yolla qazanc gətirməsi erməni cəmiyyətini də ciddi düşündürməlidir. Əlbəttə, qazancın nəyə sərf edildiyi də həmçinin. Tam aydındır ki, İrəvan təhlükəli sularda üzür. Dörd il əvvəl bu üzmənin sıravi erməni üçün hansı faciələrə yol açdığı məlumdur və bu barədə fikrimizi bildirdik. Görünən budur ki, Ermənistan həmin yoldadır. Yenə də onu Azərbaycana qarşı savaşa təhrik edənlər var. Deməli, ölkə üçün yaxın acı tarixin təkrarlanma ehtimalı da böyükdür.

***Ə.CAHANGİROĞLU***
***XQ***

## 18 Sentyabr Üzeyir Musiqi Günü

**Azərbaycanda çoxlu bayramlar keçirilir. Biri də bu günə təsadüf edən Üzeyir Musiqi Günüdür. Bu bayram Ümummilli lider, unudulmaz dahi şəxsiyyət Heydər Əliyevin 1995-ci ildə imzaladığı fərmanla dahi bəstəkarın anadan olmasının 110 illik yubileyi ərəfəsində təsis edilib. O vaxtdan mədəniyyət və musiqi ocaqlarında təntənəli mərasimlər, konsertlər keçirilir, Üzeyir bəyin ölməz əsərləri səsləndirilir.**

# Üzeyir bəyin adı ilə bağlı milli bayram



Üzeyir Hacıbəyli müasir Azərbaycan musiqi mədəniyyətinin qurucusu olub, milli bəstəkarlıq məktəbinin təməlini qoyub. O, Azərbaycan milli operasının, eləcə də Şərqdə ilk operanın banisidir. Musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim kimi adı millətin şərəf kitabına qızıl hərflərlə yazılıb.

Onu da xatırladaq ki, böyük bəstəkarın ad gününün bayram kimi qeyd edilməsi ənənəsi Maestro Niyazi ilə bağlı olub. Görkəmli dirijor Niyazi doğma əmisi Üzeyir bəyin vəfatından sonra hər il bu günü qeyd edirdi. Azərbaycan Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyası) önündə minlərlə insan toplaşırdı. Burada ölməz sənətkarın adını daşıyan Azərbaycan Dövlət Simfonik Orkestri Niyazinin rəhbərliyində bəstəkarın əsərlərini ifa edirdi. Bu gün ənənə daha dolğun şəkildə davam etdirilir.

Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyov 1885-ci il sentyabrın 18-də Şuşa şəhəri yaxınlığındakı Ağcabədi kəndində anadan olub. Soy-kökü, nəsil şəcərəsi Qarabağ əsilzadələri ilə bağlıdır. Onun, qardaşları Zülfüqar və Ceyhunun mədəni-ədəbi istedadının formalaşmasında "Qafqazın konservatoriyası" adlanan Şuşa mühitinin və ailənin rolu danılmazdır. Üzeyir ilk musiqi savadını bu sahənin gözəl bilicisi sayılan dayısı Ağalar bəy Əliverdibəyovdan alıb.

Gələcək dahinin 12–13 yaşı olanda yazıçı-dramaturq Əbdürrəhim bəy Haqverdiyevin rəhbərliyi ilə xanəndə Cabbar Qaryağdıoğlunun və tarzən Mirzə Sadıq Əsəd oğlunun (Sadıqcan) ifasında Şuşada Füzulinin poeması əsasında "Məcnun Leylinin məzarı üstündə" musiqili səhnəciyi göstərilib və heç şübhəsiz ki, bu, onun 1908-ci ildə yaratdığı "Leyli və Məcnun" operası üçün təməl daşı olub...

Düz 15 ildir ki, Azərbaycanda Heydər Əliyev Fondu və Mədəniyyət nazirliyinin təşkilatçılığı ilə dahi bəstəkarın xatirəsinə Beynəlxalq Musiqi Festivalı keçirilir. Həmin bayrama yaxın və uzaq ölkələrdən gələn əcnəbi sənətçilər də qoşulublar. Konsertlərlə yanaşı, Üzeyir bəyin əsərləri əsasında teatr tamaşaları göstərilir və onun yaradıcılıq irsini araşdıran elmi konfranslar təşkil olunur. İldən-ilə mötəbər festivalda iştirak edən ölkələrin də, musiqi kollektivlərinin də sayı artır.

Bu gün başlanan XVI Festival 10 gün çəkəcək. Bayram çərçivəsində Bakı ilə yanaşı, Şuşa, Gəncə və bir sıra şəhərlərdə açıq və qapalı məkanlarda konsertlər, tamaşalar, sərgilər, elmi konfrans və ustad dərsləri təqdim olunacaq. ABŞ, Rusiya, Almaniya, İspaniya, Avstriya, Koreya Respublikası, Türkiyə, Braziliya, Hindistan və digər ölkələrdən gələn qonaqlar Üzeyir Hacıbəyli irsi barədə dolğun məlumat alaraq mədəniyyətimizlə, musiqimizlə daha yaxından tanış olacaq, öz təəssüratlarını zənginləşdirəcəklər.

Azərbaycanın mühüm mədəniyyət hadisəsinə çevrilmiş Üzeyir Hacıbəyli adına Beynəlxalq Musiqi Festivalı ilə bağlı dahi bəstəkarın adını daşıyan Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli həvəslə məlumat verərək bildirib ki, ali musiqi təhsili ocağının tələbələri də öz səhnələrində maraqlı proqramla çıxış edəcəklər: "Ölkənin mədəni həyatında mühüm musiqi tədbirinin möhtəşəm olacağına şübhə etmirəm. Fikrimcə, Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalının inkişafı, burada iştirakçı ölkələrin coğrafiyasının və konsert məkanlarının ildən-ilə genişləndirilməsi suveren Azərbaycanın dünya birliyində mövqelərinin möhkəmlənməsi dinamikasını əks etdirir... Dəvət olunan sənətçilər arasında Avstriyadan olan və Lənkəranda da çıxış edəcək kvarteti görməkdən məmnunam. Bu, çox əladır! Qeyd etməyə bilmərəm ki, Bakının yetirməsi olan görkəmli dirijor və skripkaçı Dmitri Sitkovetski 70 illik yubileyini burada qeyd edəcək".

Festival çərçivəsində Bakı Musiqi Akademiyası ilə bərabər, Milli Konservatoriyada, Dövlət Akademik Filarmoniyasında, Üzeyir Hacıbəylinin Ev- muzeyində də ədəbi-musiqili gecələr olacaq. Azərbaycanın bölgələrindəki konsert məkanlarında çıxış edəcək iştirakçılar isə Şuşa, Gəncə, Lənkəran, Qəbələ, Naxçıvan və Şəmkirdə təbiətin bənzərsiz gözəlliyi ilə də tanış olmaq fürsəti qazanacaqlar.

İnamla demək olar ki, Üzeyir Hacıbəyli adına ənənəvi beynəlxalq musiqi festivalları həm dahi bəstəkarın xatirəsinin böyük ehtiramla yad olunması, həm də musiqi mədəniyyətimizin dünyada təbliği sahəsində görülən işlərin, musiqi sənətimizin inkişafının parlaq təcəssümüdür. Üzeyir Musiqi Günü ömürlərə yazılan bir gün olacaq.

*Əli ƏLİYEV*
*XQ*

**Bu gün Türk dünyasının cahanşümul bəstəkarı Üzeyir Hacıbəylinin anadan olmasının 139-cu ildönümüdür. Azərbaycan professional musiqisinin banisi, böyük musiqişünas – alim, dirijor, mahir publisist, incə yumora malik dramaturq, görkəmli pedaqoq, tərcüməçi, filosof, ictimai xadim, nəhayət, xeyirxah və əvəzolunmaz insan olub.**

# Dahi bəstəkarın ömrünün bəzi məqamları



Üzeyir bəy 76 il bundan əvvəl bizi cismən tərk etsə də, mənən hər zaman bizimlədir. Azərbaycan mədəniyyəti tarixində hansı sahəyə baxırıqsa, orada Üzeyir bəy Hacıbəylini görürük. Üzeyir Musiqi Günü ilə əlaqədar olaraq, bu dəfə onun yalnız musiqi yaradıcılığına nəzər salmaq istəyirik. Bu böyük şəxsiyyət mədəniyyətimiz, incəsənətimiz üçün nələr etmədi? Bütün Şərqdə ilk operalar, operettalar və baletlərin bünövrəsini qoydu. Milli kadrlar yetişdirmək üçün musiqi məktəblərinin, musiqi texnikumunun, Azərbaycan Dövlət Konservatoriyasının təməlini yaratdı. Bütün musiqi kollektivlərinin – xalq çalğı alətləri "notlu" orkestrini, Dövlət xorunu, simli kvarteti, simfonik orkestri, mahnı və rəqs ansamblını, sazçı qızlar dəstəsini ərsəyə gətirdi.

Azərbaycan bəstəkarlıq məktəbinin əsasını qoyan Üzeyir bəy çox sayda bəstəkar və musiqişünaslar nəsli yetişdirdi. Onun tələbələrindən Asəf Zeynallı, Qara Qarayev, Fikrət Əmirov, Cövdət Hacıyev, Niyazi, Soltan Hacıbəyov, Süleyman Ələsgərov, Əşrəf Abbasov, Hacı Xanməmmədov, Səid Rüstəmov, Cahangir Cahangirov, Məmməd Cavadov, Ədilə Hüseynzadə, Ağabacı Rzayeva, Şəfiqə Axundova, Hökumə Nəcəfova, Əminə Eldarova və yüzlərlə başqaları bu gün də xalq tərəfindən sevilən bəstəkar və musiqişünaslardır.

Xalqı və milləti üçün bu qədər işlər görən Üzeyir bəy Hacıbəylinin həyat yolu heç də asan və hamar olmayıb. Hər tərəfdən ona maneçilik törədilib. Amma Üzeyir bəy həvəsdən düşmürdü, bütün çətinliklərə baxmayaraq yazıb-yaratmaqla məşğul olurdu.

Bir tərəfdən "sapı özümüzdən olan baltalar", digər tərəfdən Azərbaycanın çörəyini yeyən, bu millətdən hər zaman yaxşılıq görən ermənilər bütün sayılıb-seçilən ziyalılarımız kimi, Ü. Hacıbəylini də məhv etməyə çalışırdılar. Nəticədə, onların şeytani əməlləri Üzeyir bəyi xəstəliyə düçar etdi. 1937-ci ildə Üzeyir bəyin SSRİ Ali Sovetinə deputatlığa namizədliyi irəli sürülərkən, ermənilər dinc durmur, ondan NKVD-yə donoslar yazırdılar. Onun Müsavat Partiyasının üzvü olduğunu, bu partiyanın qəzetinə redaktorluq etdiyini, "vətən xainlərinin" övladlarını işə götürməsini, qardaşının xaricdə yaşamasını və s. yazırdılar.

Məsələn, filarmoniyanın yerli komitə sədri Akopyan 21 noyabr 1937-ci tarixli məktubunda yazırdı: "Sizə yazıb bildirmək istəyirəm ki, Ü. Hacıbəyov Azərbaycan Dövlət Filarmoniyasında çalışır və Dövlət xoruna rəhbərlik edir. Eyni zamanda Azərbaycan Sovet Bəstəkarlar İttifaqının sədridir. Azərbaycan Dövlət Filarmoniyasında ikinci ildir ki, xor fəaliyyət göstərir və 200-dən çox adam orada oxuyur. Xor Moskvada keçiriləcək Azərbaycan İncəsənəti dekadasına hazırlaşır. Xorun rəhbəri Hacıbəyov sovet ruhunda işləmir. Belə ki, o, xor üzvlərindən elə insanları irəli çəkir ki, onlar yad elementlərə malikdirlər və başqa məktəblərdən qovulublar..."

Dirijor İoanesyan isə yazmışdı: "Bolşeviklər Bakıya gələndə Üzeyir Hacıbəyov İrana qaçmış və bir neçə vaxtdan sonra Bakıya dönmüşdür. Onun Müsavat parlamentinin üzvü olan qardaşı isə Parisə qaçmışdır. Və Üzeyir Hacıbəyov 7 il müddətində Parisə, qardaşına pul göndərmişdir. Xahiş edirəm Üzeyir Hacıbəyovun tərcümeyi-halı öyrənilsin və həqiqi üzü aşkar edilsin".

NKVD-nin erməni rəhbəri Sumbatov bütün bunlar barədə Azərbaycan K(b) P MK-nın katibi Mir Cəfər Bağırova məruzə edirdi. O isə ermənilərin məkrli niyyətlərini yaxşı anlayır və Üzeyir bəyi qorumağa çalışırdı. 1937-ci ildə SSRİ Ali Sovetinə deputat seçkiləri ərəfəsində keçirilən büro iclasında respublika rəhbəri rəsmi surətdə belə bir göstəriş vermişdir: " Hacıbəyov nəhəng bəstəkar kimi nüfuz sahibidir və yeni "Koroğlu" operasının, Azərbaycan kəndlilərinin feodallara, türk sultanlarına qarşı mübarizəsini əks etdirən, ən uğurla və istedadla yazılmış musiqi əsərlərindən birinin müəllifi olduğu üçün namizədliyi hələlik çıxarılmasın". Beləliklə, ermənilərin bütün səylərinə baxmayaraq, Üzeyir Hacıbəyli deputat mandatı qazanıb və ömrünün sonuna kimi deputat kimi xalqına xidmət edib.

Tarixdən məlumdur ki, 5–15 aprel 1938-ci ildə Moskvada Azərbaycan İncəsənəti ongünlüyü keçirilib. Dekadaya hazırlıq işləri Ü. Hacıbəyliyə tapşırılıb. Həmin dekadada M. Maqomayevin "Nərgiz", Qlierin "Şahsənəm" əsərləri ilə yanaşı, Ü. Hacıbəylinin "Koroğlu" operası və "Arşın mal alan" operettası göstərilir. Qeyd etmək lazımdır ki, "Arşın mal alan" məhz SSRİ-nin rəhbəri İosif Stalinin göstərişi ilə proqrama salınmışdı. Üzeyir bəyin əsərləri dekadada çox böyük uğur qazanır. İ.Stalin öz xahişi ilə "Koroğlu"ya 2 dəfə tamaşa edir, onu "ən gözəl sovet operası" adlandırır. Dekadadan sonra Üzeyir Hacıbəyli bütün sovet bəstəkarları içərisində ilk olaraq SSRİ Xalq Artisti adına layiq görülür, Lenin ordeni ilə təltif edilir.

Ongünlük bitdikdən sonra, 17 apreldə bütün iştirakçılar Kremldə qəbul olunur və onlara İ. Stalinin adından böyük ziyafət verilir. Banketdə Üzeyir bəyin bir tərəfində Stalin, digər tərəfində Molotov və Voroşilov əyləşirlər. Stalin orada "Arşın mal alan" operettasından parçalar oxuyur. "Koroğlu" operasını çox bəyəndiyini söyləyir. Üzeyir bəyi novator bəstəkar adlandırır. Simfonik orkestrə xalq çalğı alətlərini əlavə etməsini yüksək qiymətləndirir və qeyd edir ki, sizin təcrübənizdən başqa bəstəkarların da bəhrələnməsini tövsiyə etmişik. Orada söhbət zamanı Voroşilov deyir ki, "Koroğlu" kimi daha iki opera yazın, Stalin isə bu sözləri eşidən kimi "siz iki deyil, dörd belə opera yazmalısınız", – deyir. Sonra əlavə edərək söyləyir: "Yaxşı olar ki, xalq çalğı alətlərində ifaçıların Ümumittifaq müsabiqəsi keçirilsin və həmin yarışmada komissiyanın sədri siz olasınız. Üzeyir bəy məmnuniyyətlə təklifi qəbul edir. Söyləyir ki, bunun üçün ciddi hazırlıq lazımdır. İ.Stalin oradaca müsabiqənin keçirilmə tarixini təyin edir: oktyabr, 1939-cu il...

Üzeyir bəyin məsləhəti ilə bütün Sovet İttifaqı üzrə müsabiqəyə hazırlıq işləri görülməyə başlanır. Hər bir respublikadan, o cümlədən Azərbaycandan da ifaçılar müsabiqədə iştirak edirlər. Əvvəlcə respublika səviyyəsində müsabiqələr keçirilir, sonra qaliblər Ümumittifaq müsabiqəsinə buraxılır. Onların içərisində ermənilər də olur. Təbii ki, millətindən asılı olmayaraq, aşağı səviyyəli ifaçılar müsabiqədən keçmirlər.

Xalqın ürəkdən sevdiyi Üzeyir bəy Hacıbəylinin 1948-ci ildə vəfatı o zaman hər kəsi möhkəm təsirləndirib. Cənazəsi Azərbaycan Elmlər Akademiyasının böyük salonunda qoyulub. İnsanlar dahi bəstəkarla vidalaşmaq üçün ucu-bucağı görünməyən növbələrə düzülüblər. Dövlət və hökumət adamları, ziyalılar, gənclər, ahıllar, əlillər, uşaqlar, məktəblilər güllər, əklillər gətiriblər...

Bu gün də Üzeyir bəy Hacıbəyliyə olan xalq məhəbbəti səngimir. Nə qədər bəşəriyyət var, Azərbaycan xalqı mövcuddur, ölməz Üzeyir bəy də, onun dəryaları xatırladan yaradıcılıq irsi də daim yaşayacaq.

***Səadət QARABAĞLI,***
***Üzeyirbəyşünas***

# Böyük maestronun sənət ocağı

**Üzeyir Musiqi Günü ərəfəsində böyük dirijor və bəstəkar Niyazi Tağızadənin mənzil-muzeyinə baş çəkməyimiz heç də təsadüfi deyildi. Axı mərhum maestro Niyazi Hacıbəylilər nəslinin görkəmli nümayəndələrindən biridir.**

Artıq 30 idən bəri muzey kimi fəaliyyət göstərən Niyazi ocağı xalqımızın mənəvi sərvəti olmaqla bərabər, maestronun ölməz yaradıcılığının etibarlı mühafizə edildiyi ünvandır. Ölməz sənətkar bu mənzildə 1958-ci ildən ömrünün sonunadək, yəni 1984-cü ilədək yaşayıb-yaradıb. Sənət məbədinin direktoru, Əməkdar mədəniyyət işçisi Rza Bayramovla müsahibəni təqdim edirik:

**– Rza müəllim, Niyazi dünyada tanınmış musiqiçilər nəslinin yetirməsi olub. Atası Zülfüqar Hacıbəyov, əmisi Üzeyir Hacıbəyli, dayısı – musiqişünas Ağalar bəy Əliverdibəyov kimi, o da Azərbaycan mədəniyyətinə misilsiz xidmətlər göstərib. Zəhmət olmasa, öncə mənzil-muzeyinin 30 illiyinə hazırlıq tədbirləri barədə məlumat verin.**

– Əvvəla, hamımızın Üzeyir Musiqi Günümüz mübarək olsun! Qaldı ki, mənzil-muzeyimizin yubileyinə, biz bu münasibətlə ilin əvvəlində tədbirlər planı hazırlamışıq. Plana uyğun olaraq, sentyabrın 19-da yubiley münasibətilə təntənəli mərasim nəzərdə tutulur. Mərasimdə Niyazi haqqında çıxışlar, əsərlərindən ibarət maraqlı konsert proqramı ilə yanaşı, bu yaxınlarda mənzil-muzeyin yenidən 3 dildə – Azərbaycan, rus, ingilis dillərində çap olunmuş bukletləri və "Niyazi xatirələrdə" kitabının davamı olan "Maestro Niyazi. Məqalələr, məktublar" bölməsinin ilk dəfə elektron variantının təqdimatı keçiriləcək. Foyemizdə "Muzeyin tarixindən" adlı fotosərgi və 30 illik fəaliyyəti əks etdirən slayd-şou olacaq. Başqa təqdimatlar da planlaşdırırıq.



**– Mənzil-muzeyin açılışında Ulu öndər Heydər Əliyev şəxsən iştirak etmiş və bunu əlamətdar hadisə kimi qiymətləndirmişdi...**

– Bəli, Mədəniyyət Nazirliyi kollegiyasının 1990-cı il dekabrın 28-də verdiyi qərarla Niyazinin mənzil-muzeyi yaradılıb və 1994-cü ildən Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin filialı kimi fəaliyyət göstərməyə başlayıb. Ümummilli Liderimiz Heydər Əliyev 2-ci dəfə hakimiyyətə gəldikdən sonra bütün sahələrə olduğu kimi, mədəniyyətə, muzeylərimizə diqqət, qayğı daha da artıb. Maestronun mənzil-muzeyinin açılışı 1994-cü il sentyabrın 18-də onun iştirakı ilə gerçəkləşib. Çıxışında böyük sənətkarın xatirəsinə ehtiramını bildirən Ulu öndər muzeyin "Qonaqlar" kitabına ürək sözlərini də yazıb.

**– Muzey Niyazi irsinin toplanması, təbliği və nümayişi istiqamətində fəaliyyətini necə qurub?**

– Əsas vəzifə maestronun həyat və yaradıcılığını əks etdirən eksponatlar vasitəsilə xalqımızın yüksək mədəniyyətə, incəsənətə malik olmasını təbliğ etmək, gələcək nəsillərə Azərbaycan xalqının zəngin tarixini, mədəniyyətini tanıtmaqdır. Muzey maddi və mənəvi abidələrin toplanması, mühafizəsi, tədqiqi, təbliği və nümayişi ilə məşğul olan elmi-maarif müəssisəsidir. Niyazinin mənzil-muzeyi yaradılarkən buradakı materialların sayı 4707 ədəd idisə, hazırda muzeydə 6500-dək eksponat qorunub saxlanılır və nümayiş olunur. Bunlar əsasən, Niyazinin müəllif not əlyazmaları, proqramları, sənədləri, kitabları, afişaları, rəsm əsərləri, qramvalları, fotoşəkilləri və şəxsi əşyalarından ibarətdir. Niyaziyə aid materiallar, eyni zamanda, Azərbaycan Milli Tarixi Muzeyində (273 ədəd), S.Mümtaz adına Azərbaycan Dövlət İncəsənət və Ədəbiyyat Arxivində (1604 qovluqda 4905 ədəd), Mərkəzi Dövlət Səsyazmaları Arxivində (214 ədəd) saxlanılır. Təkcə bu il əldə olunmuş materialların sayı 29 ədəd olub.

**– Rza müəllim, maestronun bu evdə yaşadığı ən maraqlı xatirəni bizimlə bölüşərdiniz...**

– Bir gün Niyazi həyat yoldaşı Həcər xanımla evliliklərinin 25 illiyinə hazırlaşırlar. Bu münasibətlə şənlik evdə təşkil olunacaqmış. Maestro bu şad günə çoxlu qonaqlar dəvət edir. Maestro ilə xanımı yaxşı geyinib keçinirlər. Birdən Niyazi Həcər xanıma yaxınlaşaraq "Həcər, ölkəmizdə ölüm cəzası ləğv edilib və ən böyük cəza 25 ildir, mənə elə gəlir ki, 25 ilimi çəkmişəm, məni buraxmaq lazımdır". Həcər xanım isə: "Yox, əzizim, sən ömürlük sürgündəsən", – deyə cavaba verir.

**– Muzeydəki nəşrlər barədə nə deyə bilərsiniz?**

– Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi Niyazi irsinin tədqiqi və təbliği istiqamətində xeyli işlər görüb. Bu sahə həmişə muzey əməkdaşlarının diqqət mərkəzindədir və biz Niyazinin arxiv materiallarının nəşr olunması üzrə fəaliyyətimizi davam etdiririk. Deyə bilərəm ki, "Piano üçün pyeslər" not kitabı və bu kitaba daxil olan əsərlərin CD diskini hazırlayaraq ərsəyə gətirmişik. Mənzil-muzeyin bukleti Azərbaycan və rus dillərində də çap edilib. Nəşr olunan "Təsviri sənət əsərləri Niyazinin mənzil muzeyində" açıqca dəstini də qeyd edə bilərəm ki, buraya görkəmli rəssamların Niyazi ilə bağlı 16 əsəri daxildir. Bu siyahıya "Niyazinin arxiv materialları Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində" illüstrasiyalı kataloqunuda əlavə etmək olar.



Muzeyimizin ən son nəşr işi "Niyazi xatirələrdə" kitabıdır. 2023-cü ildə işıq üzü görən bu nəşrdə Niyazi haqqında 1987-ci ildə rus dilində işıq üzü görən "Maestro Niyazi. Xatirələr, məqalələr, məktublar" kitabının "Xatirələr" bölməsinin rus dilindən ilk dəfə tərcüməsi təqdim olunur. Layihə rəhbəri və elmi redaktoru Alla Bayramova olan kitabda Ümummilli Lider Heydər Əliyevin Niyazinin mənzil-muzeyinin açılışındakı nitqi, Azərbaycanın görkəmli mədəniyyət xadimləri ilə yanaşı, Rusiyadan, Türkiyədən, Gürcüstandan olan mədəniyyət xadimlərinin də xatirələri yer alıb.

**– Maraqlı müsahibə üçün çox sağ olun.**

***Ceyhun ALIŞLI***
***XQ***

# “GPT-5” – süni zəka insanı hara aparır?

**Bu il texnologiya dünyasında ən çox gözlənilən hadisə süni zəkanın “GPT-5” modelinin bazara çıxarılmasıdır. Əvvəlki versiyaların istifadəçiləri bu günü səbirsizliklə gözləyirlər. Lakin ekspert dairələrində dünyanın ən qabaqcıl süni zəka sistemlərindən birinin yaranması birmənalı qarşılanmır. Bəs, ekspertlərin “GPT-5” ilə bağlı narahatlıqları nədir?**



GPT– Amerika şirkəti “OpenAI” tərəfindən buraxılmış danışıq dilinin emal alqoritmidir. Bu zaman neyron şəbəkənin əsas xüsusiyyəti məlumatı yadda saxlamaq və təhlil etmək, onun əsasında ardıcıl və məntiqi mətn yaratmaq qabiliyyətidir. Güclü dil modeli sözlər arasında əlaqə tapmağa, söz və cümlələrin optimal məntiqi ardıcıllığını hesablamağa imkan verən “transformator” arxitekturasına malikdir.

## Süni zəkanın yönü hayanadır?

GPT və digər dil modellərinin meydana çıxması süni zəkanın müasir insanların həyatına daxil olması istiqamətində mühüm addımdır. Generativ neyron şəbəkələrinin imkanları onların inkişafının son həddi deyil. Növbəti illərdə süni zəka texnologiyaları ticarət, marketinq, müştəri xidməti və digər sənaye sahələrində bir çox peşələri əvəz edərək əmək bazarının dəyişməsinə təsir göstərəcək.

2018-ci ildə alimlər bu neyron şəbəkənin “GPT-1” adlı ilk tamhüquqlu versiyasını buraxdılar. Birinci versiyanın uğur qazanmasından sonra “OpenAI” mütəxəssisləri “GPT-2”, “GPT-3” və “ChatGPT” versiyalarını hazırladılar. Sonuncu, danışıq (dialoq) rejimində işləyən süni intellektli chatbotdur. O, “GPT-3.5” dil modelinin təkmilləşdirilmiş versiyasına əsaslanır.

Nəhayət, keçən ilin mart ayında “GPT-4”ün son versiyası istifadəyə verilib. 4-cü versiyasının mühüm üstünlüyü onun müxtəlif fənlər üzrə imtahan və testlərdən keçmək qabiliyyətinin təkmilləşdirilməsidir. Yeni model fənlər üzrə əla nəticələr göstərərək, sələfi “GPT-3.5”in göstəricilərini nəzərəçarpacaq dərəcədə arxada qoyub.

## Yeni nəsil “GPT-5” nələr vəd edir?

“GPT-5” süni zəkanı növbəti, daha yüksək səviyyəyə qaldırmağı vəd edir. Gözlənilir ki, yeni nəsil öz göstəricilərinə görə əvvəlkindən xeyli üstün olacaq. Bu modelin əsas məqsədi bəşəriyyəti AGI-nin (generativ süni zəka) yaradılmasına – insan beyninin yaratdığı mətnlərin yazılmasından tutmuş ağıllı evin idarə edilməsinə qədər geniş spektrli vəzifələri yerinə yetirməyə qadir olan ağıllı maşına daha da yaxınlaşdırmaqdır.

“Chat GPT-5” daha mükəmməl və yaradıcı mətnlər yarada, əla tərcümə edə, fərqli tipli yaradıcı mətnlər yaza, müxtəlif mövzularda suallara cavab verə və təbii dilin işlənməsi ilə bağlı bir çox digər tapşırıqları yerinə yetirə biləcək. “OpenAI” şirkətinin texniki direktoru və “ChatGPT” neyron şəbəkəsinin yaradıcılarından olan Mira Murati deyib: "Hər şey çox sürətlə dəyişir və təkmilləşir".

## “GPT-5”-dən sonra nə olacaq?

Uğurlu nəticə əldə olunarsa, generativ süni zəka insanlardan fərqlənməyəcək. Yəni daha yüksək səviyyəli süni zəka insan üçün əlçatan olan hər hansı tapşırıq və ya konsepsiyanı öyrənməyə və qavramağa qadir olacaq. O, maşına aid olsa da, konkret tapşırıq və ya funksiyalarla məhdudlaşmır. Daha geniş sahələrdə insanlardan daha mükəmməl olduğunu göstərəcək.

“OpenAI” şirkəti istehlakçılara iki variant təqdim edəcək. Birincisi, pulsuz olacaq. İkincisi daha qabaqcıl funksiyalara malik olacaq və ondan abunə yolu ilə istifadə ediləcək. İkinci variantdan 1 ay istifadə etmək təxminən 20 dollara başa gələcək.

## Yeni versiya nəyə qadirdir?

“ChatGPT-5” süni intellektlə qarşılıqlı əlaqəmizi növbəti səviyyəyə qaldıra biləcək bir sıra inqilabi xüsusiyyətlərə və təkmilləşdirmələrə sahib olacaq. “OpenAI”-nin rəhbəri Sam Altman bunları söyləyib: “Ən mühüm təkmilləşdirmələr, çox güman ki, təhlil etmək qabiliyyəti ilə bağlıdır”. O izah edib ki, süni intellekt modelləri məlumatları şərh etmək, nəticələr çıxarmaq və mövcud məlumatlardan və məntiqi nəticələrdən istifadə edərək problemləri həll etmək qabiliyyətinə malik olacaq.

Gəlin aydınlaşdıraq, yeni modeldən hansı imkanlar gözlənilir? Əvvəlcə, o, GPT-lə elə mətn hazırlaya bilər ki, insanlar tərəfindən yazılmış mətnlərdən praktiki olaraq fərqlənməz. İkincisi, bu versiya ünsiyyətin nüanslarını, o cümlədən sarkazm, ironiya və digər incəlikləri daha yaxşı başa düşməyə qadirdir.

Üçüncüsü, “GPT-5” çeşidli mövzu sahələrini dərindən başa düşməyi tələb edən elmi məqalələrin və ya proqram kodunun yazılması kimi mürəkkəb vəzifələri həll edə biləcək.

Qeyd edək ki, “GPT-5” digər süni intellekt sistemlərinə inteqrasiya da edə biləcək. Bu, daha mürəkkəb və intellektual proqramların yaradılmasına imkan verəcək.

## Risklər və təhdidlər

“GPT-5”in inkişafı çoxlarının düşündüyündən çox təhlükəli ola bilər. Chatbot kimi süni zəkanın dominantlığı ciddi narahatlıq doğurur. Çünki onun təsirlərinə nəzarət etmək qeyri-mümkün olacaq.

İlon Mask da daxil olmaqla 1000-dən çox texnologiya tədqiqatçısı süni zəkanın inkişafının dezinformasiya və saxta təbliğatın yayılmasına kömək edə biləcəyi barədə xəbərdarlıq edən açıq məktub imzalayıb. Onlar bütün süni intellekt laboratoriyalarını 6 ay ərzində “GPT-4”dən daha güclü süni zəka sistemlərinin tədqiqatlarını dərhal dayandırmağa çağırıblar.

Bu qəbildən olan söhbətlər fonunda “OpenAI” şirkəti öz məhsullarının təhlükəsizliyindən narahat olmağa başlayıb. “The Nyu York Tayms”ın yazdığı kimi, “OpenAI” şirkətinin Təhlükəsizlik Komitəsi tədqiqatlara nəzarət edəcək və şirkətin texnoloji riskləri necə həll edəcəyinə dair təlimat verəcək.

BVF-nin məlumatına görə, dünya üzrə işləyən əhalinin demək olar ki, 40 faizi hazırda süni zəka ilə bağlı risklərə məruz qalır. Süni intellekti fərqli edən cəhətlərdən biri onun yüksək ixtisaslı işlərə təsir etmək qabiliyyətidir. Nəticədə, iqtisadiyyatı inkişaf etmiş ölkələr neyron şəbəkə ilə bağlı daha böyük risklərlə üzləşəcəklər.

***PÜNHAN***
***XQ***

**Nyu-York qubernatorunun sabiq köməkçisi Linda Sun ABŞ-də Çinin xeyrinə casusluq ittihamı ilə həbs edilib. ABŞ-də yaşayan Çin əsilli vətəndaşlar bunu asiyalılara qarşı növbəti ayrı-seçkilik aktı kimi qiymətləndiriblər. Hüquq müdafiəçiləri də analoji narahatlıqlarını ifadə ediblər. Ancaq mütəxəssislər bildirirlər ki, çinli qadının mühakimə olunması ABŞ-nin Avropa və digər qitələrdəki müttəfiqlərini Pekinin siyasi təsirindən qorumaq məqsədi daşıyan təbliğat kampaniyasının bir hissəsidir. Vaşinqton iqtisadiyyat sahəsində də Pekinə qarşı məhdudlaşdırıcı addımlar atır.**

# ABŞ-nin Çinə təzyiqi artır



“The New York Times” (NYT) yazır ki, Linda Sunun həbsi Pekinin Qərb demokratiyalarına təsir etmək üçün xaricdə agentlər cəlb etməsinin yalnız bir nümunəsidir. Qəzet iddia edir ki, bu cür gizli iş uzun illərdir davam edir. Müxtəlif ölkələrdəki Çin diasporunun sayı təxminən 60 milyon nəfərdir. NYT-nin yazdığına görə, çinli əməliyyatçılar əvvəllər diqqətini müdafiə, aviasiya və ya telekommunikasiya sektorlarında sənaye və ya texnoloji sirlərin əldə edilməsinə yönəltsələr də, Linda Sunun işi Çin kəşfiyyat orqanlarının fəaliyyətinin tamam başqa tərəfini ortaya qoyur: “Onlar Amerikada və ya müttəfiq ölkələrdə ictimai rəyə təsir etməyə çalışırlar ki, orada insanlar Çinin separatçı əyalət adlandırdığı Tayvanın statusu kimi mübahisəli məsələdə Pekinin mövqeyini bəyənsinlər və ya ən azı müsbət qəbul etsinlər”.

ABŞ qanunlarına görə, xarici hökumətlər və ya siyasi partiyalar adından fəaliyyət göstərən şəxslər xarici agent kimi qeydiyyatdan keçməlidirlər. Ancaq Çin əsilli ABŞ vətəndaşı olan Linda Sun bunu etməyib. Prokurorların dediyinə görə, o, Çin hökumətinin rəsmiləri və nümayəndələrinin “əmrləri, xahişləri və ya göstərişləri əsasında hərəkət etdiyini” gizlədib. ABŞ prokurorları iddia edirlər ki, Nyu-York qubernatorluğu ilə asiyalılar arasında əlaqə rolunu oynamış Linda Sun Tayvan rəsmilərinin qubernatorla əlaqə saxlamasına mane olub və Nyu-York əyalətinin ictimai kommunikasiyalarından Tayvan və uyğurlara aid internet şəbəkəsindəki istinadları silib. NYT yazır ki, Linda Sun və əri Kris Hu bu əməllərinə görə milyonlarla dollar alıblar.

Bundan başqa, amerikalı analitiklər deyirlər ki, diaspora ilə casusluq əməliyyatları Pekinə o qədər də baha başa gəlmir. Məsələn, Linda Suna qarşı ittiham irəli sürüldükdən sonra heç bir Çin diplomatı və ya Nyu-Yorkdakı baş konsulluğun əməkdaşı ABŞ-dan qovulmayıb. Pekinin Sunun həbsinə rəsmi reaksiyasına gəlincə, Çin onun həbsi ilə bağlı demək olar ki, heç nə deməyib. Çin Xarici İşlər Nazirliyinin sözçüsü Mao Ning bu məsələ ilə bağlı şərh verməyib və özünü bu sözlərlə məhdudlaşdırıb: “Biz Çinə qarşı pis niyyətli bəyanatlara və böhtanlara qarşıyıq”.

Bununla belə, Pekinin xaricdəki səsi olan “The Global Times” qəzeti Amerikada başlayan Çin əleyhinə kampaniyanı “yeni Makkartiizm” adlandırıb. Xatırladaq ki, ötən əsrin ortalarında senator Cozef Makkartinin təşəbbüsü və Amerikada icra hakimiyyətlərinin dəstəyi ilə kommunistlərə rəğbət bəsləməkdə şübhəli bilinən şəxslərin axtarışı kampaniyasına start verilmişdi. Onun qurbanları görkəmli yazıçılar, aktyorlar və elm adamları olmuşdular. Hətta Amerika qəzetləri baş verənləri “cadugər ovu” adlandırmışdılar.

ABŞ strateji rəqibi saydığı Çinə qarşı iqtisadi sahədə də addımlar atır. Hələ 2022-ci ilin oktyabrında ABŞ Çində ən son texnologiyaların inkişafının qarşısını almaq məqsədilə bu ölkəyə yarımkeçiricilərin ixracına məhdudiyyətlər tətbiq etmişdi. Eyni zamanda, amerikalılar xarici ticarətə nəzarət sistemində boşluqların yaranmasından qorxurlar ki, bundan yararlanan Yaponiya və Hollandiya öz müasir avadanlıqlarını Çinə tədarük edə bilərlər. Bu səbəbdən Vaşinqton Tokio və Haaqanı Çin əleyhinə tədbirlərə qoşulmağa çağırır. Pekin ümid edir ki, digər ölkələr Vaşinqtonun təzyiqlərinə müqavimət göstərəcəklər. Çin rəsmilərinin fikrincə, ABŞ milli təhlükəsizlik konsepsiyasının sərhədlərini aşır, ondan silah kimi istifadə edir.

ABŞ prezidentinin milli təhlükəsizlik üzrə köməkçisinin müavini, Rusiya əleyhinə sanksiyaların “memarı” Dalip Sinqhin sözlərinə görə, Vaşinqton Çinə təsir etmək üçün mümkün qədər geniş koalisiya yaratmağa çalışır. Siyasi analitiklər bildirirlər ki, söhbət dünya liderliyindən getdiyi üçün Pekinin heç bir etirazı ABŞ-yə təsir etməyəcək.

***SE LAY***
***XQ***


Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**

*Rəngkarlıq və Təsviri incəsənət müəllimliyi kafedrasında vakant kafedra müdiri vəzifəsini tutmaq üçün*

**Müsabiqə Elan Edir**

Müsabiqədə iştirak etmək istəyən namizədlər elan dərc olunduqdan sonra 1 ay müddətində aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Rektorun adına yazılmış ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi.
3. Tərcümeyi -hal.
4. Ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri.
5. Elmi və elmi-metodiki işlərin siyahısı.
6. Müvafiq struktur bölmənin inkişafı ilə bağlı kafedra müdirinin platforması.

Qeyd-müsabiqə elan olunan müəssisədə çalışan şəxslər ərizə ilə birlikdə yalnız 4-cü və 6-cı bəndlərdə qeyd olunan sənədləri təqdim etməlidirlər.

Ünvan- Bakı, H.Əliyev prospekti 58.

***REKTORLUQ***

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Azərbaycan Texnologiya Universiteti**

*Aşağıda adı göstərilən vakant vəzifənin tutulması üçün*

**Müsabiqə Elan Edir**

**- “Kimya və metallurgiya mühəndisliyi” kafedrası** – kafedra müdiri.

Sənədlərin təqdim olunması bu elan dərc edildiyi tarixdən 1 ay müddətindədir.

Müsabiqədə iştirak etmək üçün sənədlər Azərbaycan Respublikası Təhsil Nazirliyinin 5 fevral 2018-ci il tarixli F-100 nömrəli qərarı ilə “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması qaydaları”nın tətbiqi barədə əmrə uyğun elan dərc olunduğu gündən başlayaraq 1 ay müddətində qəbul edilir.

Sənədlər təlimata uyğun olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir.

Əlaqə telefonu – 022-257-56-29.

Ünvan – AZ 2011, Gəncə şəhəri, Ş.İ.Xətai prospekti 103.

***REKTORLUQ***

**“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti**

*ASCO-nun Bibiheybət gəmi təmiri zavoduna tələb olunan dekorativ plastikin satın alınması məqsədilə*

**Müsabiqə Elan Edir**

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il sentyabrın 25-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində,2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1263.

Ünvan- Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Bakı Dövlət Universiteti**

*aşağıdakı fakültə və kafedralarda boş olan və seçki müddəti başa çatacaq vəzifələri tutmaq üçün*

**MÜSABİQƏ ELAN EDİR**

**Kafedra müdiri vəzifəsini tutmaq üçün:**

| Kafedralar | Vəzifələr | Yerlər |
|---|---|---|
| Genetika kafedrası | Kafedra müdiri | 1 |
| Hidrometeorologiya kafedrası | Kafedra müdiri | 1 |
| Əqli mülkiyyət hüququ kafedrası | Kafedra müdiri | 1 |
| Ümumi dilçilik kafedrası | Kafedra müdiri | 1 |
| Rus dili (təbiət fakültələri üzrə) kafedrası | Kafedra müdiri | 1 |
| İdarəetmə nəzəriyyəsinin riyazi üsulları kafedrası | Kafedra müdiri | 1 |
| İnformasiya texnologiyaları və proqramlaşdırma kafedrası | Kafedra müdiri | 1 |

**Professor-müəllim vəzifələrini tutmaq üçün:**

| Kafedralar | Vəzifələr | Yerlər |
|---|---|---|
| Dünya iqtisadiyyatı kafedrası | Müəllim | 1 |
| Politologiya və sosiologiya kafedrası | Müəllim | 0,5 |
| Sosial və pedaqoji psixologiya kafedrası | Müəllim | 1 |
| Tətbiqi riyaziyyat kafedrası | Professor | 1 |

Qeyd- müsabiqədə iştirak etmək üçün sənədlər seçkinin elan olunduğu gündən Azərbaycan Respublikası Təhsil Nazirliyi Kollegiyasının 15 noyabr 2017-ci il tarixli 5/5 nömrəli Qərarı ilə təsdiq olunmuş “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları”na əsasən 1 ay müddətində, 7 avqust 1996-cı il tarixli 401 saylı “Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında” Əsasnaməyə uyğun olaraq 30 gün müddətində qəbul edilir.

Ünvan- AZ1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 33.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 203 (30607) 18 sentyabr 2024-cü il, çərşənbə

# AFFA 3 klubu cərimələyib



**AFFA İntizam Komitəsinin növbəti iclası keçirilib. İclasda Misli Premyer Liqasının VI turunda qeydə alınan qayda pozuntularına hüquqi qiymət verilib.**

"Araz–Naxçıvan" – "Kəpəz" oyunu bitdikdən sonra meydana kənar şəxs daxil olduğuna görə ev sahibi olan klub 800 manat cərimə edilib.

"Şamaxı" – "Sumqayıt" qarşılaşmasında bölgə təmsilçisinin 4 futbolçusu sarı vərəqə aldığı üçün klub 700 manat cərimə olunub. Həmin görüşdə "Sumqayıt"ın futbolçuları isinmə hərəkətləri zamanı Əsasnamə tələblərini pozduğuna görə "kimyaçılar" 500 manat ziyana düşüb

# "Formula 1" Azərbaycan Qran-prisinin uğur göstəriciləri



**Bakıda yenicə başa çatmış Azərbaycan Qran-prisi təkcə maraqlı və gərgin mübarizə ilə deyil, həm də bir sıra maraqlı statistik göstəricilərlə yadda qalıb.**

Təsnifat mərhələsində qalib gələn Şarl Lekler bu göstəricidə Mika Hakkinenlə bərabərləşərək, karyerasında 26-cı poul-pozisiyanın sahibi olub.

Bu, "Ferrari" komandasının Bakıda beşinci, Ş.Leklerin bu trekdə dördüncü və cari mövsümdə üçüncü pouludur.

Oskar Piastri karyerasında beşinci dəfə birinci sıradan start götürüb. Bu, "McLaren" komandasının Bakıda ilk "altılıq"da birinci startıdır.

Serxio Peresin dördüncü yeri tutması ona Mayami-2023-dən sonra ilk dəfə "Red Bull"dakı həmkarı Maks Ferstappeni qabaqlamağa imkan verib.

Azərbaycan Qran-prisinin qalibi olan avstraliyalı Oskar Piastri cari mövsümdə (Macarıstandan sonra) ikinci qələbəsini qazanıb. O, hər iki uğuru ikinci yerdən başladıqdan sonra əldə edib.

"McLaren" pilotları əvvəllər Bakıda finişə beşinci yerdən yuxarı çatmayıblar.

O.Piastri son 7 yarışda (Avstriya Qran-prisi - Azərbaycan Qran-prisi) ən çox xal (135) qazanıb.

Piastri və dördüncü yeri tutan Lando Norris Bakıda 38 xal qazanıblar. "McLaren" komandası 2014-cü il Avstraliya Qran-prisindən bəri ilk dəfə Konstruktorlar Kubokunda liderliyə nail olub və "Red Bull Racing"in 55 Qran-pri və ya 847 gün davam edən liderliyi sona çatıb.

Şarl Leklerin ikinci yeri tutması onun Azərbaycandakı ən yaxşı nəticəsidir. Ardıcıl dördüncü ildir ki, Ş.Lekler Bakıda pouldan start götürərək qalib gələ bilməyib.

Maks Ferstappen beşinci yeri tutub və son 5 Qran-pridə cəmi bir dəfə fəxri kürsüdə yer alıb.

Aleks Albonun qazandığı yeddinci yer "Williams" komandası üçün mövsümün ən yaxşı nəticəsidir. Onun gənc komanda yoldaşı Franko Kolapinto karyerasının ilk xallarını ikinci yarışda qazanıb. Bu 2 yarışda F.Kolapinto "Williams"dakı sələfi Loqan Sardcentin 2023 və 2024 mövsümlərində qazandığından (1 xal) daha çox xal (4) toplayıb. F.Kolapinto 1982-ci ildə Cənubi Afrikada fərqlənən Karlos Roytemandan sonra xal toplayan ilk argentinalı olub.

Lyuis Hemilton karyerası ərzində 100,000 km məsafə həddini keçib (hazırda 100,278 km), yalnız Fernando Alonsodan (107,347 km) geri qalır.

Oliver Berman "Haas" komandasının tərkibində onuncu yeri tutub və "Formula 1" tarixində ilk iki Qran-pridə iki fərqli komanda üçün xal qazanan ilk pilot olub.

Bakıda keçirilən yarış mövsümün ikinci (Avstraliyadan sonra) virtual təhlükəsizlik maşını rejimində başa çatan yarışı olub.

*L.AZAD*
*XQ*

# İkiqat Paralimpiya çempionu şöhrət zirvəsində

**Builki Paris Yay Paralimpiya Oyunlarında idmançıların əzmkar mübarizəsi sərhəd tanımadığını dünyaya nümayiş etdirdi. Fiziki sağlamlığı məhdud atletlərin yeni rekordları insanların nəyə qadir olduqlarını, aydın və qəti məqsədlərin onlara qələbə qazandırdığını bir daha təsdiq etdi. Bəli, həyat eşqi hər şeyin mümkün olacağını sübuta yetirir. Kifayət edər ki, bunun üçün qarşıdakı bütün maneələri aşıb keçəsən. Böyük idmanda belə mübarizə aparanların qələbəsi də qəhrəmanlıqdır.**




Bugünlərdə Paris paralimpiadasının belə qəhrəmanlarından biri olan Azərbaycana bu mötəbər Oyunlarda qızıl medal qazandıran Orxan Aslanov "Xalq qəzeti"nin qonağı oldu. Parisdə fəxri kürsünün ən yüksək pilləsində dayandığı an çöhrəsinə yayılmış qürur qarışıq sevinc hissi hələ də bir gözündən getməmişdi. Redaksiyamızda keçirilən görüşdə Orxan sınaqlardan çıxardığı uğur düsturunu belə ifadə etdi: "İnsan həmişə irəli can atmalıdır. Qarşımızda yeni üfüqlər açılır. Daha böyük səylə, var gücümüzlə onlara doğru getməliyik".

Qələbə ovqatlı söhbətlərdən sonra qəhrəmanımızdan qəzetimiz üçün müsahibə də aldıq:

**– Orxan, idmana 8 yaşında gəlmisiniz. Tez olmayıbmı?**

– Anamın tövsiyəsi və istəyimlə ilk dəfə basketbolla Bakıda 171 nömrəli məktəbdə məşğul olmuşam. Bu idman növünə də marağım çox böyük idi. Təxminən, 1 il məşğul olduqdan sonra bazada təmir və yenidənqurma işlərinə görə 1 il basketboldan aralı qaldım. Təhsil aldığım 249 saylı orta məktəbdə bədən tərbiyəsi müəllimimiz Valeri İvanoviç idmanda potensialımı görüb məni atletika ilə məşğul olmağa həvəsləndirdi. Bu idman növündə anlayışım çox olmasa da, qısa müddətdə onu çox sevdim. Başlanğıcda 3 təkanla tullanma ilə məşğul olsam da, müəyyən müddətdən sonra belimdə yaranan zədə ilə bağlı məşqləri dayandırdım.

**– Böyük idmana gedən yol çətindir. Nə vaxtsa yorulub idmandan getmək istədiyiniz anlar olubmu?**

– Yorulduğum, hətta bezdiyim anlar da olurdu. Zədə səbəbindən əziyyət çəkirdim. Bəzən məşqlərin çoxluğu məni yorurdu. Düşünəndə ki, bu çətin yolun sonu yüksəlişdir, hədəfə çatmaq üçün daim çalışırdım. Amma uğur qazananda zədə, yorğunluq, əziyyət yaddan çıxırdı. Düşünürdüm ki, yaxşı ki, bu yoldayam. Düz yol seçmişəm

**– Uşaqlar idmanda özlərinə kumir seçirlər. Bənzəmək istədiyin insan kimi böyük idmanda yüksək zirvə fəth edəcəyini düşünürdünüzmü?**

– İnanmıram ki, yenicə idmana başlayan düşünsün ki, böyük idmanda gücünü sınayıb, hətta yüksək zirvəyə ucalacaq. Bunu hamımız istəyirik amma həyatın öz icazəsi var. Xarici atletlər arasında rəğbət bəslədiyim idmançılar çox idi. Onların texniki göstəriciləri mənə maraqlı gəlirdi və belə bir nəticə qazanmaq istəyirdim. Amma əsas kumirim Fərid Mansurov idi. İlk dəfə 2004-cü ildə Afina Olimpiadasında Azərbaycan bayrağını yüksəklərdə dalğalandıranda, himnimizi səsləndirəndə o qədər təsirləndim ki, hətta həyəcandan otura bilmədim. Onda 9 yaşım var idi. Artıq Vətənin müqəddəsliyini, ülviliyini başa düşürdüm. Bilirdim, beynəlxalq arenada himnimizi səsləndirmək necə bir müqəddəs hissdir. İlk dəfə o zaman belə bir yüksək zirvəyə ucalmaq barədə düşündüm.

**– Valideynləriniz necə, gələcəyinizi idmanda, yoxsa təhsildə görürdülər?**

– Hansı yolu seçmişəmsə, valideynlərim mənə hər zaman dəstək olublar. Amma cəmiyyətimizdə bu düşüncə həmişə olub ki, valideynlər övladlarını idmandansa, daha çox təhsilə yönəldirlər. Mənim valideynlərim də ali təhsil almağımı, gələcəkdə nüfuzlu bir sahədə işləməyimi çox istəyirdilər. Həm özümün, həm də onların istəyi ilə Texniki Universitetə qəbul olunsam da, təhsilimi başa vura bilmədim. Çünki böyük idmanı seçdim. Valideynlərə demək istəyirəm ki, uşağın istəkləri nəzərə alınmalıdır. Mən də valideyn olacağam. İstərdim ki, müəyyən qədər öz övladıma yol göstərim. Amma seçiminə də hörmətlə yanaşım.

Əgər idmanı sevməsəydim, bu qədər nailiyyət əldə edə bilməzdim. Paris Paralimpiadasına hazırlaşmaq, 3 illik prosesi əhatə etdi. Ardıcıl, ağır məşqlərin, yorucu təlimlərin arxasında idmana böyük sevgim dayanırdı. Paralimpiadaya qədər həyəcan davam edirdi. Əsəblərim tarıma çəkilmişdi. Oyunları səbirsizliklə gözləyirdim və bilmək istəyirdim ki, nəyə qadirəm. Amma sonda istədiyim nəticəni qazananda sözlə ifadə edilməyəcək hisslər keçirdim.

**– Paris Oyunlarına artıq paralimpiya çempionu kimi yollanmışdınız. Bu, əlavə stimul yaradırdımı?**

– Dəfələrlə vurğulamışam. Ən sevmədiyim hal gözləntilər altında qalmaqdır. Hamı səndən nəticə gözləyir, sən isə onu əldə edə bilmirsən. Bu çox üzücü bir hissdir. Yarışın şanslı iştirakçılarından favoritlərindən biri kimi, hamı məndən qələbə gözləyirdi. Amma mən maksimal səviyyədə sakit və təmkinli hazırlaşmağı üstün tuturam. Ölkəmizi təmsil etmək böyük məsuliyyətdir. Düzdür, məsuliyyətdən qaçan insan deyiləm, etimaddan güc almağı da bacarıram. Xalqımızın, məşqçi və mütəxəssislərin etimadını doğrultduğum üçün daha çox sevinirəm. Bir də ölkəmizdə biz idmançılara böyük dəstək verilir, bu da qələbələrimiz üçün əsas yaradır. Dövlətimizin idmançılara diqqət və qayğısı, ilboyu medianın onların yanında olması, nəticələri işıqlandırması, xoş arzular böyük ruh yüksəkliyi yaradır.

**– Bəs Tokio Paralimpiadasında ilk qələbəni necə xatırlayırsınız?**

– Tokioda pandemiyaya görə hazırlıq prosesi çətin olmuşdu. Paralimpiya ailəsi maksimal kömək göstərdi, orada yaxşı nəticə göstərdik. Amma Yaponiyanın paytaxtında azarkeşlərin olmaması, pandemiyanın cansıxıcı tərəfləri bir boşluq yaradırdı. Tokioda bizi ən çox həvəsləndirən, mənəvi ruh verən Vətən müharibəsində qazandığımız böyük qələbə idi. İlk dəfə idi ki, qalib xalqın qalib idmançıları kimi yarışa qatılmışdıq. Bu, ayrı bir hiss idi.

Paris Paralimpiadasında isə azarkeş dəstəyi çox idi. İlk dəfə idi ki, paralimpiya oyunları canlı yayımlanırdı. Parisdə 100 minlərlə azarkeş qarşısında Azərbaycanın bayrağını yüksəldib, dövlət himnimizi səsləndirəndə bütün xalqımızı qarşımda hiss etdim.

"Şöhrət" ordeni ilə təltif edilməyim də mənim üçün çox böyük bir hədiyyə oldu. Dostlarım məni təbrik edəndə, hətta ikiqat təsirləndim. Belə bir yüksək mükafata layiq görüldüyüm üçün qürur hissi keçirirəm. İdmana, idmançılara diqqət və qayğıya görə Azərbaycan Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlığımı bildirirəm.

**– Qarşıdakı hədəfləriniz nədir?**

– Hədəflər böyükdür. Ən əsası, növbəti oyunlarda – Los Anceles Paralimpiadasında da iştirak etmək istəyirəm. 2021-ci ildə zədələrimi tam sağaltmadan hazırlığa başladım. Bu dəfə o səhvi etməyəcəyəm. Tam zədələrimi sağaldıb sonra məşqlərə başlayacağam. Arzum 3-cü dəfə Paralimpiya çempionu olmaqdır.

*Leyla QURBANOVA*
*XQ*

# Cənnət almasının özü kiçik, faydası böyükdür



**Cənnət almasının faydaları saymaqla bitməz. Digər alma növlərində olduğu kimi cənnət almasının tərkibində də bir çox faydalı vitamin (A, C, PP, B) və minerallar (kalsium, mis, dəmir, sink, marqans), pektinlər, fitonsidlər, antioksidantlar, büzücü maddələr və s. var.**

Mütəxəssislərin fikrincə, digər alma növləri ilə müqayisədə cənnət almasının tərkibində bioloji aktiv maddələr daha çoxdur. Hələ dahi Hippokrat öz elmi işlərində cənnət almalarının faydasını qeyd edirdi və onları ürək, böyrək və dəri xəstəlikləri zamanı yeməyi tövsiyə edirdi.

Dietoloqlar özü kiçik olan almanın 7 böyük faydasını açıqlayıblar:

1. Ürək və damarlar üçün çox faydalıdır, təzyiqi tənzimləməyə kömək edir, damarları möhkəmləndirir.
2. Qanda xolesterinin səviyyəsini aşağı salır, ateroskleroz, infarkt və insult riskini azaldır.
3. Bağırsaqların fəaliyyətini aktivləşdirir, qəbizliyin qarşısını alır.
4. Böyrəklərin fəaliyyəti üçün çox faydalıdır.
5. Polifenol maddələri ilə zəngin olduğundan xərçəngin (xüsusilə, qaraciyər və yoğun bağırsaq xərçənginin) riskini azaldır.
6. Sərbəst radikalları neytrallaşdırır və bununla da orqanizmdə qocalma prosesini ləngidir.
7. Dərinin vəziyyətinə müsbət təsir edir, eyni zamanda, görmə qabiliyyətinə yaxşı təsir edir.

*Z.HÜSEYNLİ*
*XQ*

# Dəyişkən buludlu bir gün...



**Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Milli Hidrometeorologiya Xidmətindən mətbuata verilən məlumata görə, səhər bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı ehtimalı var.

Şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 16-20° isti, gündüz 23-26° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 760 mm civə sütunu olacaq. Nisbi rütubət gecə 65-75 faiz, gündüz 45-55 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gündüz əksər rayonlarda yağıntılar tədricən kəsiləcək. Gecə və səhər bəzi dağlıq və dağətəyi rayonlarda duman olacaq. Mülayim şərq küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 14-19° isti, gündüz 23-28° isti, dağlarda gecə 5-9° isti, gündüz 11-16° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

***✓ 2017-ci ildə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çagırış üzrə Dövlət Xidməti tərəfindən Şəfiyev Fuad Həmid oğlunun adına verilmiş müharibə veteranının MV seriyalı, 00337 nömrəli vəsiqəsi itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN

Pirallahı rayonundan Vasif İmanov Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsinin rəisi, polis general-mayoru Ramiz Zeynalova qardaşı

**TOFİQ ZEYNALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**T E L E F O N L A R:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29**
**Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com**
**Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az**
**+994(51) 280-16-44**

**"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.**

**Ü N V A N I M I Z:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS** 0282
**TİRAJ** 3935
**SİFARİŞ** 2119
**QİYMƏTİ** 60 qəpik

**Növbətçi redaktor**
**Paşa ƏMİRCANOV**
**Çapa imzalanmışdır 00:00**